Hər kəs ədalətli olacaq

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 20 (6162) 5 iyun 2026-cı il | Qiyməti 40 qəpik

## Prezident Mərkəzi Bankın yeni binasının açılışını etdi



Bax:səh-2

## Vilayət Eyvazov yeni təyin olunmuş hakimlərlə görüşdü



**Daxili İşlər Nazirliyində (DİN) vəzifəyə yeni təyin olunmuş hakimlərlə görüş keçirilib.**

Bu barədə Adalet.az-a nazirlikdən məlumat verilib.

Bildirilib ki, görüşdə hüquq-mühafizə və məhkəmə institutları arasında formalaşmış səmərəli əməkdaşlıq, qanunun aliliyinin təmin edilməsi, vətəndaşların hüquq və azadlıqlarının etibarlı müdafiəsi müzakirə olunub.

Qeyd olunub ki, bu təmasların praktiki məsələlərlə bağlı hakimlərin məlumatlılığının artmasına hüquq sisteminin daha da təkmilləşdirilməsinə töhfə verir.

Daxili İşlər Nazirliyinin fəaliyyət istiqamətləri, asayişin və təhlükəsizliyin mühafizəsi, cinayətkarlıqla mübarizədə görülən işlər diqqətə çatdırılıb.

*İlqar RƏSUL*

## Daşın üstündə oturmuş şair

Bax:səh-7

## Bakı-Tbilisi-Qars dəmir yolu istifadəyə verildi



**Bakı-Tbilisi-Qars dəmir yolu xətti istismara verilib.**

Adalet.az xəbər verir ki, Gürcüstanın Baş naziri İrakli Kobaxidze, iqtisadiyyat və dayanıqlı inkişaf naziri Mariam Kvrivişvili, Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Türkiyənin nəqliyyat və infrastruktur naziri Abdulkadir Uraloğlu istismara verilməni bildirən düyməni sıxıb.

## Pentaqon İran sahillərində hərbi gəmi qrupu yerləşdirib



**Təxminən 25 hərbi gəmidən ibarət ABŞ Hərbi Dəniz Qüvvələri qrupu İran sahillərində yerləşdirilir. Adalet.az xəbər verir ki, bu barədə ABŞ Hərbi Dəniz Qüvvələri İnstitutu məlumat yayıb.**

Qeyd olunur ki, iki təyyarədaşıyan gəmi, USS Abraham Lincoln və USS George HW Bush, hazırda İranın cənub-şərqində Ərəb dənizində döyüş növbətçiliyi aparır. Onların ümumi donanmasında 100-dən çox qırıcı təyyarə, elektron müharibə təyyarəsi və havada erkən xəbərdarlıq təyyarələri var.

Təyyarə daşıyıcıları ilə yanaşı, Hörmüz boğazının şərqindəki Oman körfəzi də daxil olmaqla, bölgədə 14 idarə olunan raket esminesi, iki sahil döyüş gəmisi və üç minaaxtaran gəmi yerləşdirilib.

Oman körfəzində həmçinin göyərtəsində dəniz piyadalarının ekspedisiya batalyonu olan üç böyük desant gəmisindən ibarət amfibiya desant qrupu da mövcuddur.

Döyüş patrul xidmətlərindən əlavə, gəmilər İran limanlarının dəniz blokadasının tətbiqində iştirak edir.

## Tramp: Bu ay sülh üzrə məhsuldar müzakirələri səbirsizliklə gözləyirik



**Biz Ağ Evdə görüşdüyümüz zaman irəliyə doğru addım atdıq və Ermənistan ilə Azərbaycan arasında uzunmüddətli sülhə nail olduq.**

Adalet.az xəbər verir ki, bu barədə ABŞ Prezidenti Donald Trampın "Bakı Enerji Həftəsi"nə ünvanladığı məktubda deyilir.

"Bildiyiniz kimi, regional enerji inteqrasiyası avqustun 8-də keçirilmiş tarixi sülh sammitinin əsas sütunudur. Mənim Administrasiyam bu mövzu ilə əlaqədar iyun ayında məhsuldar müzakirələri səbirsizliklə gözləyir. Biz birlikdə sülhü irəliyə doğru aparacaq, rifahı gücləndirəcək və Sizin bölgədə, bütün dünyada daha əmin gələcək quracağıq", - Tramp qeyd edib.

## Zəngəzur dəhlizi nə zaman istifadəyə veriləcək?

**"Prezident İlham Əliyev Bakı Enerji Həftəsinin rəsmi açılış mərasimində çıxışı zamanı Şərq-Qərb dəhlizinin yeni qolu olacaq Zəngəzur dəhlizinin şübhəsiz inşa ediləcəyini bildirib. Zəfərdən sonra Prezident İlham Əliyev dəfələrlə bildirib ki, Azərbaycanın əsas hissəsinin Naxçıvana quru yolla maneəsiz keçidi təmin edilməlidir. Cənab Prezident Zəngəzur dəhlizinin reallaşacağını və bunun sadəcə zaman məsələsi olmasını bəyan edib. Və bu artıq reallaşmaqdadır".**

Adalet.az xəbər verir ki, bunu iqtisadçı deputat Vüqar Bayramov deyib. O bildirib ki, Zəngəzur dəhlizinin Azərbaycan ərazisində işlər tamamlanmaq üzrədir. Onun sözlərinə görə, dəhlizin Ermənistan ərazisindən keçən hissəsi isə cəmi 40 kilometrdir: "Bu o deməkdir ki, işlərin intensivləşdiyi halda dəhlizin daha qısa zamanda istifadəyə verilməsi mümkündür. 15 milyon ton ötürmə potensialı olacaq Zəngəzur dəhlizi regionun inkişafına xüsusi töhvə verəcək. Yaxın gələcəkdə Orta Dəhlizin mühüm seqmentinə çevriləcək Zəngəzur dəhlizi Azərbaycanın geosiyasi mövqeyinin daha da möhkəmlənməsinə xidmət etməklə yanaşı, region dövlətlərinin gəlirlərinin artmasına imkan yaradacaq. Türkiyənin Nəqliyyat və İnfrastruktur Nazirliyinin qiymətləndirmələrinə görə, Zəngəzur dəhlizi 2030-cu ilədək istifadəyə veriləcək. Bu dəhliz vasitəsilə Çindən yüklər Londona cəmi 18 gündə çatdırıla biləcək.

10 illik proqnoza əsasən, dəhliz 50 milyard dollar gəlir gətirəcək və hər il 60.000-dən çox əlavə iş yerinin yaradılmasına töhfə verəcək".

*Əbülfət MƏDƏTOĞLU*

## BİR GÖRÜŞDƏN FRAQMENTLƏR

Bax:səh-8

### GÜNÜN LƏTİFƏSİ

Molla Nəsrəddin bir gün eşşəyini itirir. Küçədə Allaha şükür edə-edə gəzir:

**- Allah, sənə çox sükür, Allah, sənə çox şükür.**

Molladan soruşurlar:

**- Sənin eşşəyin itib, sən də Allaha şükür edirsən?**

Molla Nəsrəddin:

**- Yaxşı ki, üstündə olmamışam.**

# İlham Əliyev Mərkəzi Bankın yeni binasının açılışını etdi



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Mərkəzi Bankın yeni inzibati binasının açılışında iştirak edib.**

Adalet.az xəbər verir ki, Mərkəzi Bankın sədri Taleh Kazımov dövlətimizin başçısına binada yaradılmış şərait barədə məlumat verdi.

Yeni bina paytaxtın Heydər Əliyev prospektində yerləşir. Müasir şəhərsalma prinsiplərinə uyğun inşa edilmiş bina yüksək funksionallığa və qabaqcıl texnoloji göstəricilərə malikdir.

Prezident İlham Əliyev milli pul nişanlarının konseptual yanaşmasının, dizayn xüsusiyyətlərinin və texnoloji inkişaf xəttinin müasir təqdimat üsulları ilə nümayiş olunduğu sərgiyə baxdı.

Bildirildi ki, sərgidə milli pul nişanlarının tarixi, inkişaf mərhələləri, dizayn və mühafizə elementləri əks olunub.

Bina 35 mərtəbədən ibarətdir, burada ümumilikdə 1300 nəfərlik iş sahəsi, konfrans və mətbuat zalları, müxtəlif təlim və toplantı otaqları var.

Yeni binanın layihələndirilməsi zamanı əlçatanlıq və inklüzivlik prinsiplərinə xüsusi diqqət yetirilib, fiziki məhdudiyyətli şəxslərin binaya rahat və təhlükəsiz şəkildə girişinin, həmçinin sərbəst hərəkətinin təmin edilməsinə imkan verən infrastruktur yaradılıb.

Binada rəsmi görüş və toplantılar üçün 25 otaq nəzərdə tutulur. Otaqların hamısı zəruri avadanlıqla təchiz olunub.

Yüksək keyfiyyət, təhlükəsizlik və dayanıqlı inkişaf standartlarına cavab verən binada müasir texnologiya və informasiya sistemləri də quraşdırılıb.

Burada, həmçinin əməkdaşların asudə vaxtının səmərəli təşkili məqsədilə istirahət məkanı yaradılıb, 340 nəfərlik yeməkxana da onların ixtiyarına veriləcək.

Müxtəlif tədbirlərin və təqdimatların keçiriləcəyi 240 nəfərlik konfrans zalında isə hər bir şərait mövcuddur.

Gecə saatlarında binanın vizual tanınmasını təmin edən multimedia fasad sistemi müxtəlif işıq ssenarilərinin və proyeksiyaların tətbiqinə imkan verir. Fasad da daxil olmaqla, ərazinin və binanın işıqlandırılması hərəkət sensorlu LED texnologiyası ilə təchiz olunub. Bu isə öz növbəsində günün işıqlı saatlarında elektrik enerjisinə qənaət etməyə imkan verir.

# "Zəngəzur dəhlizi mütləq inşa ediləcək"

**Dəmir yolu və avtomobil yolu infrastrukturuna investisiya qoymaqla nəqliyyat üçün yeni dəhlizlər açırıq.**

Bu barədə Prezident İlham Əliyev 31-ci "Baku Energy Forum"un rəsmi açılış mərasimində çıxışı zamanı bildirib.

Şərq-Qərb Dəhlizi uğurla fəaliyyət göstərdiyini xatırladan dövlətimizin başçısı qeyd edib: "Şərq-Qərb dəhlizinin digər bir qolu olacaq Zəngəzur dəhlizi avqustun 8-də (2025-ci il - red.) Ağ Evdə ABŞ Prezidenti, Ermənistanın Baş naziri və mənim aramda imzalanmış sənədə əsasən mütləq inşa ediləcək".

# Roma Papası XIV Leo Prezident İlham Əliyevə məktub göndərib

**Roma Papası XIV Leo Azərbaycan Prezidenti İlham Əliyevə məktub ünvanlayıb.**

Məktubda deyilir:

"Milli bayramınız münasibətilə Zati-alinizə və xalqınıza həmrəylik və firavanlıq arzularımı çatdırmaqdan məmnunam.

Uca Tanrıya dua edirəm ki, azərbaycanlıları öz cəmiyyətlərini daha da inkişaf etdirməyə ruhlandırsın. Qoy, onlar ümumi rifah uğrunda çalışaraq,

hər bir insanın ləyaqətini müdafiə edərək, ehtiyacı olanlara yardım göstərərək həmişə sülhün tərəfdarı olsunlar.

Zati-alinizə, dövlət işlərinə məsul şəxslərə və bütün həmvətənlərinizə İlahidən xeyir-dua diləyirəm".

# Azərbaycan və İran sərhədində generallar görüşdü

**İyun ayının 1-də "Astara" dövlət sərhədindən buraxılış məntəqəsinin İran İslam Respublikası ərazisində Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev və İran İslam Respublikasının Nizam-İntizam Qüvvələrinin Baş Komandanının müavini general-mayor Qasım Rzainin rəhbərlik etdikləri nümayəndə heyətləri arasında görüş keçirilib.**



Dövlət Sərhəd Xidmətindən Adalet.az-a verilən məlumata görə, görüşdə Azərbaycan-İran dövlət sərhədində və dövlət sərhədindən buraxılış məntəqələrində mövcud vəziyyət, sərhəd təhlükəsizliyinin təmin edilməsi sahəsində həyata keçirilən tədbirlər, Azərbaycan-İran dövlət sərhədinin işğaldan azad edilmiş hissəsində dövlət sərhədinin mühafizəsinin təşkili, eləcə də Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni nəqliyyat-kommunikasiya əlaqələrinin yaradılması istiqamətində görülən işlər müzakirə olunub. Müzakirələr zamanı iki ölkənin sərhəd mühafizə qurumları arasında əməkdaşlığın inkişaf dinamikası yüksək qiymətləndirilmiş, dövlət sərhədindən qaçaqmalçılıq, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi, eləcə də transsərhəd cinayətkarlığın digər təzahürlərinə qarşı mübarizə sahəsində qarşılıqlı fəaliyyətin daha da gücləndirilməsinin vacibliyi vurğulanıb.

Tərəflər bu cür görüşlərin keçirilməsinin sərhəd mühafizə qurumları arasında əlaqələrin inkişafına, qarşılıqlı fəaliyyətin möhkəmləndirilməsinə mühüm töhfə verdiyini qeyd ediblər.

Görüş dostluq, qarşılıqlı etimad və anlaşma şəraitində keçib.

# "Məcburi köçkün" kimi təqdim olunan Azərbaycan vətəndaşları yeni hüquqi kimlik qazanırlar"

**Milli Məclisin müstəqillikdən keçən 35 il ərzində qəbul etdiyi qaçqınlıq və köçkünlük aktları artıq tarixə qovuşur, yeni Böyük Qayıdış qanunları yazılır. Parlament həyatında müstəsna yer tutan hazırkı akt gələcəkdə millətimizin və dövlətimizin tarixində şanlı səhifəyə çevriləcək. Çünki Böyük Qayıdış qanunları məğlubiyyət, işğal və köçkünlük dövrünün bitdiyini, qalib Yüz İlin başlandığını göstərən əsas milli ideyadır.**



Adalet.az xəbər verir ki, bunu Milli Məclisin Əmək və sosial siyasət, İnsan hüquqları və Hüquq siyasəti və dövlət quruculuğu komitələrinin birgə iclasında komitə sədri Zahid Oruc deyib.

O bildirib ki, Mənzil Məcəlləsinə edilən dəyişikliklə yaradılacaq "İşğaldan Azad Edilmiş Ərazilərdə Daimi Məskunlaşdırma Fondu"na daxil olan yaşayış sahələri vətəndaşlara artıq icarə müqaviləsi əsasında deyil, mülkiyyət hüququ əsasında veriləcək.

"Qaçqınların və məcburi köçkünlərin statusu haqqında" Qanuna edilən dəyişikliklə şəxs işğaldan azad edilən ərazidə əvvəlki yaşayış yerinin əvəzinə yeni yaşayış sahəsi aldıqda və ya imkandan imtina etdikdə statusun itirilməsi hüquqi baxımdan dəqiq müəyyən olunur.

"Məcburi köçkünlərin sosial müdafiəsi haqqında" Qanuna edilən dəyişiklik isə sosial müdafiə tədbirlərinin 3 il müddətində davam etməsini dəqiqləşdirir.

Bu müddətin hesablanması statusun itirildiyi gündən başlanacaq. Keçid müddəaları da vacibdir. Qanun qüvvəyə minənədək artıq yeni ərazilərdə mənzil almış məcburi köçkünlər də təklif olunan hüquqi imtiyazlardan yararlana biləcəklər. Yurd yaddaşını, sosial müdafiəni, iqtisadi inkişafı və milli bərpanı vahid hüquqi çərçivədə birləşdirir.

**Komitə sədri qeyd edib ki, otuz il ərzində dünyanın müxtəlif tribunalarından "qaçqınlar", "məcburi köçkünlər", "didərginlər" kimi təqdim olunan Azərbaycan vətəndaşları bu gündən etibarən yeni hüquqi kimlik qazanırlar. Onlar artıq yardım alan insanlar deyil, öz torpağının, evinin və gələcəyinin sahibi olan qalib xalqın nümayəndələridir.**

# Yeni qadağalar başladı

**Energetika Nazirliyinin Kollegiyası "İstilik təchizatı haqqında" qanuna uyğun olaraq "İstilik qurğularının istismarında təhlükəsizlik texnikası Qaydaları"nı təsdiqləyib.**



Adalet.az xəbər verir ki, bununla bağlı nazir Pərviz Şahbazov yeni qərar imzalayıb.

Qərara əsasən, istilik qurğularının normal iş rejiminin pozulmasının potensial risklərini nəzərə almaqla onların texniki vəziyyətinin qiymətləndirilməsi təşkil edilməli, qəzaların və digər fövqəladə hadisələrin qarşısının alınmasına yönələn profilaktik tədbirlər işlənib hazırlanmalı və həyata keçirilməlidir. Aqressiv, tezalışan, yanar, partlayış təhlükəli, yaxud zərərli maddələrin boru kəmərləri hermetik olmalıdır. Axması mümkün olan yerlərdə (lyuklər, ventillər, flans birləşmələri) mühafizə çəpərləri (örtükləri), zərurət yarandıqda isə mayenin təhlükəsiz yerə axıdılması üçün qurğu quraşdırılmalıdır. Avadanlığın, armatur və cihazların mütəmadi yoxlanılması tələb olunan elementlərinə xidmət etmək üçün onları əlçatan yerlərdə quraşdırmaq lazımdır. Bundan başqa, hər bir istilik qurğusuna xidməti həyata keçirmək üçün təhlükəsiz hərəkət yolları və yanğın vaxtı, yaxud qəza hallarında təxliyə planı işlənib hazırlanmalı və heyətin nəzərinə çatdırılmalıdır.

İstilik qurğusunun yerləşdiyi ərazidə və istehsalat binalarında avadanlığın xidməti ilə məşğul olmayan işçilərin orada müşayiətsiz qalması qadağandır. İstehsalat binaları və qurğuları daxilində və xaricində, həmçinin onlara bitişik ərazidə keçidlər və yollar, girişlər və çıxışlar işıqlandırılmalı, boş olmalı, piyadaların və nəqliyyatın hərəkəti üçün təhlükəsiz olmalıdır.

**Qaz borusu altında emalatxana, sanitar-məişət və digər tikililər quraşdırmaq qadağandır. Kamera və kanallarda təmizliyə riayət edilməli, bu hissələrdə yığışan sular müntəzəm çəkilməli, keçidlərin tutulmasına yol verilməməlidir.**

# Qara dənizin qazı Türkiyəyə 2 milyard dollar qazandırdı

**Qara dənizin "Sakarya" yatağından qaz təchizatı Türkiyəyə mavi yanacağın idxalında 2 milyard dollar qənaət etməyə imkan verib.**

Adalet.az xəbər verir ki, Türkiyənin tarixində ən böyük dəniz qaz yatağının kəşfi 2020-ci ilin iyul ayında elan edilib, ölkənin qaz paylama sisteminə ilk tədarüklər isə 2023-cü ilin sentyabr ayında həyata keçirilib. 2023-cü ilin sonuna olan məlumata görə, "Sakarya" yatağında 337 milyon kubmetr qaz hasil edilib. Bu rəqəm növbəti il 1,66 milyard kubmetrə, ötən il 3 milyard kubmetrə, bu ilin yanvar-may aylarında isə daha 1 milyard kubmetrə çatıb.

"Sakarya" yatağının ehtiyatları 785 milyard kubmetr və ya 250 milyard dollar olaraq qiymətləndirilir.

Dəniz yatağının istifadəyə verilməsindən bəri Türkiyə artıq bazar dəyəri 2 milyard dollar olan təxminən 6 milyard kubmetr yerli qaz əldə edib. Beləliklə, ölkə xarici təchizatçılardan enerji asılılığını tədricən azaltmağa başlayıb.

**Rəsmi məlumatlara görə, Türkiyə ötən il 21,2 milyard dollar dəyərində mavi yanacaq alıb. Bunun 43 faizi Rusiyadan, 20 faizi ABŞ-dən, 12 faizi Azərbaycandan, 11 faizi İrandan, 7 faizi Əlcəzairdən və daha 7 faizi digər mənbələrdən olan idxal təşkil edib.**

# Azərbaycan və ABŞ arasında 7,5 milyard dollarlıq müqavilələr imzalandı

**Bakı Enerji Həftəsi və 1-ci Azərbaycan-ABŞ İqtisadi Dialoqu çərçivəsində Azərbaycan və ABŞ arasında, eyni zamanda İqtisadiyyat Nazirliyi və SOCAR tərəfindən iqtisadiyyat, enerji, investisiya və texnologiya sahələrini əhatə edən bir sıra mühüm sənədlər imzalanıb.**

Adalet.az xəbər verir ki, imzalanan müqavilələrin maliyyə dəyəri 7,5 milyard dollardır.

Bu sənədlərdən biri "Kritik mineralların və nadir torpaq elementlərinin hasilatı və emalında təchizatın təmin edilməsi" adlı Azərbaycan və ABŞ arasında imzalanan çərçivə sənədidir. Sənədi Azərbaycan tərəfindən iqtisadiyyat naziri Mikayıl Cabbarov, ABŞ tərəfindən isə ABŞ Dövlət katibinin iqtisadi, enerji və biznes məsələləri üzrə köməkçisi Keyleb Orr imzalayıb.

Bununla yanaşı, SOCAR, "TotalEnergies", XRG və BOTAŞ arasında "Abşeron" qaz-kondensat yatağının tammiqyaslı işlənməsindən hasil olunacaq təbii qazın bir hissəsinin - hasilatın 50 faizinin (30 milyard kub metr) 15 il müddətində Türkiyə bazarına uzunmüddətli satışı üzrə saziş imzalanıb. Sənədi SOCAR-ın prezidenti Rövşən Nəcəf, "TotalEnergies"in kəşfiyyat və hasilat üzrə Avropa regionu üzrə böyük vitse-prezidenti Martina Opizzi, XRG-in beynəlxalq qaz üzrə prezidenti Mohammed Al-Aryani, BOTAŞ-ın direktoru və direktorlar şurasının sədri Abdulvahit Fidan imzalayıblar.

Digər imzalanan sənədlər Niş CCGT layihəsi ilə bağlıdır. Belə ki, SOCAR və "Serbiya Elektrik Enerjisi Sənayesi" (EPS) arasında Serbiyanın Niş şəhərində qaz elektrik stansiyasının tikintisi üzrə birgə müəssisənin səhmdarlar sazişinin əsas şərtləri və layihənin əsas kommersiya elementlərinin müəyyən edilməsi üzrə əsas şərtlər sənədi imzalanıb. Sənədə SOCAR-ın prezidenti Rövşən Nəcəf və EPS-in baş direktoru Dusan Zivkoviç imza atıb. Həmçinin SOCAR ilə "Shell" arasında enerji sahəsinin müxtəlif istiqamətləri üzrə potensial əməkdaşlığın baza prinsiplərini müəyyən edən Anlaşma Memorandumu imzalanıb. Sənəd mövcud hasilat aktivlərində səmərəliliyin artırılması, yeni yataqların kəşfiyyatı və işlənməsi, "Downstream" və LNG layihələrində iştirak, süni intellektdən istifadə, eləcə də texnologiya, bilik və insan kapitalının inkişafı istiqamətlərini əhatə edir. Sənədi SOCAR prezidenti Rövşən Nəcəf, "Shell"in şirkət və payların satınalınmaları, divestisiyalar və yeni biznesin inkişafı üzrə icraçı vitse-prezident Valid Hadi imzalayıb.



Bundan başqa, SOCAR və AASS şirkəti arasında San-Marinoya qaz satışını nəzərdə tutan saziş imzalanıb. Sazişə əsasən, 2026-cı ilin oktyabr ayından qazın təchizatı həyata keçiriləcək. Sənədə SOCAR tərəfindən Rövşən Nəcəf, AASS tərəfindən baş menecer Marcello Forcellini imza atıb.

SOCAR ilə ABŞ-nin "Comstock Resources" şirkəti arasında mövcud və yeni qaz yataqlarında, eləcə də bu yataqlara xidmət edən infrastruktur layihələrində potensial əməkdaşlıq və investisiya imkanlarının araşdırılmasına dair Anlaşma Memorandumu imzalanıb. Sənədi SOCAR prezidenti Rövşən Nəcəf, "Comstock Resources"ın maliyyə və investorlarla əlaqələr üzrə vitse-prezidenti Ron Mills imzalayıb.

Bunlara əlavə olaraq, SOCAR və "JP Morgan" arasında strateji layihələrin maliyyələşdirilməsi sahəsində uzunmüddətli əməkdaşlığın genişləndirilməsi və SOCAR-ın uzunmüddətli kapitala çıxış imkanlarının artırılması üzrə Anlaşma Memorandumu imzalanıb. Sənədi SOCAR prezidenti Rövşən Nəcəf, "JP Morgan" şirkətinin mərkəzi və şərqi Avropa, orta şərq və Afrika regionunda kredit və strukturlaşdırılmış kreditlər üzrə vitse-prezidenti Martynas Saltenis imzalayıb.

SOCAR ilə "Chevron" arasında Orta Xəzər hövzəsinin Azərbaycan sektorunun neft-qaz perspektivliyinin qiymətləndirilməsi məqsədilə birgə texniki tədqiqatın aparılmasına dair Birgə Tədqiqat Sazişi imzalanıb. Sənədi SOCAR tərəfindən Rövşən Nəcəf, "Chevron" tərəfindən şirkətin Avrasiya üzrə İcraçı direktor Derek Magness imzalayıb.

SOCAR və "Apollo Global Management" arasında TANAP layihəsi üzrə investisiya dəstəyi haqqında saziş imzalanıb. Sənəddə TANAP layihəsi üzrə strateji maliyyə əməkdaşlığı; "Apollo" "SOCAR Türkiyə"nin TANAP-da 7 faizlik payını saxlayan holdinq şirkətində minoritar və qeyri-nəzarət payları əldə edir. Sənədə SOCAR tərəfindən qurumun prezidenti Rövşən Nəcəf, "Apollo Global Management" tərəfindən şirkətin idarəedici direktoru Jonathan Bar imza atıb.

SOCAR və "Apollo Capital Management" arasında enerji maliyyələşdirilməsi sahəsində əməkdaşlığın genişləndirilməsinə dair də Anlaşma Memorandumu imzalanıb. Sənəddə TANAP üzrə mövcud maliyyələşmənin 300 milyon dolların dək artırılması və SOCAR Qrupunun digər aktivləri üzrə maliyyələşmə mexanizmlərinin araşdırılması nəzərdə tutulur. Tərəfləri SOCAR prezidenti Rövşən Nəcəf, "Apollo Capital Management"in idarəedici direktoru Jonathan Bar təmsil edib. Həmçinin SOCAR və Corc Vaşinqton Universiteti (GWU) arasında "Washington Hub" platforması çərçivəsində əməkdaşlıq üzrə Anlaşma Memorandumu imzalanıb. Sənəddə "Washington Hub" platforması çərçivəsində qarşılıqlı maraq sahələrinin müəyyən edilməsi və birgə layihələrin həyata keçirilməsi üzrə əsas prinsiplərin razılaşdırılması qeyd olunur. Sənədi SOCAR prezidenti Rövşən Nəcəf, GWU Qlobal Təşəbbüslər üzrə dekan müavini Sevinc Məmmədova imzalayıb.

SOCAR və "Haimaker.ai" arasında Süni İntellekt Bulud İnfrastrukturunun inkişafına dair əməkdaşlıq haqqında Saziş imzalanıb. Sənədə SOCAR prezidenti Rövşən Nəcəf, "Haimaker.ai" şirkətinin baş icraçı direktor və həmtəsisçi Su Le imza atıb. Daha sonra Azərbaycan və ABŞ arasında 1-ci Azərbaycan-ABŞ İqtisadi Dialoqunun protokolu imzalanıb. Protokol iclasın nəticələrini özündə əks etdirir. Sənədə Azərbaycan tərəfindən iqtisadiyyat naziri Mikayıl Cabbarov, ABŞ tərəfindən Keyleb Orr imza atıb. İqtisadiyyat Nazirliyi ilə "Oracle" şirkəti arasında əməkdaşlıq çərçivəsinin müəyyən edilməsi məqsədilə Anlaşma Memorandumu imzalanıb. İqtisadiyyat Nazirliyi adından sənədi nazir müavini Səməd Bəşirli, "Oracle" şirkəti adından isə baş vitse-prezident Jason Rees imzalayıb.

Eyni zamanda, SOCAR ilə "Lummus Technology" arasında Strateji Əməkdaşlıq Sazişi imzalanıb. Saziş neft emalı və neft-kimya sahələrində əməkdaşlıq çərçivəsinin müəyyən edilməsini, texnoloji infrastrukturun inkişafını, mühəndislik işlərinin həyata keçirilməsini və potensial lisenziya proseslərini, o cümlədən "Petkim" "Master Plan" layihəsi üzrə lisenziyaların əldə olunmasını əhatə edir. SOCAR adından sənədi prezident Rövşən Nəcəf, "Lummus Technology" adından isə Yaxın Şərq və Şimali Afrika (MENA) regionu üzrə vitse-prezident və baş direktor Lummus Technology Fadi Mhaini imzalayıb.

Qeyd edək ki, imzalanan sənədlər (investisiya dəyəri 7,5 milyard dollar) Azərbaycan-ABŞ iqtisadi əməkdaşlığının enerji, investisiya, innovasiya və strateji resursların idarə olunması sahələrində yeni mərhələyə keçdiyini nümayiş etdirir.

# "Zəngəzur dəhlizi təkcə Orta Dəhlizin yeni qolu deyil"

**"Bu gün keçirilən "Bakı Enerji Həftəsi" çərçivəsində cənab Prezident İlham Əliyevin çıxışında Azərbaycanın enerji siyasətinin son 30 illik inkişaf yoluna və qarşıdakı hədəflərinə dair mühüm mesajlar vardı. Həqiqətən də Azərbaycan son 30 ildə ardıcıl şəkildə 3 böyük enerji mərhələsindən keçir".**

Adalet.az xəbər verir ki, bunu iqtisadçı Eldəniz Əmirov deyib. O, bildirib ki, birinci mərhələ neft strategiyası idi: "Vaxtilə Bakı-Tbilisi-Ceyhan layihəsinin reallaşacağına inanmayanlar az deyildi. Azərbaycanın kifayət qədər resursa malik olmadığı, layihənin iqtisadi baxımdan özünü doğrultmayacağı barədə çoxsaylı şübhələr səsləndirilirdi. İkinci mərhələ qaz strategiyası oldu. Dəyəri 40 milyard dollarla ölçülən Cənub Qaz Dəhlizinin həyata keçirilməsi dövründə də müxtəlif maneələr, tərəddüdlər və skeptik yanaşmalar mövcud idi. Lakin bu gün Azərbaycan qazı artıq 16 ölkəyə çatdırılır və Avropanın enerji təhlükəsizliyinin mühüm elementlərindən birinə çevrilib". İqtisadçının sözlərinə görə, hazırda isə ölkə üçüncü böyük mərhələyə daxil olub:

"Bu mərhələ alternativ və yaşıl enerji strategiyasıdır. Azərbaycanın günəş, külək və hidroenerji pote nsialı kifayət qədər böyükdür. Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı, Böyük Britaniya və digər ölkələrin aparıcı şirkətləri artıq bu sahəyə iri investisiyalar yatırırlar. Hüquqi baza formalaşıb, beynəlxalq tərəfdaşlıqlar qurulub, yaşıl enerji ixracı istiqamətində konkret layihələr icra edilir. 2022-cü ildə Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında imzalanmış yaşıl enerji dəhlizi təşəbbüsü də bu strategiyanın mühüm tərkib hissəsidir. Prezidentin çıxışında diqqət çəkən digər vacib məqamlardan biri nəqliyyat və logistika imkanları ilə bağlı idi. Zəngəzur dəhlizi təkcə Orta Dəhlizin yeni qolu deyil. Bu marşrut gələcəkdə Şərq-Qərb istiqamətində yükdaşımaların genişlənməsinə xidmət etməklə yanaşı, Şimal-Cənub və Cənub-Qərb istiqamətlərində formalaşan yeni ticarət və nəqliyyat axınlarının da vacib hissəsinə çevrilə bilər. Bu isə Azərbaycanın enerji və logistika mərkəzi kimi rolunu daha da gücləndirir. Son 30 ilin təcrübəsi göstərir ki, vaxtilə mümkünsüz hesab edilən neft və qaz layihələri necə reallığa çevrilibsə, yaşıl enerji istiqamətində qarşıya qoyulan hədəflər də eyni strateji yanaşma ilə həyata keçirilə bilər. Ən önəmlisi isə odur ki, yaşıl enerji strategiyası Azərbaycanın enerji tarixində ilk dəfə olaraq neft və qaz ehtiyatlarından kənarda yeni dəyər zənciiri formalaşdıracaq, qeyri-neft-qaz sektorunda enerji əsaslı yeni iqtisadi artım mənbələri yaradacaqdır".

**Sübhan**

***Umud Rəhimoğlu***

# Qarabağın dirçəliş salnaməsi

***Qarabağda Ağdam rayonunun işğaldan azad edilmiş hissəsində Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin yaradılması haqqında sərəncamın imzalanmasından beş il ötür. Bu beş il Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın müasir tarixində ən böyük quruculuq missiyalarından birinin həyata keçirilməsidir.***

***24 may 2021-ci ildə Emin Hüseynov Azərbaycan Respublikasının Prezidentinin Qarabağ bölgəsi üzrə nümayəndəsi təyin olundu. Bu işğaldan azad edilmiş Qarabağ torpaqlarında Aydın Kərimovun Şuşaya təyinatından sonra ikinci təyinat idi. Emin Hüseynovun təyinatından dərhal sonra Qarabağa etdiyimiz səfərləri çox yaxşı xatırlayıram. Azad olunmuş torpaqlardan barıt qoxusu gəlirdi. Hər tərəfdə dağıntılar, səngərlər, yararsız hala düşmüş döyüş texnikaları, minalarla çirklənmiş ərazilər görünürdü. Yollar istifadəyə yararlı deyildi, hər addımda təhlükə vardı. Həmin səfərlərdə Azərbaycanın dəyərli ziyalılarından biri, indi rəhmətlə andığımız Akif Musayevlə birlikdə bölgəni yaxşı tanıdığımız üçün bir növ bələdçilik edirdik. Yolboyu Qarabağın kəndləri, insanları, tarixi abidələri, yaşayış məntəqələri barədə bildiklərimizi bölüşürdük. Emin Hüseynovun müavini Eldar Seyidov və nümayəndəliyin az sayda olan digər əməkdaşları da onun rəhbərliyi altında gecə-gündüz demədən çalışırdılar. Həmin vaxtlar bölgədə qalmağa yer tapmaq da müşkül məsələ idi. Bir gecə Hadrutda Qarabağ qəhrəmanı, general Mais Bərxudarovun qərargahında gecələdiyimizi yaxşı xatırlayıram. Artıq həmin xatirələr tarixə çevrilməkdədir.***



***Bu yerdə mən başqa bir önəmli məsələdən də söhbət açmaq istəyirəm. Ermənistan işğal dövründə, xüsusilə, Tərtərdən Suqovuşan və Talış istiqamətinə gedən yolları və yolətrafı əraziləri vəhşicəsinə minalarla çirkləndirmişdi. Rəhbərlik etdiyim Beynəlxalq Avrasiya Mətbuat Fondunun "İcma Mina Aksiyası" komandası da həmin ərazilərdə təhlükəsizlik işlərinin həyata keçirilməsinə, minaların bilavasitə təmizlənməsinə cəlb olunmuşdu. İşıq, qaz, su xətlərinin çəkilməsi, yolların bərpası və tikinti işlərinin başlaması üçün ilk növbədə ərazilərin təhlükəsiz vəziyyətə gətirilməsi vacib idi. Son dərəcə çətin və riskli olsa da, bu şərəfli iş ANAMA-nın dəstəyi ilə fəaliyyət göstərən komandamız tərəfindən həyata keçirildi. Nəticədə qısa bir vaxtda Qarabağa köçkünlərimizin ilk qayıdışı Talış və Suqovuşan istiqamətində reallaşdı.***

***Bu gün işğaldan azad olmuş torpaqlarımızda tamamilə fərqli bir Qarabağ formalaşır. 2026-cı ilin sonunadək 34 500 ailənin, yəni təxminən 140 min vətəndaşın doğma yurduna, öz el-obasına qayıdacağı nəzərdə tutulur. Təkcə Qarabağ və Şərqi Zəngəzurda aparılan quruculuq işləri müasir Azərbaycan tarixinin ən böyük yenidənqurma proqramı hesab olunur. Buraya yollar, hava limanları, elektrik stansiyaları, su təsərrüfatı sistemləri, məktəblər, xəstəxanalar və yaşayış fondunun yaradılması daxildir. İşğaldan azad edilmiş torpaqlarımızın hər yerində böyük quruculuq işləri həyata keçirilir. Bir zamanlar xarabalığa çevrilmiş torpaqlarda indi həyat yenidən nəfəs alır. Əlbəttə, bütün bu proseslərin əsasında Azərbaycan Prezidenti İlham Əliyevin siyasi iradəsi və dövlət strategiyası dayanır.***

***Mənim üçün də həmin çətin günlərdə Emin müəllimlə birlikdə Qarabağ yollarında olmaq, bölgənin gələcəyi ilə bağlı düşüncələri bölüşmək, başlanılan böyük quruculuq prosesinin iştirakçısı olmaq və canlı şahidinə çevrilmək böyük şərəf idi.***

***Bu beş il göstərdi ki, Qarabağ həm də dirçəlişin, quruculuğun və milli iradənin simvoluna çevrilib. Bu işdə zəhməti keçən, haqqı olan hər kəsə təşəkkürlər.***

## *ABŞ Avropada nüvə silahlarının sayını artırır*

**Financial Times qəzetinin mənbələrinə əsasən verdiyi məlumata görə, ABŞ NATO üzvləri ilə müzakirələr zamanı Avropa ölkələrində əlavə nüvə daşıyıcılarının yerləşdirilməsi məsələsini öyrənir.**

Mətbu orqanın məlumatlarına görə, Vaşinqton bu təşəbüsü ilə Avropa ölkələrinə onların təhlükəsizliyini qorumaq istəyini nümayiş etdirməkdir. Bildirilir ki, Birləşmiş Ştatlar Avropa Birliyinə üzv dpvlətlərin ərazilərində həm adi, həm də nüvə silahları daşımaq imkanlarına malik bombardımançı təyyarələr yerləşdirmək niyyətindədir. Qəzet qeyd edir ki, Donald Tramp ilk növbədə alyans ölkələri üzərində "nüvə çətirini" necə saxladığını göstərmək istəyir.

**Rüstəm Hacıyev**



Səxavət Məmmədov

# Cənubi Qafqazın taleyi...

*Ermənistanda keçiriləcək parlament seçkiləri nəinki maraqla izlənilir, eyni zamanda müəyyən mənada açıq, müəyyən mənada isə qapalı şəkildə qonşu və regionda maraqları olan ölkələr tərəfindən birbaşa, yaxud dolayı yolla müdaxilələr edilir.*

*Faktiki olaraq Paşinyan hakimiyyətinin davam etməsi üçün ABŞ, Qərb, Türkiyə, İran və Azərbaycan maraqlı görünür. Burada hər ölkənin özünəməxsus maraqları var. ABŞ-nin bu regionda maraqlarını təmin etmək üçün Paşinyan hakimiyyətinin qalmasında maraqlı olduğu bəllidir. Bu marağı və İrəvana verilən dəstəyi nümayiş etdirmək üçün son dövrlər ABŞ rəsmilərinin Ermənistana səfərləri zamanı atom elektrik stansiyası yönündə əməkdaşlıq memorandumu imzalandı, ABŞ ordusu ilə Ermənistan hərbçilərinin birgə təlimləri keçirildi, eləcə də Vaşinqton tərəfindən Ermənistana pilotsuz uçuş aparatlarının (dronların) ötürülməsi daxil olmaqla hərbi-texniki yardımlar göstərildi. ABŞ-nin bu cür davranışının müxtəlif səbəbləri ola bilər. Qərbin Paşinyana dəstəyinin arxasında duran əsas motiv ideoloji yox, tamamilə geostratejidir. Paşinyan Ermənistanı Rusiyanın təhlükəsizlik çətirindən (KTMT) uzaqlaşdıran, rus sərhədçilərini ölkədən (məsələn, İrəvanın "Zvartnots" hava limanından) çıxaran və Kremlin təsir rıçaqlarını zəiflədən yeganə şəxsdir. Qərb üçün Ermənistan Rusiyanın Cənubi Qafqazdakı "forpostu" statusunu sındırmaq üçün unikal şansdır. Başqa cür ifadə etsək, Rusiya vaxtilə Ermənistanı regionun İsraili kimi quraşdırmışdı. Rusiya o layihəni sonadək davam etdirə bilmədi. Hazırda isə Qərb regionda Ermənistanın timsalında özü üçün bir forpost yaradır - İkinci İsrail.*

*ABŞ-nin vasitəçiliyi ilə gündəmə gələn "Trump Route for International Peace and Prosperity" (TRIPP) kimi regional layihələrlə Ermənistanın cənubundan keçən xətlərin Qərbin və müttəfiqlərinin nəzarətində olması, Rusiyanın və İranın bu marşrutlarda moderatorluq etməməsi Vaşinqton üçün prioritetdir. Qərb əgər Ermənistanda tam qalib gəlsə və istəyinə çatsa, Rusiya Xəzər üzərindən prosesə və regional təhlükəsizliyə mane olmağa çalışacaq.*

*Mərkəzi Asiyanı Xəzər və Qafqaz vasitəsilə Avropaya bağlayan "Orta Dəhliz"in təhlükəsizliyi üçün Ermənistan-Azərbaycan sülhü şərtdir. Paşinyan bu sülhə imza atmağa hazır olan yeganə real erməni siyasətçisidir. Bakı üçün Paşinyan hakimiyyəti proqnozlaşdırıla bilən və idarəolunan riskdir. Paşinyan "Mifik (tarixi) Ermənistan" ideyasından imtina edib, ölkəni mövcud 29,743 kv. km sərhədləri daxilində tanıtmağa çalışır. Paşinyan strateji olaraq vaxtilə Sovet dönəmində Azərbaycan torpaqları hesabına genişləndirilən hazırkı Ermənistan ərazisinin, loru dildə desək, çıxarış sənədinə kupça almaq niyyətindədir. Dolayısı ilə bu sənəd Ermənistana verilən torpaqların rəsmiləşdirilməsi anlamına da gəlir.*

*Ümumiyyətlə, Paşinyanın indiyə qədər sülh müqaviləsini tam imzalamaması və bəzi məsələləri ləngitməsi proqnozlaşdırılırdı. Çünki Paşinyan növbəti seçki dönəmi üçün həm özünə daxili siyasi iş və arqument saxlayırdı, həm də Azərbaycan və Türkiyənin regional sabitlik naminə dolayısı ilə ona mane olmamasını hədəfləyən planlar qururdu. Əslində bunun müəyyən mənada baş tutduğunu da görürük.*

*Paşinyan özünü həm də ona görə cəlbedici edir ki, Ermənistan Konstitusiyasından Azərbaycana qarşı ərazi iddialarını (Müstəqillik Bəyannaməsinə istinadı) çıxaracağını vəd edir, Ağrı dağı simvolizmindən imtina etməklə Azərbaycan və Türkiyə üçün özünü müzakirə edilə bilən tərəfə çevirir.*

*Türkiyə ilk baxışda Azərbaycanla müttəfiqliyi ön plana çıxarsa da, əslində Türkiyənin Ermənistanla bağlı dövlət maraqları da var. Birincisi, Türkiyə NATO üzvüdür və Türkiyənin Ermənistanla münasibətləri normallaşdırması regionda Rusiyanın nüfuzunun zəiflədilməsi baxımından NATO və ABŞ üçün də önəmlidir. Türkiyə Paşinyan dönəmində Ermənistanla birbaşa hava əlaqələrini bərpa etdi, xüsusi nümayəndələr təyin etdi. Türkiyə üçün Ermənistanın blokadadan çıxması və regional layihələrə cəlb olunması erməni diasporunun "soyqırımı" kartını və beynəlxalq təzyiqlərini zəiflədir. İki ölkə arasında normallaşma baş versə, Türkiyə ilə Ermənistan sürətlə yaxınlaşacaq. Buna səbəb həm də dünyada ən güclü erməni diasporasının məhz Türkiyədə olmasıdır. İranın Paşinyana yanaşması ilk baxışda ziddiyyətli görünsə də, reallıqda Tehrana onun zəif və kompromislərə açıq lider olması sərf edir.*

*İran üçün ən böyük qırmızı xətt Ermənistanla olan 44 km-lik sərhədinin (Sünik/Meğri marşrutu) kəsilməsidir. Radikal bir erməni hakimiyyəti gəlib yeni hərbi eskalasiyaya səbəb olsa və Azərbaycan həmin bölgəni (Zəngəzur dəhlizini) hərbi yolla nəzarətə götürsə, İran Ermənistanla birbaşa coğrafi bağını tam itirə bilər. Paşinyanın sülh siyasəti hərbi toqquşma riskini azaltdığı üçün İranın "sərhəd təhlükəsizliyi" marağına xidmət edir. Tehran Ermənistan vasitəsilə Şimal-Cənub dəhlizinin bir qolunu saxlamaq istəyir. Paşinyan hökuməti həm Qərblə, həm də İranla balans yaratmağa çalışır (məsələn, Ermənistanın İrandan müəyyən müdafiə təyinatlı məhsullar alması və ya birgə layihələr). Radikal qərbpərəst və ya tam rusyönümlü bir qüvvə İranın bu tranzit maraqlarını tam vura bilər. Nəzərə almaq lazımdır ki, İranla Rusiya qlobal aləmdə müttəfiq olsalar da, Cənubi Qafqazda rəqibdirlər. Çünki İranda hələ də Cənubi Qafqazın Rusiya tərəfindən işğal edildiyi (Gülüstan və Türkmənçay müqavilələri ilə itirildiyi) fikri hakimdir. Yəni, Azərbaycanda Türkmənçay müqaviləsinə Azərbaycanın İran və Rusiya tərəfindən iki yerə böləndüyü fikri nə qədər hakimdirsə, İranda da Rusiyanın tarixi torpaqları işğal etdiyi düşüncəsi ön plandadır. Hazırda nə Bakıya, nə Ankaraya, nə Vaşinqtona, nə də Tehrana yeni bir regional partlayış lazımdır. Paşinyan isə hamı üçün güzəştə gedə bilən, regionun xəritəsini və reallıqlarını qəbul edən mərkəzi fiqurdur.*

*Taktiki baxımdan Paşinyanın hakimiyyətdə qalması Azərbaycan üçün sərfəli görünə bilər. Ancaq strateji baxımdan Paşinyanın atdığı addımlar, Avropa İttifaqı ilə əlaqələr, ABŞ ilə işbirliyi, hərbi baxımdan modernizasiya xətti uzunvədəli dövrdə Azərbaycanın maraqlarına tam cavab verməyə bilər. Azərbaycanın maraqlarına cavab verən Ermənistan hərbi-siyasi iddiaları olmayan, iqtisadi baxımdan regional asılılığı olan Ermənistandır. Paşinyanın tutduğu xətt isə tamamilə Qərbə inteqrasiya olunmuş, iqtisadi və təhlükəsizlik baxımından Rusiyadan müstəqil Ermənistan qurmaqdır. ABŞ-nin dövlət katibi sənədlərin təsdiqi və TRIPP layihəsinin niyyət protokollarının imzalanması istiqamətində addımlar atsa da, sənəddə də qeyd edildiyi kimi niyyət protokolu bir il sonra qüvvəyə minəcək. Sanki ABŞ də loru dildə desək "əl yeri qoyur". Buradakı ən böyük problemli məsələ Rusiya ilə bağlıdır. Layihədə regional nəqliyyat və dəmiryolu xətlərinin istifadəsi nəzərdə tutulur. Ancaq Ermənistanın dəmiryolu infrastrukturu (Cənubi Qafqaz Dəmir Yolları) konversiya müqaviləsi ilə Rusiyanın ("RJD") idarəçiliyində və mülkündədir. Rusiya buna necə reaksiya verəcək, bunu təxmin etmək o qədər də çətin deyil. Bundan əlavə Çinin də reaksiyası maraqlı olacaq.*

*Digər tərəfdən, açıq şəkildə görünür ki, Rusiya ilk dəfədir Paşinyanla real təzyiq müstəvisinə keçib. Ermənistanda keçirilən rəy sorğuları da çox maraqlıdır: ermənilər artıq açıq şəkildə iqtisadi cəhətdən inkişaf etməkdən, güclü cəmiyyət və dövlət qurmaqdan danışırlar. Paşinyan faktiki olaraq ermənilərə öz ideyasını yeridə bilib. Rusiya tərəfdən baxanda ermənilərin ictimai rəyi tamamilə dəyişib. Rusiya faktiki olaraq Ermənistanın kənd təsərrüfatı məhsullarının ("Rosselxoznadzor" vasitəsilə) ixracına qadağalar və vetolar qoyur. Bunu daha da artıracaqlar. Ancaq görünən odur ki, erməni əhalisinin rəyini bu iqtisadi təzyiqlər də tam dəyişmir. Rusiya paralel olaraq siyasi təzyiqləri də işə salıb və Kremlin bəyanatlarında Ermənistana yönəlik hədələr açıq hiss olunur.*

*İqtisadi və siyasi təhdid tükənəndə qayda budur ki, hərbi rıçaqlar və ya təxribat ssenariləri işə düşür. Rusiyanın Ermənistana hərbi təsir imkanları var? Ermənistandakı Rusiya hərbi bazası (102-ci baza) və hərbi mövcudluğu strateji baxımdan regionda böyük əhəmiyyətə malikdir. Ancaq daxildə birbaşa hərbi yolla hakimiyyəti çevirmək üçün bu struktur kifayət etməyə bilər.*

*Rusiya regiona genişmiqyaslı logistika və ya müdaxilə etmək üçün mütləq şəkildə Gürcüstan amilini və ya hava məkanını nəzərə almalıdır.*

*Qeyd etmək lazımdır ki, hazırkı dünyada hansısa bir dövlətin başqa dövlətin ərazisinə birbaşa və ya dolayı hərbi/hibrid müdaxiləsi artıq qeyri-adi bir hal sayılmır. Misal üçün, Yaxın Şərqdə regional zərbələr endirilir, böyük dövlətlər narahat olur, bəyanat verir, ancaq nəticə dəyişmir. Ona görə də, hazırkı geosiyasi situasiyada "ola bilməz" anlayışı öz reallığını itirib.*

*Hansısa fors-major və qeyri-adi hadisə baş verməsə, Paşinyanın Ermənistanda yenidən seçiləcəyi real görünür. Eləcə də, Paşinyanın hazırda apardığı siyasəti davam etdirəcəyi təqdirdə regionda yeni konfiqurasiyaların qurulacağında şübhə yeri qalmır.*

## Ekspert: "Tək-tək siqaret satanlarla bağlı ciddi tədbir görülməlidir"



**"ABŞ-də böyüklər arasında siqaret çəkmə səviyyəsi tarixi minimuma enib. Belə ki, ABŞ-nin Xəstəliklərə Nəzarət və Profilaktika Mərkəzləri (CDC) tərəfindən aparılan sorğunun nəticələrinə görə, 2025-ci ildə yetkin amerikalıların yalnız doqquz faizi özünü siqaret çəkən kimi təqdim edib.**

Məsələylə bağlı Adalet.az-a danışan Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynovun sözlərinə görə, illər öncə Azərbaycanda tütün və tütün məmulatları haqqında qanun qəbul edilib və sonra siqaretin məhdudlaşdırılması barədə bu qanunda dəyişikliklər aparılıb. O, deyib ki, lakin buna baxmayaraq o əhəmiyyətli məhdudiyyətlər yerinə yetirilmir: "Məsələn, qanunda siqaretlərin tək-tək satışı qadağandır. Amma biz görürük ki, siqaret satılır. Təhsil və sağlamlıq müəssisələrinin yaxınlığında siqaret satışı qadağan olsa da, buna qətiyyət riayət edən yoxdur, siqaret satırlar. Reklam haqqında qanunda tütün məmulatlarının reklamı qadağandır, lakin mağazalara girəndə bizi ilk olaraq siqaret stendləri qarşılayır. Sanki reklam haqqında qanunda bir boşluq qoyurlar. Siqaretlər açıq şəkildə satılır. Ən azından Rusiya təcrübəsini həyata keçirmək lazımdır, satılan siqaretlərin üstü örtülməlidir, 18 yaşa qədər satışı qadağan olunmalıdır".

Ekspert deyib ki, o xarici səfərləri zamanı siqaret satışına xüsusi diqqət edir: "Məsələn Filippində mağazalarda qətiyyən siqaret satılmır. İspaniyada, Taylandda böyük məhdudiyyət var. Amma Çində siqaret bizdəki kimi açıq şəkildə satılır. Müşahidələrim göstərir ki, Türkiyədə insanların böyük faizi, xüsusən də qadınlar siqaret çəkir. Türkiyə təcrübəsi bütün sahələrdə olduğu kimi, Azərbaycana da daxil olur".

Onun sözlərinə görə, bütün bunlar azmış kimi 6 il öncə Şəkidə bir fabrik işə başlayıb və ən təhlükəli filtirsiz siqaretlər istehsal edir:

"Bu siqaretlər isə ölkənin hər bir yerinə yayılıb. Son tütün məhdudlaşdırılmasına dair qadağa elektron siqaretlərin qadağası oldu. Bu isə çox yaxşı haldır. İllər boyu Azad İstehlakçılar Birliyi çalışırdı ki, elektron siqaretlər siqaretlərdən də çox zərərlidir. Elektron siqaret dünyada yeganə məhsuldur ki, birmənalı şəkildə bu zərərli hesab olunur. Azərbaycanda elektron siqaretlər qadağan olunsa da, qızdırılan tütün məmulatlarına qadağa yoxdur.Tütünün bütün növlərinin zərərli olduğunu bildiririk. Təşkilat olaraq 30 il ərzində 3 filtirsiz siqaret istehsal edən müəssisənin bağlanmasına nail olmuşuq. Şəkidə isə "Marxal" və "Karvan" adlı filtirsiz siqaretlərin istehsalı davam edir. Bu isə anormal bir vəziyyətdir".

## "Adam siyasi prosesləri məzhəbinə görə dəyərləndirir..."



**"Dindar adlandırılan zümrə yaxud din xadimi, ilahiyyatçı ünvanı ilə fəaliyyətdə olanların çoxu obyektiv, ədalətli, qərəzsiz ola bilmirlər. Heç olmaq da istəmirlər. Hərə bir məzhəbin ətəyindən tutub, gözünü də yumub sağı-solu daşlaya-daşlaya gedir".**

Adalet.az xəbər verir ki, bunu ilahiyyatçı Tural İrfan deyib. Onun sözlərinə görə, acı da olsa reallıqdır ki, məzhəblər var, ilahi tələblərin əksinə olaraq müsəlmanlar bölünüb, parçalanıb və nəticədə bir-birini qırıblar: "Lakin bu ənənə davam etdirilməli ənənə deyil. Hər kəs inanc və ibadətdə özünə uyğun bildiyi məzhəbə əməl edir, etsin. Lakin haqq olaraq yalnız özünü görüb başqalarını nahaq görməsi təhlükəlidir, tolerantlığımıza ziddir. Bu gün məzhəbçilik, başqasını nahaq görən dini təəssübkeşlik artıq ictimai - siyasi arenada da özünü göstərir. Adam siyasi prosesləri məzhəbinə görə dəyərləndirir. Yaxud tarixə məzhəb eynəyi ilə baxır". İlahiyyatçı deyib ki, sosial şəbəkələrdə, efirlərdə çoxsaylı "tarixçilər, politoloqlar, sosioloqlar, aparıcılar..." görürük ki, açıq - aşkar məzhəbçilik edirlər: "Dindarlar arasında məzhəbçilik müəyyən qədər anlaşılandır ki, bunların işi-peşəsi tarixən sünni-şiə mübahisəsi olub. Lakin ictimai fəaliyyəti olan şəxslərin, televiziya, sayt rəhbərinin, sosioloq, politoloq tarixçi ünvanı ilə cəmiyyətə nələrisə təlqin etmək fürsəti olanların dini savadı, təhsili, obyektiv baxış bucağı olmadan kor-koranə şəkildə, sadəcə dədə-baba qaydasında məzhəbçilik nifaqı aşılaması qəbuledilməzdir və təhlükəlidir. Həmin zümrənin əlindəki geniş resurslar, imkanlar birbaşa və dolayı yolla məzhəbçilik təbliğatı ilə cəmiyyətin, xalqın milli birliyini, vəhdətini, həmrəyliyini pozmağa, nifaq salmağa yönəldilib.Adam guya sosioloqdur, öz məzhəbini aşılayır auditoriyaya. Adam guya psixoloqdur, məzhəb aşılayır. Adam guya tarixçidir, əslində tarixi şəxsiyyətlərin orbazı üzərindən təriqətçilik nifaqı aşılayır. Adam guya siyasətçidir, qeyri məzhəbdən olanları hədəfə alır. Adam guya jurnalistdir, araşdırmalarında, fəaliyyətində ancaq öz məzhəbindən olanlara yol verir. Məzhəbçi olmayanlara qapı bağlayır... Bu tendensiya ona yol aça bilər ki, beləleri rəsmi dövlət məmurlariyyətinə qalxar və vətəndaşları qəbul edərkən, xidmət edərkən məzhəb fərqinə görə müəyyən edərlər. Özü də bu cür adamlar elə deyil ki, illərlə ömrünü dini, məzhəbləri araşdırmağa sərf edib obyektiv yolu tapıblar. Xeyr. Ənənəvi olaraq...İstəmirəm bu ictimai şəxsləri adları ilə açıqlayam. Amma belə getsə açıqlayacam və getdikləri yolun, tutduqları mövqeyin xalq, dövlət üçün nə qədər təhlükəli olduğunu izah edəcəm. Hətta bəziləri məzhəbçiliyi, dini zəmində nifaqı tənqid edən şəxslərə qarşı trol ordusu da səfərbər etmək gücündədir. Yanlış yolda olduqlarını bilən və ifşa etmək potensialına sahib olan adamları hədəfə gətirmək, baykot etdirmək resurslarına da sahibdirlər".

**Vasif**



*Rüstəm Hacıyev*

# İsraillə "Hizbullah" arasında atəşkəs olacaqmı?

***ABŞ prezidenti Donald Tramp artıq neçənci dəfədir ki, bəyan edir ki, İsraillin baş naziri Benyamin Netanyahu və "Hizbullah" təşkilatının hərbi qanadının yüksək rütbəli nümayəndələrinin biri ilə, Livanda atəşin dayandırılmasl ilə bağlı razılıq əldə edib.***

***Ağ Evin rəhbərinin sözlərinə görə, Netanyahu ilə konstuktiv danışıqlarından sonra, belə şərtləşiblər ki, İsrail ordusu Beyruta göndərilməyəcək. Livanın paytaxtına tərəf irəliləyən ordu qüvvələri, artıq geri qayıdır.***

***"Eyni qaydada, Hizbullahın yüksək rütbəli nümayəndəsi ilə çox yaxşı söhbətim baş tutdu və onlar da, atəşin dayandırilması ilə razılaşdllar"- deyə Tramp bildirib.***

***ABŞ prezidenti İsrail və Hizbullah araslnda, İsraillə HƏMAS arasında dəfələrlə atəşin dayandlrllması ilə bağlı bəyənatlar verib. Lakin, bu bəyanatların sonunda bir əmma qoymağıda unutmur. ABS prezidenti bu dəfəki bəyənatınada əlavə edib ki, Hizbullahın nümayəndəsi İsrail onlara hücum etməsə, onlarda İsrailə hücum etməyəcəklərini, Netanyahu isə, Hizbullah onlara hücum edərsə, İsrailin Beyrutdakı terror "yuvalarına" hücum edəcəklərini bildiriblər.***

***Bir sözlə, ABŞ prezidentinin atəşkəslə bağlı bu bəyanatının da, reallaşacağı inandırıcı görünmür. Çünki, istər İsrailin bəzi qüvvələrinin, istərsə də, Hizbullahın yalnlz İranın tapşırıqları ilə hərəkət edən radikal hərbi nümayəndələri münaqişənin dayanmasını istəmirlər və onlar istənilən vaxt atəşkəsi poza bilərlər. Bu isə, müharibənin yenidən qlzışmasına gətirib çıxara bilər.***

***İsrailin bəzi hakimiyyət qüvvələri ABŞ prezidenti Donald Trampa müraciət edərək, Livanın paytaxtına aviazərbələr etmələrinə razılıq verməsini xahiş ediblər.***

***İranın Tasnim agetliyi isə bildirir ki, İran İslam Respublikası, İsrailin Livana qarşı keçirdiyi hərbi əməliyyatlarına etiraz olaraq, ABŞ-la aparılan danışıqları dayandırır və Hörmüz boğazının tamamilə bağlayacaqlarını bildirib.***

***Yəni, ABŞ prezidenti əminliklə yaxın günlərdə atəşin dayandlrılacağını bəyan etsə də, real vəziyyət onu göstərir ki, Donald Trampın bu bəyanatıda havadan asılı qalacaq...***

## "Rusiya Ermənistana qazın qiymətlərini qaldırmağı planlaşdırır..."




**"Avrasiya İqtisadi İttifaqı "Rusiya və onun tərəfdaşları" klubuna bənzəyir. Rusiya rəsmiləri bir ağızdan deyirlər ki, "Ermənistan Avropa İttifaqına inteqrasiya siyasətindən imtina etməzsə, Avrasiya İqtisadi İttifaqından çıxarılacaq". Rusiyalı rəsmilər bu açıqlamanı verərkən, birliyə üzv olan digər dövlətlərin rəyi ilə hesablaşmırlar, onların yerinə də qərar verirlər. Misal üçün bugünə qədər Avrasiya İqtisadi İttifaqına üzv olan Qazaxıstan və Qırğızıstan rəsmilərindən Ermənistan hökumətinin ünvanına "üzvlükdən çıxararıq" tipli açıqlamalar verilməyib".**

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib. O, bildirib ki, buna baxmayaraq, bu dövlətlərin rəsmiləri rusiyalı rəsmilərin açıqlamalarına tərs düşən fikir də bildirmirlər: "Bunun nəticəsidir ki, Astanada Avrasiya İqtisadi İttifaqının sammitində Ermənistanla bağlı bəyanat qəbul edilib. Rusiya Prezidenti Vladimir Putinin köməkçisi Yuri Uşakov bildirib. Vladimir Putin, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev, Belarus Prezidenti Aleksandr Lukaşenko və Qırğızıstan Prezidenti Sadır Japarov Ermənistanın Avropa İttifaqına üzv olmaq planları ətrafında vəziyyəti müzakirə ediblər. Aydındır ki, Rusiya Ermənistanla bağlı qərarını o biri üzvlərə qəbul etdirib.Avropa İttifaqı sözdə yox əməldə Ermənistan hökumətinə dəstəyini artırmasa, Kreml Ukrayna "ssenarisini" Ermənistanda təkrarlamaq istəyəcək". Politoloqun sözlərinə görə, vaxtilə Ukrayna məhz Avropa İttifaqı ilə assosiativ saziş imzaladığına görə, Kreml tərəfindən cəzalandırıldı: "İndi Eravan hökuməti hədəfdədir. İrəvanda Avropa Siyasi Birliyinin sammiti keçirmək azdır, Brüssel Rusiyanın baş nazir Nikol Paşinyana artan təzyiqləri neytrallaşdırmaq barədə düşünməlidir. Rusiya Ermənistana qazın qiymətlərini qaldırmağı planlaşdırır, üstəgəl Ermənistanın kənd təsərrüfatı məhsullarının Rusiya bazarlarına girişi qadağan olunub. Avropa İttifaqı öz bazarını Ermənistan kənd təsərrüfatı məhsullarına aça və bu ölkəni qazla təmin etmənin alternativlərini hərəkətə gətirə bilərmi? Bu baş verməyəcəksə, Brüsselin və Fransa Prezidenti Emmanuel Makronun Nikol Paşinyana sözdə dəstəkləri bir qara qəpiyə dəyməyəcək".

**Vasif ƏLİHÜSEYN**

## "Moskva Ermənistan hakimiyyətinə qarşı bütün təzyiqləri işə salıb"

**"Rusiya Ermənistandan səfirini geri çağırması iki ölkə arasında siyasi münasibətlər sisteminin böhrana yuvarlanmasıdır. Avrasiya İttifaqının Ali Şurasının Ermənistanla bağlı birgə qərarı və V. Putinin açıqlamaları seçkilərə təsir etmək planın tərkib hissəsidir. Bununla seçicilərə "əgər N. Paşinyana səs versəniz, sizin Rusiya ilə bağlarınızı keçəcəyik" -mesajını verir. Ermənistanın əsas ticarət tərəfdaşı və bu ölkədən kənd təsərrüfatı məhsulları məhz satışı Rusiyanın bazarında həyata keçirilir".**

Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib.

"Moskva Ermənistan hakimiyyətinə qarşı bütün təzyiqləri işə salıb. N.Paşinyan bu təzyiqlərə qarşı duruş gətirir və Kremldə V. Putinə "demokratiya" dərsi keçməsinə qədər gedib çıxmışdı.Rusiya rəhbərliyi bilir ki, N.Paşinyan növbəti qələbəsindən sonra, Azərbaycanla "Yekun sülh" müqaviləsi bağlayacaq. Türkiyə ilə sərhədlər açılacaq. Rusiyanın Cənubi Qafqazda 200 il ərzində formalaşdırdığı status-kvo tam söküləcək. Bu da Rusiya rəhbərliyində həyəcanla qarşılanır.Seçkilərdə Ermənistan əhalisi N. Paşinyana səs verməsi gözlənilir. Çünki, xalqda bilir ki, Rusiyanın növbəti gəlişi müharibə deməkdir", - deyə o, bildirib.

## Uşaq haradadır, məktəbdə yoxsa əmək bazarında?



**"Bu sual bir ölkənin inkişaf səviyyəsini ölçməyin ən sadə və ən dəqiq yollarından biridir. Dünyada hələ də 138 milyon uşaq əmək fəaliyyətinə cəlb olunur. Bir sıra Afrika və Asiya ölkələrində bu göstərici 20-30 faizə çatdığı halda, inkişaf etmiş Avropa ölkələrində 1 faizdən də aşağıdır".**

Adalet.az xəbər verir ki, bunu iqtisadçı Eldəniz Əmirov deyib.

Onun sözlərinə görə, uşaq əməyinin istismarı üzrə orta göstərici isə 8 faizdir:

"UNICEF-in məlumat bazasında Azərbaycan üzrə son mövcud beynəlxalq qiymətləndirmədə isə göstəricinin qlobal orta səviyyədən xeyli aşağı olduğu qeyd edilir. Müşahidələr də göstərir ki, son illərdə Azərbaycanda uşaq əməyinin istismarı halları əhəmiyyətli dərəcədə azalıb. Əmək münasibətlərinin rəsmiləşdirilməsi, nəzarətin və şəffaflığın güclənməsi bu prosesə müsbət təsir göstərib. Arzu edərdim ki, bu göstərici gələcəkdə daha da azalsın. Çünki uşağın yeri əmək bazarında deyil, təhsil müəssidəsində, ailəsinin yanında və arzularının arxasınca getdiyi yoldadır.1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə bütün balaları ürəkdən təbrik edirəm".

## "Bu iqtisadi və diplomatik uğurlar xalqımızın birliyinin nəticəsidir"



**"28 May Azərbaycan xalqının tarixində milli qürurun, azadlıq mübarizəsinin və dövlətçilik iradəsinin ən parlaq simvollarından biridir.1918-ci ildə qurulan Azərbaycan Xalq Cümhuriyyəti bütün Şərqdə ilk demokratik respublika kimi tarixə düşərək xalqımızın müstəqil yaşamaq əzmini dünyaya nümayiş etdirdi".**

Bunu Adalet.az-a açıqlamasında "Yeni Xətt" Siyasi Tədqiqatlar Mərkəzinin rəhbəri Ramil Hüseynov deyib. O, bildirib ki, bu şanlı tarix bizim milli kimliyimizin və dövlətçilik ənənələrimizin əsas sütunlarından biridir:

"Bu gün müstəqil Azərbaycan güclü siyasi iradə, milli birlik və qətiyyətli dövlət strategiyası ilə regionun aparıcı dövlətlərindən birinə çevrilib. Prezident rəhbərliyi altında ölkəmiz öz suverenliyini daha da möhkəmləndirərək beynəlxalq arenada söz sahibi olan güclü dövlət statusunu davamlı şəkildə gücləndirir.

Azərbaycanın əldə etdiyi siyasi, iqtisadi və diplomatik uğurlar xalqımızın birliyinin nəticəsidir. Müstəqilliyimiz bizə əmanət deyil, böyük mübarizə və şəhid qanı bahasına qazanılmış müqəddəs dəyərdir. Bu dəyəri qorumaq hər bir vətəndaşın milli məsuliyyətidir. Xalqımız tarix boyu olduğu kimi bu gün də dövlətinin yanında dayanaraq milli maraqlarımızı qətiyyətlə müdafiə edir. 28 May-Müstəqillik Günü münasibətilə bütün Azərbaycan xalqını səmimi qəlbdən təbrik edir, dövlətimizə qüdrət, xalqımıza rifah və əbədi istiqlal arzulayıram. Yaşasın müstəqil Azərbaycan!".

**Sübhan**

*Əbilfəz Mahmudov,*
*Binəqədi Rayon İcra Hakimiyyəti yanında İctimai Şuranın üzvü,*
*energetik*



# "Bakı Enerji Həftəsi" qlobal enerji səhnəsində həqiqətən aparıcı tədbirlərdən biridir

**Regionun aparıcı sənaye tədbiri olan və hər il qlobal enerji liderlərini bir araya gətirən "Baku Energy Week" 31-ci dəfə fəaliyyətə başlayıb. Cari ilin iyun ayının 1-dən etibarən Bakı Enerji Həftəsi çərçivəsində keçirilən "Cənub Qaz Dəhlizi: Enerji təhlükəsizliyi və regional əməkdaşlıq" adlı peşəkar inkişaf sessiyasında Cənub Qaz Dəhlizinin enerji təhlükəsizliyinin möhkəmləndirilməsində rolu, regional əməkdaşlığın inkişafına töhfəsi, enerji təchizatının şaxələndirilməsi və gələcək perspektivlər müzakirə olundu.**

**Təşkil edildiyi illər ərzində "Baku Energy Week" həm regional, həm də beynəlxalq səviyyədə etibarlı enerji platforması kimi formalaşaraq, qlobal tədbirlər təqvimində mühüm və gözlənilən hadisələrdən biri olub.**

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Bakı Ekspo Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 31-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi "Caspian Oil and Gas", 14-cü Xəzər Beynəlxalq Təmiz Enerji Sərgisi "Caspian Power" və 31-ci "Baku Energy Forum"un rəsmi açılış mərasimində iştirak edib.**

**Bakı Enerji Həftəsinin açılış mərsimində çıxış edən dövlət başçısı ölkənin milli inkişaf modelində neft strategiyasının fundamental rolunu vurğuladı.**

**Prezident İlham Əliyevin açılış mərasimindəki çıxışı müstəqil Azərbaycanın enerji strategiyasının inkişaf yolu, əldə olunan uğurlar və qarşıda duran hədəflər barədə mühüm mesajları ehtiva edir.**

**Müstəqilliyimizin son dərəcə ağır, iqtisadi baxımdan tam qarışıq, siyasi baxımdan qeyri-sabit keçən ilk illərini, o cümlədən ərazimizin təxminən 20 faizinin Ermənistan tərəfindən işğal edildiyini və nəticədə bir milyon həmvətənimizin məcburi köçkün həyatı yaşadığını, yoxsulluq səviyyəsinin 50 faizi aşdığını, işsizliyin geniş yayıldığını, hətta elektrik enerjisi və təbii qazı idxal etdiyimizi xatırladan Prezident İlham Əliyev həmin dövrdə müstəqil ölkə kimi yaşamaq və inkişaf etmək üçün sahib olduğumuz təbii sərvətlərdən səmərəli istifadəni yeganə çıxış yolu kimi gördüyümüzü və Xəzərin enerji ehtiyatlarının beynəlxalq neft şirkətlərinə açan ilk ölkə olduğumuzu bildirdi.**

**Dövlət başçısının çıxışında diqqət çəkən məqamlardan biri də, enerji gəlirlərinin yalnız sosial-iqtisadi sahəyə deyil, hərbi quruculuğa da yönəldildiyinin vurğulanmasıdır.**

**Belə ki, 30 il boyunca işğal altında qalmış torpaqlarımızın azad edilməsini mümkün edən güclü ordunu məhz enerji gəlirləri hesabına qurmaq mümkün oldu. Bütün bunlar isə enerji siyasəti ilə dövlət və ordu quruculuğu arasındakı birbaşa əlaqəni son dərəcə aydın şəkildə ortaya qoyur.**

**Ölkəmizdə istər sosial-iqtisadi, hərbi, istərsə də xarici siyasət baxımından baş verən inkişaf prosesləri təbii sərvətlərdən düzgün istifadə olunduğu zaman bu siyasətin bir çox üstünlüklərə yol aça biləcəyini sübut edən amillərdir.**

**Prezidentin çıxışında karbohidrogen ehtiyatlarına malik ölkələrə sərgilənən münasibətlə bağlı fikirləri xüsusilə önəmlidir. Belə ki, uzun illər neft və qaz hasilatı ilə məşğul olan ölkə və şirkətlərə damğa vurularaq, bəzən onlar qarayaxma obyektinə çevrilmiş, planetə ciddi ziyan vurmaqda ittiham olunmuş, heç bir əsas olmadan ictimai rəydə mənfi fikir formalaşdırılmışdır. Unutmayaq ki, hər bir ölkə torpağının təkində və ya dənizinin dibindəki təbii ehtiyatlarını öz inkişafı üçün istifadə edir və ölkələr sahib olduqları neft ehtiyatlarına görə deyil, həmin resurslardan əldə olunan gəlirləri necə idarə etdiklərinə - sosial infrastruktura, təhsilə, səhiyyəyə, bərpaolunan enerjiyə necə investisiya yatırdıqlarına görə qiymətləndirilməlidir.**

**Azərbaycanın enerji infrastrukturunun əsas sütunu olan Cənub Qaz Dəhlizi ilə bağlı fikirlərini səsləndirən cənab İlham Əliyev bu layihə vasitəsilə Azərbaycanın qazını alan ölkələrin sayının keçən ildəki 12-dən 16-ya çatdığını, bunların 10-unun Avropa İttifaqı üzvü olduğunu, boru xətti ilə qazın ərazi və coğrafiya parametrləri baxımından ölkələrə nəql edilməsində Azərbaycanın dünyada birinci yerdə olduğunu bildirdi.**

**Onu da qeyd edim ki, Günəş və külək enerjisi üzrə ümumi gücün gələn ilin sonunadək 2 qiqavata, 2032-ci ilin sonunadək isə 8 qiqavata çatacağını açıqlayan ölkə başçısı, Qarabağ və Şərqi Zəngəzurda artıq 300 meqavatdan çox hidroenerji gücünün istifadəyə verildiyini diqqətə çatdırdı.**

**Əminliklə deyə bilərik ki, "Bakı Enerji Həftəsi" bundan sonra da qlobal enerji dialoqunun genişlənməsinə və dayanıqlı enerji gələcəyinin qurulmasına mühüm töhfə verəcəkdir.**



Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az

# Gülməli və ağlamalı...

**Biz hər hansı tamaşaya, aktyor oyununa baxanda ya düşünürük, ya gülürük, ya da ağlayırıq! Əlbəttə, hər tamaşa və aktyor oyunu öncə tamaşaçını düşündürməlidir. Amma belə tamaşalar əvvələr olub.Çünki əvvələr yaxşı dramaturqlar vardı və onlarda gözəl tamaşalar, gözələ ssenarilər yazardılar.**

**Və istedadlı aktyorlarda öz yerində . Amma indi düşük- düşük tamaşalar göstərilir və döşük - düşük aktyorlar da bu tamaşada oynayırlar. Aktyorların ifasına baxırsan, adamın gülmək , düşünmək əvəzinə əti tökülür... İndi üzdə olan aktyorlar var- Elməddin, Fərda... Eləcə də " Xəzər" TV" də hər həftə yayımlanan " Komediyaxana " . Bu aktyorlar istedadsız deyillər. Amma sənətə necə gəliblərsə, elə o səviyyədə qalıblar! Ona görə ki, tamaşanın ssenarisi zəifdir və rejissor işi bərbad gündədir . Belə də olanda aktyor tamaşaçını güldürmək üçün ya bir-birinin başına qapaz vurur, ya bir- birinə təpik atır, ya da özlərini yerə çırpılar! Bəzi tamaşaçılar da bu səhnələrə baxıb, uğunub gedirlər...**

**Hələ alqışlar da bir yandan... Vallah, bu gülüs deyil, tamaşaçını ələ salmaqdır! Zövqlü və səviyyəli tamaşaçılar belə gülüşü qəbul eləmir! Ən azından ona görə ki, onlar ağı qaradan ayırmağı bacarırlar.Təəssüf ki, ayırmayanlar da var. " Bakılı oğlanlar" ın hazırladığı hər tamaşa çox möhtəşəm keçirdi. Çünki onun ssenarisi də gözəl yazılırdı, rejissor işi də gözəl idi, aktyor oyunu da! Belə də olmalıydı! Anar Məmmədxanov kimi istedadlı bir insan onlara rəhbərlik edirdi.Burda hər şey möhtəşəm idi! İstedad olan yerdə həmişə belə olur .**

**Elə bil ki, indiki ssenaristlərin, rejissorların dünyadan xəbərləri yoxdu. Onlar heç olmasa , Ramiz Həsənoğlunu tanısaydılar, bilərdilər ki, necə tamaşa hazırlanır. Bu televiziya rejissorunun çox yox iki tamaşası teatr sənətində tarixi hadisədir və əbədi yaşayacaq.O tamaşalardan bir İsi Məlikzədəinin "* Qatarda", digəri isə " Ac hərflər " tamaşasıdı. O tamaşalara yüz dəfə baxsan belə, yenə baxmaq istəyirsən... İndi belə tamaşalar varmı?! Əlbəttə , yoxdu! İndiki aktyorlar gülüş ustaları Lütfəli Abdullayevi , Bəşir Səfəroğlunu, Nəsibə Zeynalovanı, Səyavuş Aslanı, Hacıbaba Bağırovu, Yaşar Nurini... tanıyırlarmı?! Deyə bilmərik! Bəlkə də tanıyırlar, amma onlardan bir şey öyrənməyiblər . Yenə min təəssüf!!! Səyavuş Aslan, Nəsibə Zeynalova, Hacıbaba Bağırov üçlüyünün çox möhtəşəm bir səhnəsi var! Həmin səhnədə hər üç aktyor teatr sənətində unikal bir tarix yazıb! Ay gənc aktyorlar , onlara baxıb öyrənin. Yoxsa , qışqırmaqla, bağırmaqla, vallah , gülüş yaratmaq olamaz. Olsa da bax belə şit çıxacaq ! Ucuz şöhrət dalınca yox, sənət dalınca getmək lazımdır. Bizdə bu gün də istedadlı aktyorlar var, amma onlar sənət arxasınca deyil,pul dalınca qaçırlar.**

**Ona görə də gülüşümüzün dadı, duzu, istiotu, çatışmır və yoxdu. Və belə getsə səhnəmizdə Lütfəli Abdullayevlər , Bəşir Səfəroğlular , Nəsibə Zeynalovalar, Səyavuş Aslanlar, Hacıbaba Bağırovlar, Yaşar Nurilər yetişməyəcək!!! Bax bu barədə teatr rəhbərləri, rejissorlar papaqlarını qabaqlarına qoyub, düşünməlidir. Ki, ayə, biz bu gedişlə hara çata biləcəyik???**

## *Qız istədi, vermədilər...*



**İndi hər adama qız vermirlər. Ən azından deyirlər ki, oğlanın evi, maşını, işi olmalıdır. Hələ biz başqa şeyləri demirik... Qız evini də qınamalı deyil! Çünki hər bir valideyn arzulayır ki, qızı ailə qurandan sonra xoşbəxt olsun! Amma xoşbəxtlik heç də evlə, maşınla , pul qazanmaqla ölçülmür.**

Yetər ki, hər iki gənc bir- birin sevinsin, anlasın və çətin vəziyyətə dözsün, həyatın sınaqlarında alnı açıq, üzü ağ çıxsın. Bizim gəncliyimizdə hər çətinliyə dözən, illərlə kirayədə qalan və öz zəhmətləri ilə sonradan ev alan , xoşbəxt olan o qədər insanlar var ki... Deməli , həyat bir daha təsdiq edir ki, xoşbəxtlik heç də var- dövlətdə deyil; bir - birini sevməkdə və başa düşməkdədir! Bir neçə gün bundan əvvəl kəndimizə gedəndə magistral yolda bizim avtomobildən qabaqda bir faktor gedirdi. Oğlum Emil dedi ki, ata, gör traktorun arxa hissəsində nə yazılıb. Diqqətlə baxdım və bu sözləri oxudum:" Qız istədim vermədilər, dedilər ki, traktoristsən..." Amma o , traktoru sürən oğlan çox zəhmətkeş , fərasətli oğlan oxşayırdı. Bununla yanaşı, traktor təm- təzə idi və təm- təzə traktoru gəlin kimi bəzəmişdi.Dostum Arif dedi ki, bu traktorun qiyməti 70- 80 min manatdır! Özü də bu traktora hər yerdə ehtiyac var və yaxşı da pul qazanmaq olar. Və qız verməyənlərinə ona yazığım gəldi! İnsanlara puluna, vəzifəsinə görə deyil, insanlığına , adamlığına görə qiymət vermək lazımdır!!!

**Emil FAİQOĞLU**

## *İki şair haqqında bir neçə söz...*



**"Seyran Səxavətin poeziyası və nəsri Azərbaycan ədəbiyyatının qaymağı, balıdı..." , " Çağdaş Azərbaycan ədəbiyyatında Seyran Səxavətdən möhtəşəm yazıçı yoxdu! Sadəcə olaraq onun əsərlərini oxumaq lazımdı...", "Azərbaycan peziyasında və publisistikasında Vaqif Bəhmənliyə oxşayan heç bir yazar yoxdu..." , " Vaqif Bəhmənlinin hər şerində, hər misrasında sözlər nəfəs alır, danışır və səninlə şirin söhbət eləyir! Bu sözlər sanki bir mələyə bənzəyir!.."**

## *Müctəhidin təhsildən qayıtması...*



**Bu, Seyid Əzim Şirvaninin məşhur satirasıdır! Belə ki, müctəhid gedir, xaricə dörd-beş il gəzib kef eləyir, oxumaq əvəzinə, bütün gününü əyləncələrə keçirir. Və sonra da qayıdır vətənə .**

Məlum olur ki, xaricdə heç bir elm, savad almayıb, bir sözlə, həyatını eyş-işrətlə keçirib. Bax bizdə indi də həmin müctəhidin yolunu davam etdirən gənclər var . Ayrı- ayrı təhsil mərkəzləri onları aldadıb, Türkiyə, Gürcüstan, Özbəkistan universitetlərinə imtahansız qəbul elətdirir, bundan küllü miqdarda onlar pul qazanır və nəticədə həmin gənclərin bir çoxu savad almır, ancaq diplom alır!.

O diplomların çoxu isə Elm və Təhsil Nazirliyi tərəfindən tanınmır.Bizim bəzi gənclər isə oxumağa deyil, sanki həmin ölkələrə gəzməyə , istirahət etməyə gedirlər. Bu həm də dörd il hərbi xidmətdən azad olunmağa hesablanıb. Onlar diplom alıb , ölkəmizə qayıdır və heç yerdə işə qəbul ola bilmirlər. Çünki nə diplomları tanınır, nə də savadları var. Diplomları tanınanlar da işə qəbulla bağlı Dövlət İmtahan Mərkəzinin keçirdiyi imtahandan keçə bilmirlər.

Amma xaricdə təhsil alıb orada qalıb çalışan və ölkəmizə qayıdıb işləyən istedadlı , savadlı gənclər də var. Böyük əksəriyyəti isə xarici ölkələrdəki universitetlərə qəbul olmaqla , hərbi xidmətdən yayınmağa və diplom almağa cəhd edirlər!!!

## *Əlli manata samovar çayı olar???*



**Yazın gəlişi ilə əlaqədar olaraq bu gün istirahət mərkəzlərinə, xüsusilə də, bölgələrə, rayonlara üz tutanların sayı xeyli çoxalıb. Düzdür, qeyri - sabit hava şəraiti bu prosesi bir qədər ləngidir, amma buna baxmayaraq, yenə məlum yerlərə gedənlərin sayı kifayət qədərdir!**

Əlbəttə, bunlar insanların haqqıdır və heç kəs onu həmin adamların əlindən ala bilməz! Ancaq bölgələrdəki bəzi xidmət sahələri bunu başqa cür edirlər! Məsələn, Türkiyədə, Gürcüstanda bir həftə istirahət etmək üçün bir ailənin dörd üzvünə 2 min manat bəs edir.Lakin Lənkəranda, Qəbələdə, Qusarda, Nabranda, Qubada, Qaxda, Balakəndə, Zaqatalada... bu pulla istirahət etmək mümkün deyil. Bayram günlərində vəziyyət daha da çətinləşir və istirahət mərkəzləri hər şeyin qiymətini ikiqat qaldırırlar. Yəni dörd nəfərlik bir ailənin istirahətə üçün ölkəmizdə 4 min manata yaxın pul xərcləməlisən! Elə ondansa, o pulu verib, Türkiyənin gözəl istirahət mərkəzlərində , məsələn, Antaliyada kef eləmək olar. Üstəlik də bizdə xidmət mədəniyyəti , yeməklərin keyfiyyəti elə də yüksək səviyyədə deyil. Bir samovar çayı 50 manata verirlər.Və var, nə var ,bu çay dəstgahıdır. Yəni yanında mürəbbə, şokolad olur. Adam var ki, şəkər xəstəsidir, şirniyyatdan istifadə edə bilmir, ancaq xidmət işçiləri bunu heç vaxt nəzərə almırlar.Yəni fil üstündə də bülbül! Bax belə! Ona görə də bir çox imkanlı adamlar ölkəmizdə deyil , istirahət üçün xaricə gedirlər!!!

## *Qoyunlar yol hərəkəti qaydalarına əməl edir...*



**Bu günlər sosial şəbəkədə maraqlı bir görüntüyə rast gəldim. Belə ki, on beşə yaxın qoyun avtomobil yolunun piyada zolağına yaxınlaşır və ordan təhlükəsiz keçir.**

Sürücülər də qoyunları görür və onlara yol verir. Kimsə də deyir ki, vallah, bunlara qoyun demək düzgün deyil. Qoyun yolun təyin olunmamış yerindən keçən bəzi insanlardır. Heç bəzən heyvanda olan mədəniyyət bir çox insanlarda yoxdur. Mən də dəfələrlə belə hadisələrin şahidi olmuşam. Yəni Günəşlidə avtomobil yolundan keçmək istəyən itlər maşın onlardan uzaqda olanda keçirlər. Amma gəlin onunla razılaşaq ki, əksər insanlar yolun təyin olunmamış yerində keçirlər. Təsadüfi deyil ki, piyadaların günahı üzündən Bakıda nə qədər yol-nəqliyyat hadisəsi baş verib. Yol polisi əməkdaşları onlara tövsiyə edir ki, yerüstü və yeraltı keçidlərdən istifadə edin , təəssüf ki, buna bir çox hərəkət iştirakçıları əhəmiyyət vermir. Nəticə isə xoşa gələn olmur və piyada vurulur. Necə olur ki, qoyunlar piyada zolağından keçir, ancaq bir çox insanlar yolu hardan gəldi keçir??? Bax , bu sual piyadaları ciddi düşündürməlidir!!!

## *Onların səsi camaatı boğaza yığıb...*



**Bu gün Bakıda motosikletlərin səsindən adamlar təngə gəliblər. Çünki bu səs o qədər bərkdən çıxır ki, az qala adamın qulağı tutula. Bu isə birmənalı olaraq qanun pozuntusu hesab olunur .**

Belə faktların mövcudluğu heç kimə sirr deyil. Əsas məsələ odur ki, bu cür qanunu pozan sürücülər motosikletlərin mühərrik hissəsində dəyişiklik edir, səsboğucunu sıxdır və bunun nəticəsində ondan möhkəm səslər çıxır. Hansı ki, həmin nəqliyyat vasitələrinin müyyən hissəsində konstruksiya dəyişikliyi aparılması üçün aidiyyəti qurumdan icazə alınmalıdır. Əgər bu razılıq yoxsa, deməli bu, qanun pozuntusudur. Mövcud qanunla belə dəyişikliyə yol verən motosiklet sürücüləri 500 manat civarında cərimə olana bilərlər. Üstəlik də bu fakt yol polisi tərəfindən aşkarlansa, konstruksiyasında dəyişiklik edilmiş motosklet cərimə meydançasına qoyulur. Ona görə də, belə sürücülər məsuliyyətli olmalı, nəqliyyat vasitəsinin konstruksiyasında dəyişiklik etməməli, insanların narahatlığına səbəb olmamalıdırlar!!!

## *Yenə yağış suyu çox yeri basdı...*



**Adətən mart- aprel aylarına nisbətən həmişə mayda yağış elə də çox yağmır.Amma indi iqlim dəyişikliyi ilə əlaqədar olaraq hər şey baş verə bilər. Və necə ki, baş verir. Belə ki, mayın 27- də Bakıya və bölgələrə intensiv leysan yağışlar yağdı.**

Və əvvəlcədən də hidrometeoroloqlar bu barədə aidiyyəti qurumları məlumatlandırmışdı.Ancaq nə faydası, yenə onlar ( yeni aidiyyəti qurumlar) qabaqlayıçı tədbirlər görə bilmədilər. Ona görə də həmişə olduğu kimi bu leysan yağışda da Bakı iflic vəziyyətə düşdü! Əvvələr bəhanə edirdilər ki, yağış iki- üç gün yağır və ona görə də baş verən fəsadları aradan qaldırmaq olmur. Mayın 17- də isə cəmi yarım gün Bakıya intensiv yağışlar yağdı.

Bunu ki, aradan qaldırmaq, qabaqlayıcı addımlar atmaq olardı. Təəssüf ki, həmin günü Bakının bir çox küçə və prospektləri yağış suyundan keçilməsi oldu. Avtobuslar , avtomobillər yağış suyunun içində qaldı. Bir çox sürücülər avtomobilləri suyun içində qoyub , canlarını ölümdən güclə xilas etdilər. Həmişə olduğu kimi, paytaxtın kanalizasiya sistemləri normal işləmədi. Bakı Şəhər İcra Hakimiyyəti, İri Şəhərlərin Su Təchizatı Agentliyi, eləcə də digər aidiyyəti dövlət qurumları bu yağışda da " 2" qiymət aldılar. Bakının qəsəbələrində və kəndlərində vəziyyət daha açınacaqlı idi.

Ötən yağışların fəsadı aradan qaldırılmadan yenidən həmin yerləri su basdı. Başa düşmək olmur ey, bəzi xidmət sahələri insanların taleyinə niyə belə laqeyd, soyuqqanlı yanaşır?? Təbii ki, nə vaxta qədər ki, bu nöqsanlara görə yüksək vəzifəli şəxslər cəzalandırılmır, elə belə də olacaq ! Və hər dəfə onlar boş vədlərlə əhalini, eləcə də dövləti aldadır, yalan danışırlar.

Yalanınsa ömrü 40 gündür! Vallah, axırda o yalanlar , onların öz başlarında çartlayacaq!!! Heç olmasa, bu vəzifəli şəxslər növbəti intensiv yağışlar yağanda qabaqlayıcı tədbirlər görsünlər! Ki, Bakını yağış suları basmasın, avtomobillər və evlər su altında qalmasın!!!

**Emil FAİQOĞLU**



# Polis gücləndirilmiş iş rejimində işlədi

**Hər dəfə bayram günləri gələndə biz çox sevinirik. Sevinirik ki, həmin günlər gəzməyə çıxacaq, dincələcəyik! Hələ imkanı olanlar xarici ölkələrə və məmləkətimizdə gözəl yerlərə gedəcək!**

Təbii ki, bu anları, bu məqamları hamımız böyük səbirsizliklə gözləyirik! Şükür Allaha, indi də bayramlar lap çoxdur! Amma bu briqadası gələnə kimi onlar özləri həmin insana kömək edir. Həmin xidmət əməkdaşları bir qədər gecikəndə polis öz xidməti avtomobilində xəstəni xəstəxanaya çatdırır. O qədər belə hadisələrin şahidi olmuşuq ki!

Xüsusilə də Əlahiddə Çevik Polis Alayının əməkdaşları bu sahədə daha fəal və operativdirlər. Biz dəfələrlə onu da görmüşük ki, Çevik Polis Alayının əməkdaşları psixoloji durumu mürəkkəb olan və intihar etmək istəyən insanı necə xilas edib. Allah belə polislərimizi qorusun! Bu mənada Çevik Polis Alayının




bayram günlərində bizim təhlükəsizliyimizi qoruyan Azərbaycan Polisini yaddan çıxarmalı deyilik! Ən azından ona görə ki, onlar həmin vaxtlar 24 saat iş başında olurlar. Dünyanın çox nadir ölkəsində Azərbaycanda olan sabitlik və əmin-amanlıq var.

Buna görə bir daha biz Azərbaycan prezidenti İlham Əliyevə, hüquq-mühafizə orqanlarına, o cümlədən polisə təşəkkür etməliyik. Heç şübhəsiz ki, xalqımız bunun hamısını bilir, onların fəaliyyətini yüksək qiymətləndirir. Xalqımız onu da yaxşı bilir ki, ölkəmizin müstəqilliyinin əldə edilməsində, Birinci və İkinci Qarabağ savaşında, eləcə də 24 saatlıq antiterror əməliyyatında polisin çox böyük qəhrəmanlığı olub. Bu savaşda yüzlərlə Azərbaycan polisi şəhid olub, çoxlu sayda yaralılar qeydə alınıb. Başqa sözlə demiş olsaq, polis öz qanı ilə yeni bir qızıl qəhrəmanlıq tarixi yazıb. Və buna görə də xalqımız Azərbaycan Polisini çox istəyir.

Demək olar ki, bu gün də həmin ənənə davam edir. Nə gözəl! Hər hansı vətəndaş çətinə düşəndə, küçədə, yolda, metroda özünü pis hiss edəndə birinci onların köməyinə polis gəlir. Təcili yardım

Binəqədi bölüyünün fəaliyyəti diqqətəlayiqdir. Bölük komandiri Elvin Babayev çox vətənpərvər, məsuliyyətli, polisin şərəfini qoruyan zabitdir.

Onlar Binəqədi rayonu ərazisində ictimai asayişin qorunmasında, tədbirlərdə insanların təhlükəsizliyinin qorunmasında, cinayətkarlığa qarşı mübarizədə çox yüksək peşəkarlıq göstərirlər.

Bütün bu məziyyətlər xalqın polis əməkdaşlarına olan inamını və məhəbbətini daha da artırır.

**Ümumiyyətlə, Çevik Polis Alayının Suraxanı, Nizami, Xətai, Yasamal bölükləri ictimai asayişin qorunmasında var qüvvə və bacarıqlarını əsirgəmirlər. Mayın 26-dan 31-nə kimi keçirilən bayram günlərində də polis, o cümlədən Çevik Polis Alayının əməkdaşları insanların təhlükəsizliyini daha yüksək səviyyədə qorudu və üzərlərinə düşən vəzifələri məsuliyyətlə yerinə yetirdi. Gərək cəmiyyət də bütün bu dəyərlərə yüksək qiymət verə!!! Cəmiyyət və xalq da həmişə deyir: "Mənim polisim məni qoruyur! Allah da onları qorusun!!!"**

**Emil FAİQOĞLU**

## Lukaşenko: "Kim Çen In diktator deyil"

**Belarus Prezidenti Aleksandr Lukaşenko Şimali Koreya lideri Kim Çen Inı "perspektivli gənc" adlandırıb.**

Adalet.az xəbər verir ki, onun sözlərini "Belta" sitat gətirib.

"Şimali Koreya lideri Kim Çen In məndə çox güclü təəssürat yaratdı. O, ağıllı, gənc, perspektivli, əməkdaşlığa yönəlmiş bir oğlandır və diktator deyil", - deyə Lukaşenko Minskdə Primorsk diyarının qubernatoru Oleq Kojemyako ilə görüşdə bildirib.

## Onlar yenidən imtahan verəcəklər



**Mayın 17- də Bakıya yağan intensiv yağışlar nəticəsində magistratura imtahan verən bir çox gənclər həmin yerə vaxtında gəlib çata bilməyiblər! Gecikdiklərinə görə Dövlət İmtahan Mərkəzi onları imtahana buraxmayıb.**

İmtanlar başa çatandan sonra imtahana buraxılmayan tələblər və onların valideynləri Dövlət İmtahan Mərkəzinin işindən narazılıq ediblər! Qeyri - sabit hava şəraitini və valideynlərin narazılığını nəzərə alan məlum qurum sözçüsü bildirib ki, imtahana qeyri- sabit hava şəraitinə görə gələ bilməyən tələbələr yenidən imtahan vermək hüququna malik olacaqlar.

Onlar əvvəldən ödəniş pulunu verdiyi üçün təkrar imtahan zamanı ödəniş pulu verməyəcəklər! Şübhəsiz ki, Dövlət İmtahan Mərkəzi tərəfindən bu addımın atılması çox müsbət haldır!

Bir sözlə, hüququ pozulmuş insanlar hüququnun bərpa olunması ədalətli bir çıxış yoludur!!!İkinci dəfə magistraturaya imtahan verən gənclərə uğurlar arzulayırıq!!!

**İlqar RƏSUL**

# Daşın üstündə oturmuş şair



## AQİL ABBASIN "RƏMİŞ"İ HAQQINDA

### PROLOQ

**Roman boyu bir uşaq yağışın altında qaçır, bir bulud da çətir olub onun başı üzəri ilə uçur ki, islanmasın... Bütün bunları göydən mələklər, yerdən şair müşahidə edir. Axırda mələklər o uşağı göylərin ənginliklərində, şair kitabın arasında yaşadır...**

### HƏR DAHİ SƏNƏTKARIN YANINDA BİR AQİL ŞAİR OLMALIDIR

**Tanrı bizim ikimizi də eyni şəhərdə bu dünyaya gətirib deyə az-çox Rəmiş haqqında məlumatım var idi (tanış deyildik). Qonşuda toyda görmüşdüm, 1 may günü paradda görmüşdüm və s. Elə orta məktəbdə oxuyarkən müəllimlərimizdən biri də hərdən onun haqqında nələrsə danışırdı bizə. Deyirdi Rəmişlə qonşuyuq: "Bir axşam nərd oynayırdıq, qapı açıldı, bir xanım girdi həyətə (bəlkə evə-İ.R.), gəldi, görüşdü, dedi, Rafiq, qalx, gedirik Tiflisə, bizi gözləyirlər, toydur, hamı səni arzulayır, camaata söz vermişəm, təcili çıxmalıyıq. Rəmiş getmək istəmədi, qadın əl çəkmədi, mən də dedim, day o qədər yolu gəlib, höcətlik eləmə, axırda gedəsi oldu. Getdi, toyu yola verdi, Borçalı camaatı başına ətək-ətək pul tökdü, iki gün orada qalıb o pulların hamısını tanışbilişə xərclədi, pulsuz-pənəsiz qayıtdı, gəldi..."**

**Bunu müəllim danışmışdı bizə dərs vaxtı. İllər sonra işimlə əlaqədar özüm söhbət edəsi oldum Rəmişlə. 2010-cu illər idi. Müsahibə almaq üçün Rəmişi redaksiyaya dəvət elədim, gəldi, danışdıq, maraqlı söhbətimiz oldu. Düşündüm, bir az da artıq tanıdım Rəmişi. Amma sən demə bu da tanımağın sonu deyilmiş....**

**Bu günlərdə yazıçı Aqil Abbasın yenicə nəşr olunmuş "Rəmiş" kitabını oxudum. Yeri gəlmişkən, müəllifin özü romandakı iki əsas obrazdan biridir və Rəmiş onu əsər boyu şair adlandırır. Nə isə...**

**Kitab mənə bu dünyanın bəlkə də ən sərgərdan sənətkarı haqda çox şey danışdı və sonda dedi ki, əslində sən Rəmişi indi tanıdın. Sözsüz ki, bu tanışlıqla da "Rəmişi tam tanıdım" demək olmaz. Belə adamları ən yaxşı tanıyanlar da tam tanıya bilmirlər. Görünür, ruhun sirri Allah yanında olduğu kimi, belə qeyri-adi insanların da tam məlumatı hansısa başqa məqamda, bəlkə hər kəsin gözlə görə bilmədiyi başqa mərtəbədədir. Amma indilik və çox güman ki, həmişəlik Rəmişin haqqında yerə məxsus və gözlə oxuna biləcək ən çox məlumat məhz bu kitabın içindədir:**

### RƏMİŞ

**Kitabı oxumağa başlayanda məndə yaranan bir təəssürat getdikcə ağlımda yerini daha da möhkəmlədirdi: Göylər Rəmişi fərqli yaradıb. Göylər həm də onun yerli şənliklər, tədbirlər, toylar, aradabir ölkədən kənara ayaq basan konsertlər bataqlığından qopub gerçək sənət aləminə, dünyanın özünə bab olan dahi sənətkarların arealına çıxmayacağını, daha doğrusu, çıxmaq istəməyəcəyini, Ağdamdan başlayan sənətkarlığını Bakıya, Azərbaycanın hər yerinə və qonşu məmləkətlərə qədər daşımaqla kifayətlənəcəyini əvvəldən bildiyi üçün onu Aqil Abbasla rastlaşdırıb.**

**Yəqin elə o üzdəndir ki, Aqil Abbas da romanı yazanda göylərin təsirindən çıxa bilməyib, ya da çıxmaq istəməyib və əsərində göyləri Rəmiş doğulandan öləndək qapılarını açıq saxlayıb onu həsrətlə gözləyən obraza çevirib. Kitabı oxuyanda adama elə gəlir ki, gitaradan sonra Rəmişin həmişə və hər yerdə ən çox yanında olan dostu məhz Aqil Abbasdır. Çünki adam Rəmiş haqda heç şübhəsiz ki, qapıqonşusunun, yaxınlarının belə bilmədiyi çox şey yazıb. Belə sadə, aydın və faktoloji mətnləri məhz şahidi olduğun, müşahidə etdiyin hadisələr vasitəsilə ərsəyə gətirmək mümkündür. Sadəcə oradan-buradan eşitdiyin məlumatlarla belə işlər əmələ gəlməz. Onu da deyim ki, bu roman mahiyyət etibarı ilə ikili xarakter daşıyır. Əsər eyni vaxtda həm dahi sənətkar haqqındadır, həm də avtobioqrafikdir. Yəni müəllifin özü haqdadır. Bu səbəbdən də müəllifi şəxsən tanımayan adam romanı oxuyarkən Rəmişlə bərabər həm də Aqil Abbasla tanış olur...**

**Amma əlbəttə ki, romanda əsas hədəf məhz hamımızın tanıdığı virtuoz gitara ifaçısı Rəmişdir. Və müəllif bu kitab vasitəsilə az qala hər səhifədə oxucuya deyir ki, yox, sən onu tanımırdın, indi tanımağa başlayırsan, o da tam deyil, müəyyən qədər. Çünki Rəmişi nəinki Aqil, heç göylər özü də tam olaraq tanımadı. Olsa-olsa Rəmişi bəlkə gitarası bir az tanıdı, onun da dediyinin hamısına ətrafdakılar ya oxudular, ya oynadılar, ya da təsirləndilər. Rəmişin ifaları zamanı - bəlkə bu alət onun əvəzindən bizə nəsə deyir? - düşünən oldumu, bilmirəm. Hər halda kitab bu barədə də düşündürür adamı...**

**Kitabın addımbaşı adama dediklərindən biri də odur ki, dünyada fərqli, tək sənətkar təkcə Rəmiş deyil. Var belə sənətkarlar. Amma görünən odur ki, təkcə sənətlə, fərqliliklə, hətta dahiliklə iş bitmir. Bizim tərəflərdə (regionda) həm də hər belə sənətkarın yanında bir aqil şair olmalıdır. Olmalıdır ki, sənətkarın özünə qarşı laqeydliyinin fəsadlarını aradan qaldırsın. Yəni özünə laqeydliyin sənətkar ətrafında hördüyü divarları dağıdıb, baryerləri yox edib tədbirlərdə, efirlərdə görünməyən tərəflərini cəmiyyətə, dünyaya çatdırsın...**

**Nəfsinin qulu olmamaq, pula həris olmamaq dahilərin əsas keyfiyyətlərindəndir, əlbəttə. Amma öz başına tökülən pulları nə vaxtsa sən ola biləcəyini ağlının ucundan belə keçirməyən musiqiçilərin ayağı altına atmaq hər dahinin də işi deyil. Kitabda belə epizodlar da yetərincədir...**

**Göylərdən sonra kitabda əsas və sonadək Rəmişə dözən, Aqil Abbasın əlini buraxmayan obrazlardan biri də çoxumuzun tanıdığı Nikkolo Paqaninidir. XIX əsrdə yaşamış italyan bəstəkardan, bütün dövrlərin ən mahir skripka ifaçısından gedir söhbət. O dahi sənətkardan ki, hələ sağlığında, barəsində qəlbini Şeytana satmaq müqabilində hüdudsuz istedad aldığına dair şayiələr yayılmışdı. Müəllif bu iki tarixi obrazı öz romanında bir araya gətirməklə - əslində, Rəmişi keçmişə, Paqanininin evinə aparmaqla, onları görüşdürüb danışdırmaqla sanki həm də oxucuya deyir ki: Rəmiş də hansısa kənar qüvvə ilə əlaqəsi, bağlılığı olan dahi sənətkardır. Amma o, hətta şayiələrdə belə qəlbini nə şeytana, nə də əzrailə satacaq biri deyildi. Üstünə təmənnaya hətta mələk gəlsəydi belə "nə istəyirsən, götür apar" deyəcək qədər rahat biri idi. Bu xasiyyəti, tərzi Rəmişi həm də bir insan kimi dahi edirdi. Və kitab bütün bu cəhətləri, çalarları sadalaya-sadalaya oxucuya həm də təxminən deyir ki: əgər Rəmiş öz gitara ifası ilə dahi sənətkar olmasaydı belə, həyat tərzi ilə sənətkar sayıla bilərdi...**

**Yeri gəlmişkən deyim ki, romanı maraqlı edən cəhətlərdən biri də proseslərin, hadisələrin keçmişlə indiki dövr arasında var-gəl etməsidir. Mütaliə zamanı bu günə kökləndiyin halda özünü keçmişdə görürsən və əksinə.**

**Əsərdə bir daş da var. Hamımızın sonu daşın altı olduğu üçün söhbətimi də elə daşla yekunlaşdırıram. Amma burada söhbət daşın üstündən gedir. Romanda Rəmiş hərdən gedib İçərişəhərdəki tanış daşın üstündə oturur, üzbəüz pəncərədə yaşayan qıza baxır və daha nələr...**

**Çox güman ki, nə vaxtsa Rəmiş haqda da Paqanini haqqında olduğu kimi bir bədii film çəkiləcək. Ola bilsin yüz ildən sonra, amma çəkiləcək. Guya Paqanini haqda film nə vaxt çəkildi ki? Adam öləndən yüz il sonra. Amma sənətkar ölmür axı. Demək ki, sağlığında. O hesabla Rəmişin də sağlığında çəkilmiş sayılacaq o film. Demirəm Rəmişə görə çəkiləcək, yox. Necə ki, Paqanini çəkən rejissor maraqlı iş ortaya qoymaq üçün Paqanininin mövzusuna tapınmışdı, eləcə də bizdə, ya haradasa maraqlı ideya axtaran rejissor bir gün Rəmiş haqda düşünəcək. Bəlkə Aqil Abbasın bu kitabını oxuyub düşünəcək Rəmiş haqda, bəlkə düşünüb sonra kitabı oxuyacaq. Hər halda əminliklə demək olar ki, o prosesdə bu kitab mütləq iştirak edəcək. Bəlkə hələ film elə bu kitabın motivləri əsasında çəkiləcək...**

### EPİLOQ

**Bir film proloqu təsəvvür edin:**

**Havva qaralıb. Köhnə Bakının hansısa dalanında yönü gitara şəkilli çərçivəyə salınmış pəncərəyə baxan daş var. Daşın üstündə "Rəmiş" romanından yeganə sağ qalan obraz - qoca şair oturub. Çiynində cins kostyum geyindirilmiş balaca meymun var. Şairin baxdığı pəncərədən qadın baxır, qadının əlində kitab var. Kitabın üstündə "Rəmiş" yazılıb, içində yağış yağır və o yağışın altında bir oğlan uşağı dayanmadan göylərin açıq qapılarına doğru qaçır...**



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# BİR GÖRÜŞDƏN FRAQMENTLƏR

## Sözə və sevgiyə münasibət...

**Həmin gün Bakıda hava qeyri-sabit idi. Əslində bu il Bakının havası demək olar ki, qeyri-sabit olub. Nə edəcəyimizi, nə geyinəcəyimizi də bəzən unutmuşuq, qarışıq salmışıq. Amma təkcə bizim üçün yox, yaşadığımız Yer kürəsi üçün cərəyan edən bu qeyri-sabitlik hardasa şükranlığımızı biraz artırıb. Daha doğrusu, əlimizi göyə açıb içimizdə "buna da şükür, yerin-göyün sahibi Özü nəyi necə etdiyini daha yaxşı bilir" deyib şükür etmişik. Bu yerdə adama deyərlər ki, guya başqa nə edə bilərdik ki?! Bir halda ki, mütəxəssislərin yağış sularına gücü çatmırsa, onu yalnız "normadan artıq" qiymətləndirməklə özlərinə təsəlli verirlərsə, ya da yaxalarını kənara çəkirlərsə burda yenə ümid qalır şükür etməyə. Və...**

Gəncəyə gedirəm. Özü də qatarla. Çoxdandı qatarla səfərə çıxmamışdım. Səhər saat 8-də Biləcəri stansiyasında qatarı gözləyirdim. Və yol təəssüratımın da elə ilk xoş cizgiləri burdan başladı. Mən perrona daxil oldum. Qeydiyyatçı xanım onlayn aldığım bileti telefonun ekranında gözdən keçirib sonra üzümə baxdı. Məlum oldu ki, bu xanım sosial şəbəkə istifadəçisidir. Ədəbiyyat həvəskarıdır. Mənim imzama da orada rast gəlib. Onunla eyni növbədə olan oğlana yaxınlaşıb nəsə pıçıldadı. Və sonra hər ikisi əyləşdiyim skamyaya yaxınlaşıb çox böyük sayqı ilə özlərini təqdim etdilər. Məlum oldu ki, bu gənclər mütaliəni də sevirlər. Və mən böyük məmnuniyyətlə yol çantamdakı kitablarımdan onlara avtoqrafla bağışladım. Bəlkə də inanmazsınız həmin an növbəni dəyişməyə gələn bir neçə dəmiryolçu bəy və xanım da məndən kitab istədi. İndiki məqamda yazar üçün heç bir təbliğatsız, heç bir təqdimatsız kitabını oxucuya təqdim etmək zənnimcə ən xoş anlardan biridir. Mən də bu xoş anların içərisində stansiyaya yaxınlaşan qatara mindim. Hardasa içimdə bir güvən, bir rahatlıq və bir də böyük sözə sevgi ilə qatarda yerimi tutdum. O yeri, sıra nömrələrini göz önünə gətirsək heç vaxt unutmayacağım rəqəmlər idi. Birinci qatarda ikinci A yer. Bilmirəm təsadüfdü, yoxsa günün, səfərin xoş anlarının sıra ardıcıllığı. Bütün hallarda mən indi xəyalla, xatirələrlə deyil, iştirakçısı olacağım görüşün öncəgörməsi ilə baş-başa idim. Ona görə də fikirlərin necə misralandığını da bir anlıq unutdum. Misralar isə yaddaşıma yazılırdı.

***Bakıdan Gəncəyə gedən qatarın***
***Birinci vaqonu - 2 A yeri...***
***Xəyalım yararaq sükut qatların***
***Mənə pıçıldayır yazdığım şeiri.***

***Söykənib dizinə duyğularımın***
***Gözümün önündə tutmuşam səni.***
***Gerçəyə çevrilən yuxularımın***
***Mükafatı kimi udmuşam səni.***

***Gedir takkatakla vaqonlar sanki***
***Dözümün yoxlayır dəmir qolların.***
***Bilsəm gözləyirsən sənin qapına***
***Çəkib uzadardım dəmir yolların.***



Bəli, yol boyu göstərilən xidmət, ümumiyyətlə, qatardakı şəraitin, mühitin özü adamda yorğunluğa, narahatçılığa imkan vermirdi. Bu gerçəkliyin içində mən bir daha əmin oldum ki, biz özümüz özümüzə diqqət yetirməyi bacarırıq. Sadəcə bəzən bunu bilərəkdən, ya da laqeydlikdən etmirik. Ona görə də özümüz də, ətrafımız da günahkara çevrilirik. Bunun səbəbini isə tapa bilmirəm. Nə isə...

Saat 11:45-də Gəncə Dəmiryol Vağzalında idim. Perronda məni Sərdar gözləyirdi. Azərbaycan Dövlət Universitetində tələbəliyimizi birlikdə keçirdiyimiz və bütün o illərin şirinli-acılı günlərini birlikdə yaşadığımız tələbə yoldaşım Sərdar. Elə buradaca əlavə edim ki, Sərdar Birinci Qarabağ müharibəsində könüllü olaraq silaha sarılmışdı. İndi də bədənində qəlpələr gəzdirir. O, bu torpağın qazi oğullarındandır. Hə, bir də onu əlavə edim ki, Sərdarın ömür-gün yoldaşı Şəhla xanım bizimlə birlikdə eyni fakültədə oxuyub. Uzun illərdir ki, yalnız internet vasitəsilə, arada da telefonla əlaqə saxladığım Sərdarı üzbəüz gördüm. İllərin dostluğa, diqqətə xələl gətirə bilmədiyi bir görüş gerçəkləşdi. Bir-birimizə sarıldıq, bir anlıq həmin o tələbəliyin ərki ilə nəfəs aldıq - tələbi nəfəsi...



Sərdarın təkidi ilə görüşdən öncə sakit bir guşədə oturub hal-əhval tutduq, çay içdik və bu görüşün məramını, məqsədini ona bildirdim. İndi sizə də açıqlayıram. May ayının 22-də Gəncə şəhərinin Mərkəzi Kitabxanasında AYB-nin Gəncə bölməsinin və bölmənin ən fəal təmsilçilərindən olan yazıçı-publisist Fazil Sənanın təşəbbüsü ilə Əbülfət Mədətoğlunun yerli ədəbi mühitin təmsilçiləri ilə görüşü keçirildi. Görüş bir qonaq kimi mənimçün son dərəcə təqdirəlayiq və hətta gözləmədiyim böyük diqqətlə hazırlanmışdı. Görüşün aparıcısı kitabxananın direktoru Aida Abdullayeva idi. O, ilk olaraq şəhidlərimizin ruhunu yad etmək üçün hər kəsi bir dəqiqəlik sükuta dəvət etdi. Sonra söz AYB-nin Gəncə bölməsinin sədri, yazıçı-dramaturq Xəzəngül Hüseynovaya verildi. Doğrusunu deyim ki, yaradıcılığına bələd olsam da özünü bu qədər yaxından ilk dəfə gördüyüm Xəzəngül xanımın yaddaşına, ədəbi mühitə olan münasibətinə heyran qaldım. Ömrün bu çağında Xəzəngül xanımın Azərbaycan ədəbiyyatına və onun ədəbiyyatda baş verənlərə yeni ədəbi cərəyanlara münasibəti o qədər səmimi və diqqətçəkən idi ki, mən onun mütaliəsinə heyran qaldım. Və barəmdə söylədiyi fikirlər, yaradıcılığıma verdiyi qiymət təvazökarlıqdan uzaq olsa da çox məmnunedici idi. Mən onun fikirlərinin qarşısında həqiqətən ədəbiyyatda nələrsə edə bildiyimə bir daha inandım və sevindim.



Görüşdə iştirak edən tanınmış söz adamı Aləmzər Əlizadə, tanınmış yazıçı-publisist-dramaturq Nüşabə Əsəd Məmmədli, Gəncə Dövlət Universitetinin müəllimi, tarix üzrə fəlsəfə doktoru Nurlanə Həmzəyeva, Gəncə-Daşkəsən Regional Gənclər və İdman İdarəsinin nümayəndəsi Maarif Quliyev, Gəncə şəhər MKS-nin direktoru vəzifəsini icra edən Tərifə Abbasova, qazi, yazar İmam Cəmilli, Milli Məclisin azportal xəbər saytının Gəncə bölməsinin direktoru Dəniz Əlizadə, Əməkdar müəllim İsgəndər Fərhadoğlu, yazıçı və şairlərdən Salman Qaralar, Zülfiyyə Yaqub, Səlbi Baxış, Fazil Sənan və digərləri öz çıxışlarında təkcə Əbülfət Mədətoğlu yaradıcılığından deyil, həm də "Ədalət" qəzetinin bölgə yazarlarına münasibətindın geniş bəhs etdilər. Onların hər biri ayrı-ayrılıqda "Ədalət"in ədəbiyyata, sözə, Azərbaycan dilinə böyük diqqətini xüsusi vurğuladılar. Görüşün aparıcısı Aida Abdullayeva özünün ətraflı çıxışında bugünkü görüşün önəminə bir daha toxunaraq qeyd etdi ki, Gəncə şəhər Mərkəzi Kitabxanasında keçirilən bu cür görüşlər həm oxucularla canlı ünsiyyət baxımından, həm də kitaba, kitabxanaya oxucu marağının artması istiqamətində görülən və təqdir edilən işlərdən biridir. Məhz bu görüşlər Azərbaycan ədəbiyyatının öz oxucusuna çatdırılması istiqamətində xüsusi əhəmiyyət kəsb edir. Təbii ki, bu həm də dünya ədəbiyyatına olan marağın artmasına təkan verir.



Görüşün iştirakçıları arasında olan gənclər öz sualları, bütövlükdə ədəbiyyat maraqları ilə mənimçün xoş bir təəssüratın nümunləri oldular. Onların sadə, amma içdən gələn istək və arzuları həqiqətən sevindirici idi. Burda tam səmimiyyətlə onu da qeyd edim ki, tədbirdə səsləndirilən şeirlər, eləcə də mənə ithaf olunmuş şeir nümunələri görüşün məzmununu daha da rövnəqləndirmişdi.

Üç saatdan artıq davam edən görüşdə çıxış edən qələm dostlarımla, oxucularımla yanaşı, tələbə dostum, qazi Sərdarın da söz deməsi məni biraz kövrəltdi. Onun xatırlatdığı tələbəliyimiz, eləcə də Qarabağ müharibəsinin birinci mərhələsindəki səngər günlərimiz ötənləri bir daha gözlərimin önündə canlandırdı. Bu görüş mənim üçün həm mükafat idi, həm hesabat idi, həm dəyər idi, həm də sevgi. Mən Gəncədə bölgə yazarlarının və bir də ordakı oxucuların böyük sevgisinin şahidi oldum. Təmənnasız sevginin. Özü də Gəncəyə dayanmadan yağan yağışın yaratdığı çətinliklərə baxmayaraq görüşə gələnlərin doğmalığını, ölçüsünü, qiymətini bu günə qədər müəyyənləşdirə bilməmişəm. Bu elə bir sayqı, sevgi idi ki, onun ölçüsünü, dəyərini ancaq o anın iştirakçısı olanlar, o məqamı yaşayanlar dəqiq qiymətləndirə bilər. Mən orda hər kəsdən gördüyüm sevginin qarşısında orada da, elə bu təəssüratımı bölüşəndə də baş əyirəm. Qədim, ulu Şeyx Nizaminin ruhu yaşayan Gəncədə məni şərəfləndirən hər kəsə minnətdarlığımı bildirirəm...

Görüş xoş xatirələrlə, xoş təəssüratla başa çatdı. Çəkilən şəkillər və bir də yaddaşıma yazdığım içdən gələn sözlərin aurasında Sərdarla birlikdə yenə Dəmiryol Vağzalına gedirəm. İndi Gəncədən Bakıya qayıdacam. Bu dəfə də rəqəmlərin sırası maraqlıdı. 5-ci vaqonda 4 A yer. Və mən öz yerimdə əyləşib görüşün xoş anlarını təkrar-təkrar dəyərləndirməyə çalışıram. Özüm də bilmədən pıçıldayıram:

***Günün yorğunluğun yadına salmır,***
***Biraz xəyal sayır, biraz da yuxu.***
***Qatar da məmnundu, daha fit çalmır,***
***Gerçəyin özüdür olanın çoxu!***

***Gəncədən Bakıya gedən qatarın***
***5-ci vaqonunun 4 A yerində.***
***Bir sərnişin xatirələrini***
***Aparır ürəyinin dərin yerində.***

Hava qaralsa da içimdəki işıq yarır o qaranlığı.

Və mən bu gün ərzində olanların hamısını sapa düzmək istəyirəm. Amma o qədər rəngarənglik var ki, itib batıram içərisində. Mənimlə üz-üzə əyləşmiş və artıq tanış olduğum gəncəli həkim kofe sifariş verir.

Hardansa dolur ürəyimə indi oxuyacağınız misralar:

***Düşünmüsənmi heç qatarda***
***kofe sifariş vermək***
***və tak-tak zümzüməsi ilə***
***yol getmək.***
***Bilirsən***
***nəyə bənzəyir?***
***Mənə görə***
***bu mənzərə***
***həsrətin yorduğu***
***və intihara köklənmiş***
***dalğaların***
***özünü***
***qayalara çırpacağı yerdə***
***sahilin dizinin dibində,***
***gözləri dənizdə,***
***özü fikirdə***
***ayağının ucu ulə***
***qum ələyən o qız***
***heçnə demədən***
***susqun bir halda***
***məni gözləyir.***

**Bu bir görüş idi. Lənkərandan, Sumqayıtdan sonrakı görüş. Hər birinin də özünə aid özəlliyi olsa da, hamısında mütləq hakim söz və oxucu sevgisi idi. Yaxşı ki, sözə və sevgiyə münasibət dəyişməz qalıb.**



Loğman Rəşidzadə

# İnsan arzusu və natamamlıq

## (Sadiq Zamanın "Kolumbun səhvi" əsəri barədə düşüncələr)

**İnsan göz açandan dünyanı dərk etmir. Dərk etməsə də hiss edir, ətrafını duyub fəhm edərək yaşayır və bu fəhmlə, bu intuasiya ilə həyata qaynayıb-qarışır, hissi-emosional yaşantılarıyla dünya ilə bağlar qurur. İnsan böyüdükcə, yaşam dilemmaları intellektual azadlıq qazandıqca dünyaya sevgisi də, baxışları da, fəlsəfi və ruhi yanaşması da dəyişir. İnsan yaşadığı bu aləmi, qoynunda mövcud olduğu bu dünyanı sevirmi? Sual şərtidir. İnsanı dünyaya sevgidən daha çox sahiblənmək hissi bağlayır. Sahiblənməkdə isə sevgi yaşanmır. Sahiblənmək hakimlik, hökmdarlıq duyğusudur, əldə etmək, yönəltmək və yönləndirmək hissidir. Məhəbbət və sevgi təmənnasız olur. İnsanla dünya arasındakı münasibətlər isə təmənnalıdır. İnsan dünyadan çox şey tələb edir, ala bilməyəndə fəlakət yaşanır, insanı hifz edən, qoynunda bəsləyən dünya ilə onun övladı arasında paradokslar məntiqi çabalara çevrilir. Beləliklə də, insan arzusu ilə reallıq arasında natamamlıq yaranır.**

Sadiq Zamanın "Kolumbun səhvi" hekayəsinin estetik mayasında da, dolayısıyla məhz, dünyanın dərki və insan sevigisinin dilemmaları haqqında düşüncələr dayanır. İnsan və dünya əlaqələri, doğmalıq və ögeylik, qarışıq duyğular və aydın düşüncələr Bütün bunlar S.Zamanın yarımfantastik, metofizik hekayəsinin fəlsəfəsi yükünü təşkil edir. İnsan arzusunun gizli qatları və düşüncə azadlıqlarının çağlayıb coşan qaynaqları Sadiqin fəlsəfi yanaşmasında, obrazlı və məntiqli təhkiyəsində dünya dönəminin sirli olayları, zaman və insan paralelləri, düşüncə və hisslərin təbii qatlarının təsir dairəsi barədə lirik-fəlsəfi fraqmentlərdir.

Əsərin süjeti şərti, romantik və duyğusaldır. Daha çox fəlsəfi düşüncələr təsiri oyadan süjetin ekspozisiyası yazıçı məqsədini insan düşüncəsinin qatlarını vərəqləyən ümumbəşəri konsepsiyanın çalarlarına aparıb çıxarır. Dünyanın yaranışı, insan oğlunun həyat amalı və yaşam missiyası həm bədii məramın, həm də fəlsəfi-estetik açılımın inkluziv təqdimidir. Dünya insanı yaradır, yoxsa insan dünyanı? Dünya insan üçün cavabdehdir, yoxsu insan dünyanın taleyini bölüşür? Bu dilemmalar bəşəri problem kimi mətnin məğzində dayanan bədii suallardan həyatı ehkamlara çevrilir. Bədii mətndə sualların cavabı tam aydın olmur. Suallar, heç də cavab üçün verilmir. Bu bədii sualların özündə məntiqi mahiyyət yaşayır. Nəticə və hökmlər şərti, vizual və intellektual terapiya səciyyəsində boy göstərir. Sualların özü tam cavablar kimi dəyərlidir. Cavablar, eləcə sualların bətnində gizlənir. Suallar verilən cavabların məntiqində dayanan substansiya kimi təzahür edir. Odur ki, məntiq, bəzən vizual şəkildə görünür, bəzən də mahiyyətin içində gizlənib sirri-xudaya çevrilir. Müəllif bu sualların cavablarını insan həyatındakı təbəddülatlarda, məntiqi dilemmalarda, ikiləşən və bəzən də çoxqütblü paralellər kimi üzə çıxan mahiyyətdə axtarır. Bu mahiyyət dolayısı və birbaşa insanın öz taleyi ilə bağlı olan dünyanın nizamında boy göstərir. İnsan atdığı hər addımda öz ehtiras və hərislikləri ilə dünyanı sınağa çəkir. Bu sınaqların nəticəsi son anda insanın özünə çevrilir, özünü görünməz paradokslarla üzüzə qoyur, fəsadlar girdabına salır. Nəticədə, insan əməli bumeranğa çevrilib özünə qayıdır. Düzdür, bəzən bu işdə insan özü işıq mənbəyi kimi kölgədə qalır, görünməz olur. Lakin son anda gizli nüanslarla insanın əməli onu öz çöküşünə gətirib çıxarır.

Əsərin estetik mahiyyəti onun ilk cümlələrindən görünür: "Yurdumuz kimi özümüz də belə nəhayətsiz və hüdudsuzuq: cismimiz yerdə olsa da, varlığımız kainatı doldurur Biz başqa xalqlardan fərqli olaraq, birbirimizlə az danışırıq (söz müqəddəsdir, axı, göylərdən endirilib). Sözü, əsasən, xeyir işlərdə, ən çox da, dua edəndə işlədirik. Çox vaxt isə özümüzə (meditasiya) qapılıb möhtəşəm ahəngi öz içimizdə hiss edirik, (bununla da) kainatın bir hissəsinə çevrilirik " Möhtəşəm ahəng insanın ətraf mühitlə, təbiətlə, başqa sözlə, dünya ilə həmahəngliyidir. Dünyanın xilası bu nöqtədədir, bu cismani və mənəvi birlikdədir. Bu, həmahənglik, bu möhtəşəm ahəng olmasa, dünya, eləcə, insanın öz əliylə məhvə məhkum edilmiş olar.

İnsan, dünyaya gəldiyi gündən qoynunda boy atdığı, böyüdüyü, nemətlərindən istifadə etdiyi ətraf aləmlə gizli mücadilədədir. Meşələri qırır, suları qurudur, kəndlər, şəhərlər salır, təbiətin təbiiliyini pozmaqdan yorulmur. Bununla da özünə gizli quyu qazır, özünə qarşı gizli silah hazırlayır. İnsan təbiəti, dolayısı ilə dünyanı istismar etdikcə, özünə gizli rəqib hazırlayır, günlərin bir günü əməllərinin acı meyvəsini, dadmaq məcburiyyəti ilə üz-üzə qalır. Lap sonralar, müdrik insanlar bunun acısını yaşamaq zorundan xilas üçün, hətta sonsuz həyəcan təbili çalmaq ehtiyacı duymuşdur. Fikir adamları, hətta, inkişafı, mədəniləşməni tam inkar etməyə qədər gedib çıxmışlar. N.Berdyayev "Mədəniyyət, təbiiliyin qandanlanması, azadlığın məhdudlaşdırılmasıdır", - deyirdi. İ.İ.Russo, mədəniyyəti, ümumiyyətlə, inkar edir, insanları geriyə, təbiətin qoynuna səsləyirdi. Mədəniləşmək - həyata müdaxilənin bir növü, təbii həyatın özgələşməsi anıdır. Bu, daha yumşaq və müdrik bir metaforadır. Lakin, bu da möhtəşəm ahəngin, insanla dünyanın harmoniyasının pozulmasıdır. Qaldı ki, dünyanı güc yolu ilə dəyişdirmək - qanlı müharibələr törətmək, bəşəriyyəti zorla, zülmlə üz-üzə qoyumaq, silah-sursat arsenalı formalaşdırmaq, çayların, göllərin yatağını dəyişmək, meşələri qırıb talan eləmək, təbiəti digər məqsədlər üçün istismara məruz qoymaq Bütün bunlar coğrafi dəyişikliklərdən daha çox, demoqrafik deqratasiya, mənəvi kataklizmdir. Bax, əsl fəlakət burdan başlayır. Sadiq Zamanın hekayəsi də bu ağrılı hipotezlərin gizli deqratasiyası, son anda gerçəkləşən sosial-siyasi fəlakətlərin anatasiyası barədə estetik təsəvvürlərin prozoik illüstrasiyadır. Bu gerçəklikdə insan arzusu və ehtirası, dünyaya sahiblənmək şövqü onu son anda cinayətlərə sövq edir. Əslində dünyanın xilası insanın daha uca və bakirə amallarında reallaşır. Dünyanın xilası dərin təxəyyüllər, idrak və haçansa sözün sayəsində həyata atılaraq özünü yalnız mənəviyyat sferasında tapan mahiyyətdə reallaşmalıdır. Mənəviyyat insanı həqiqəti, aydınlıqları müəyyənləşdirib dünyaya fərqli münasibətləri və davranışları müəyyən etməlidir. Dünyaya sahiblənmək hissindənsə, onu sevmək, qorumaq, ilkin bakirəliyini saxlamaq, məhz, bu müstəvidə qərarlaşır. S.Zamanın bədii mətni və sosial niyyəti də bu istiqamətə yönəlmişdir. Onun sirli qəhrəmanı (sonrakı təhkiyə prosesində kor qız olduğu üzə çıxacaq) dünyanın narahat taleyi üçün daim niğarançılıq keçirən sirli duyğu və düşüncələr girdabında yaşayan yarıminsan, yarımfantastik bir fövqəltəbii varlıqdır. Dünyanın ən gizli, sirri missiyası üçün seçilən bu qəhrəman, əslində müəllif ideyasının reallaşmasına xidmət edən sürreal şəxsdir. O, müəyyən mənada sir içində yarıminsan, yarımfantastik şəxs kimi təzahür etsə də, düşüncə və hisslər, aydın mülahizə və məntiqi ilə müəllifin özüdür. O, düşünür: "Amma indi vəziyyət başqalaşıb: dünyada müqəddəs dəyərlər, yaxşı nə varsa hər şey itib, mədəniyyət axtalanıb, insanlar azğınlaşıb " və dünyanı dəyişmək, nizamını yenidən tarazlayıb stabilləşdirmək lazımdır. Bunun üçün müqəddəs yuxunun içinə girib dünyanı nizamlamaq missiyasının ritminə düşmək tələb olunur. O, da bu missiya üçün seçilmiş yeganə adamdır.

Burda nizamı pozulmuş dünyanı sabitliyə qovuşdurmaq müqəddəs arzu kimi boy göstərir. Müəllif çabalarında, ehtiras və intellektual ölçülərində dünyanın öz ahəngin qovuşdurulması, insanlar arasında harmonik tamlığın bərpa edilməsinin forma və məntiqi üsullarının tapılması yolları araşdırılır.

Yazıçı niyyətinin məntiqi isə qapalı çərçivə xarakteri daşıyan bir düyün nöqtəsinin açılmasında təzahür edir. Bizim qəhrəmanın dalınca gələn dünyanın seçilmiş insanları ona müqəddəs yuxu barədə danışırlar: "Yuxuda dilənən hər bir arzu sonda həyata keçib Sonuncu dəfə həmin müqəddəs yuxunu Xristofor Kolumb görüb. Onun yuxuda dilədiyi arzu yerinə yetib O vaxtdan müqəddəs yuxu unudulub, əvvəlcə bir az yer üzündə sərgərdən dolaşıb, sonra sıx cəngəllikdə, Mayya qəbiləsinin sonuncu kahininin komasına sığınaraq qalıb "

Əsərin qəhrəmanını çətin sınaq gözləyir. Müqəddəs yuxunun içinə girmək, uzaq mağaraya yollanaraq bəşəriyyətin arzusuna uyğun işıqlı dünya qurmaq çabalarını oyatmaq missiyası bizim qəhrəmanın üzərinə düşür. O, qoca kahinlə görüşərək bu missiyanı yerinə yetirir. Söhbət əsnasında məlum olur ki, Kolumb qoca kahinin məsləhətlərinə baxmayaraq, üstünə qan çilənmiş torpaq parçasını seçib götürür. Eləcə, həmin vaxtdan da dünya insanın vəhşi ehtiraslarının girdabına düşüb qan içində çabalamağa başlayıb. Mətnin məntiqi də dünyanı indi bu qan-qadadan xilas etmək məqsədi daşıyır.

Hekayənin adından da göründüyü kimi ("Kolumbun səhvi") Kolumb toza bulaşmış qanlı torpağı, səhvən, yaxud çarəsizlikdən götürüb. Əslində Kolumb bu addımı öz arzusunun, istəyinin diqtəsilə edib. Toza, torpağa bulaşmış, qana, çirkaba, çamura batmış, son anda xaraba və viranəyə çevrilmiş torpaq, əslində, eləcə, insanın əbədi arzusu, istəyi, strateji hədəfidir.

Əslində, Kolumb insanın əzəli arzusuna meyllənmişdi. İnsana həmişə qan-qarğışla yoğrulmuş, ağlın gerçəkliyə hökm edə bilmədiyi bir dünya lazım olmuşdur. Torpağın daim qanla suvarılması çiliklənmiş, qəlpələnmiş ehtirasların təzahürüdür. Sayı-hesabı bilinməyən fərdlər özünün şüursuz iradə və istəklərini məhz bu nöqtədə gerçəkləşdirdiyini güman etmişdir. Sahiblənmək hissi heç vaxt insana normal yaşam imkanı verməmişdir. İnsan, daim insan kimi yox, bir layihə kimi, həyata keçirilən bir missiya kimi yaşamış, istifadə olunan buxovsuz zorakılığın bulanıq iradəsi kimi zorlanmışdır. Sahiblənmək, insanın yaşam tərzini dəyişmiş, status və güc sindromuna çevrilmişdir. Belədə, ən böyük fəlakətləri də dünya, insanlıq, bəşəriyyət yaşamışdır.

Əslində insan yaranan gündən dünyanın başı bəladadır. Kolumb qanlı torpaq parçasına meyl salmamışdan çox-çox öncələr, torpağa insan qanı qarışmışdı. İnsan qanını da həmçinci olan başqa bir insan tökmüşdü. Bunun ilkin iblisanə nümunəsini Habilin torpağı boyayan axan qanında görürük. Qabilin Habilin qanını axıtması nümunəsi bəşərin qanlı yaddaşını bu gün də aktual edir. Müasirləşmiş, mədəni, sivil dəyərlərlə yaşayan, guya mənəvən zəngin insan da bu gün bir-birinin qanını tökməkdən həzz almırmı? Elm, savad, intellektual inkişaf, heç də insanın ruhunda yaşayan rəzil, zəhərli ziyanları, vərdişləri, iblisanə duyğuları ram edə bilmir. Rəhm tanımadan insanlığa yuxarıdan aşağı baxan seçilmiş elitar təbəqə həmişə xalqla özü arasında uçurum səciyyəli yarğan yaratmağa, ayrı-seçkilik salmağa, son anda günahsız kütlənin qanını tökməyə həmişə hərisliklə hazır deyilmi? Bu quduz cəngavərliyin iyrənc qəddarlıqla fəqir məğlubların üstünə qışqırdırıldığı anda insan rəhm adlı və buna bənzər kəlmələr tapmaqda çətinlik çəkir, qəzəbini cilovlaya bilmir, saysız qurbanlara qarşı təəssüf hissindən başqa əlindən bir şey gəlmir. Dünyada mərhəmət və həqiqət qədər də tənha, yalqız və köməkçiz heç nə yoxdur. Bəs axıdılan qanlar kimin boynunda qalır? Dünyanı idarə edənlər axıdılan qan üçün həmişə bəhanə və son anda bəraət tapırlar.

**Mətnin sonu əsərin ruhuna uyğun olaraq fantastik və müstəqil bir versiya ilə bitir. Tam müəmmalı, sirli və mübhəm Kahin bizim qəhrəmana dünyanın xilas yolunu göstərir. Amma müəllif təfindən bu, sirli saxlanılır. Bu yozum hər bir oxucunun öz ixtiyarına buraxılır. Doğrudan da seçim imkanı hər kəsin özündədir. İnsanların sayı qədər dünyanın xilas versiyası mövcuddur. Dünyanın xilas yolları da insanlar qədər zəngin və çözümlüdür. Burda hər kəsin payı, rolu və missiyası qovuşur. Sadiq Zaman da dünyanın idarəçiliyində kütləvi təşəbbüsləri fərdi çabalardan daha üstün sayır. Əsərin pafosu belə əbədi dəyərlərə inam hissilə metafizik duyğular təlqin edir.**

### Yay ayları ilə bağlı ciddi xəbərdarlıq

**Astronomlar Günəş aktivliyinin 2030-cu ilə qədər minimum səviyyəyə çatacağını proqnozlaşdırırlar.**

Adalet.az xəbər verir ki, bunu Tsiolkovski Dövlət Müasir İncəsənət Muzeyinin Fizika və Astronomiya şöbəsinin elmi işçisi Aleksandr Alekseyev TASS-a açıqlamasında deyib. Onun sözlərinə görə, Günəş aktivliyinin azalması tədricən baş verəcək və bu dövrdə ayrı-ayrı alovlanmalar müşahidə oluna bilər: "Minimum aktivliyə 2030-cu ilə qədər çatılmalıdır. Aktivliyin azalması mərhələli şəkildə gedəcək və təcrid olunmuş partlayışlar mümkündür. Hazırda proqnozlar göstərir ki, 2026-cı ilin iyun ayının ortalarında Günəşin uzaq tərəfində yerləşən aktiv zonalar görünən hissəyə keçəcək və bu da alovlanma ehtimalını artıracaq". Mütəxəssis qeyd edib ki, Günəşin görünən tərəfində hazırda bir neçə aktiv günəş ləkəsi qrupu mövcuddur: "Onların mayın sonunadək bir neçə alovlanma yaratması ehtimal edilsə də, xüsusilə güclü hadisələrin baş verməsi gözlənilmir". Alekseyev həmçinin vurğulayıb ki, Yer səthinə çatan günəş radiasiyasının miqdarı ilin fəsillərindən asılı olaraq əhəmiyyətli dərəcədə dəyişir: "Bu fərq Yer səthinin Günəş şüalarına nisbətən meylliliyi və şüaların atmosferdən keçdiyi yolun uzunluğu ilə əlaqədardır. Yay aylarında Yerə daha çox günəş işığı çatır və atmosfer tərəfindən daha az zəifləditir".

### 800-dək şəxsə evlərində reabilitasiya xidmətləri göstərilib




**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi yaşayış yerini tərk etməkdə çətinlik çəkən, əlilliyi olan 800-dək şəxsi evlərində (səyyar) reabilitasiya xidmətləri ilə təmin edib.**

Bu barədə Adalet.az-a ƏƏSMN-dən məlumat verilib. Bildirilib ki, onlara 2 mindən çox reabilitasiya xidməti göstərilib.

"Qeyd edilən səyyar xidmətlərdən yararlanmaq istəyən əlilliyi olan şəxs (və ya onun qanuni nümayəndəsi) Nazirliyin "142" Çağrı mərkəzinə, eləcə də DOST mərkəzləri və ya ərazi üzrə Tibbi-Sosial Ekspert Komissiyasına müraciət edir. Müraciətə əsasən Agentliyin müvafiq reabilitasiya mərkəzinin həkim və psixoloqlarından ibarət səyyar briqadası əlilliyi şəxsin yaşadığı ünvana gedərək, onun ilkin müayinə və qiymətləndirməsini aparır. Bundan sonra əlilliyi olan şəxslə bağlı fərdi plan tərtib olunaraq bu plan əsasında ona müəyyən olunmuş müddət ərzində həkim və psixoloq müayinəsi, loqoped seansı, müalicəvi masaj, müalicəvi bədən tərbiyəsi, əmək terapiyası və s. üzrə reabilitasiya xidmətləri göstərilir",- məlumatda qeyd edilib.



**Aysel KƏRİM**
**Azərbaycan Bəstəkarlar İttifaqının mətbuat katibi**

# 79 illik ömrün musiqi xəritəsi: Dünyanı fəth edən azərbaycanlı

**Azərbaycan bəstəkarlıq məktəbinin yetirdiyi ən parlaq simalardan biri, qlobal musiqi məkanında milli mədəniyyətimizin modern vizyonunu diktə edən Xalq artisti Firəngiz Əlizadənin ömür yolu, mahiyyət etibarilə, sənətdə intibah xronikasıdır. Onun yaradıcılığı musiqi elmində milli ənənələrin qorunması və eyni zamanda qlobal sənət kontekstinə inteqrasiyası baxımından fundamental bir tədqiqat obyektidir.**

Firəngiz Əlizadə dühası sadəcə not vərəqlərinə köçürülmüş musiqi deyil, zamanın fövqündə dayanan, Azərbaycan ruhunu ağ kağızın üzərində bəşəri fəlsəfəyə çevirən bir tarixdir. Onun ömrünün 79-cu zirvəsinə boylanarkən, qarşımızda sadəcə dünyaşöhrətli bir bəstəkar deyil, muğamın genetik kodunu müasir musiqinin fəlsəfəsi ilə yoğuran, Şərqin qürurunu Qərbin böyük səhnələrində heyranlıqla ayaq üstə alqışladan bir Səs Memarı görürük. Bu səs bizim milli qürurumuzun, dünyaya açılan pəncərəmizin və sənətin ölümsüzlük fəryadıdır.



Firəngiz Əlizadə sənətinin konseptual əsasını dahi Üzeyir Hacıbəyli və Qara Qarayev ənənələrinin varisliyi təşkil edir. Bu varislik milli kodların tamamilə yeni, struktur baxımından mürəkkəb bir dildə yenidən şifrələnməsi üzərində qurulub. Onun yaradıcılıq kökləri doğma torpağın dərinliklərinə bağlı olan, budaqları isə dünya musiqi sənətinin zirvələrinə uzanan əzəmətli bir çinar kimidir. Bu sənət fəlsəfəsi, gələcək musiqiçi nəsilləri üçün tükənməz bir elmi-bədii mənbədir. Firəngiz xanım Azərbaycanın intellektual elitasının ön cəbhəsində dayanan bir professordur. Onun hər bir əsəri milli musiqi irsimizin dünya elmi və mədəniyyəti kontekstində necə fundamental çəkiyə malik olduğunun bir daha sübut edir.

Zamanın axınında elə sənətkarlar var ki, onlar sadəcə öz dövrlərinin deyil, gələcək əsrlərin də mədəniyyət xəritəsini çəkirlər. UNESCO-nun "Sülh Artisti" Firəngiz xanım Əlizadə məhz belə bir yaradıcılıq missiyasının daşıyıcısıdır. O, təkcə milli musiqimizin deyil, müasir dünya bəstəkarlıq məktəbinin canlı əfsanəsidir. Onun musiqisində Üzeyir bəy ənənələrinin genetik kodu, Qara Qarayev məktəbinin monumental fəlsəfəsi və müasir dünyanın səs axtarışları vəhdət təşkil edir. O, muğamın mistik ruhunu müasir notların dili ilə dünyaya elə bir ustadlıqla təqdim etdi ki, bu səs dalğası sərhədləri aşaraq bəşəriyyətin ortaq mənəvi sərvətinə çevrildi.

Əgər sənətin taleyi insanın alnına yazılan bir qismətdirsə, Firəngiz Əlizadənin qisməti Şərqin ruhunu dünyaya bəyan etmək missiyası idi.

Bu gün biz onun yaradıcılığının 79-cu akkordunu dinləyərkən, sənətin keçdiyi o çətin, lakin möhtəşəm yola şahidlik edirik. Onun həyat və yaradıcılığı Azərbaycan musiqi mədəniyyətinin əvəzolunmaz səhifəsidir. O, təkcə musiqi yazmadı; o, Şərq qadınının intellektual gücünü, sənətdəki sarsılmaz iradəsini dünyaya sübut edən bir kitabın ilk cümləsini yazdı...

Bir qadın sənətkar olaraq Firəngiz xanım dünya musiqi elitasında özünəməxsus zəriflik və dəyanət simvoludur. Şərəfli ömür yolu gənc bəstəkarlar və musiqişünaslar nəsli üçün əsl Universitetdir. Onun ustad dərsləri, rəhbərlik etdiyi layihələr və Azərbaycan bəstəkarlıq məktəbinin inkişafındakı misilsiz xidmətləri elmi və yaradıcı dairələrdə hər zaman ən yüksək qiymətə layiq görülüb.

Firəngiz Əlizadə fenomeni təkcə müasir Azərbaycan və dünya musiqi tarixinin zirvəsi deyil, həm də sənətdə böyük bir məktəbin, sarsılmaz bir estetik missiyanın təcəssümüdür. Onun yaradıcılığının fəlsəfi dərinliyi bəşəriyyətə və zamana xitab edərkən, bir rəhbər və sənətkar kimi fəaliyyəti gələcək nəsillərin mənəvi mayasını yoğurmaqdadır.

Azərbaycan musiqi mədəniyyətinin dünya miqyaslı fəxri Firəngiz Əlizadə məhz belə bir ömrün - 79 illik şərəfli, lakin bir o qədər də keşməkeşli taleyin sahibidir. Onun keçdiyi yol həm sənətdə, həm də öhdəsinə düşən hər bir məsuliyyətli işdə böyük sınaqlardan keçib. Lakin bu yolun ən heyranedici tərəfi odur ki, Firəngiz xanım ən sarsıdıcı dalğalarda belə öz daxili dünyasının bütövlüyünü qoruya bildi.

Həqiqi sənət heç vaxt hamar yollarla gəlmir. Lakin görkəmli bəstəkarın sənət fəlsəfəsi elə bir təmələ söykənirdi ki, heç bir maneə onun yaradıcılıq eşqini söndürə bilmədi.

Firəngiz Əlizadə sadəcə bəstəkar deyil, həm də əsl təşkilatçıdır. İdarəçilik və iş həyatı öz-özlüyündə dərin məsuliyyət və bəzən də amansız bir mübarizə meydanıdır. Bu qədər gərgin iş rejimində, müxtəlif xarakterli insanların və hadisələrin axınında öz humanist prinsiplərinə sadiq qalmaq dərin insanlara xas olan xüsusiyyətdir.

Firəngiz Əlizadə bu gün təkcə Azərbaycanın deyil, bəşəriyyətin musiqi xəzinəsini zənginləşdirən bir sənətkardır. Lakin onun ən böyük bəstəsi sənətdə və həyatda dik duraraq, öz mənəviyyatını qoruyaraq yaşadığı ömür yoludur.

Bəzən bir millətin əsrlərlə yığılıb qalan dərdini, sevincini və qürurunu dünyaya çatdırmaq üçün bir neçə dəqiqəlik bəstə bəs edir.

Firəngiz Əlizadə musiqisi məhz belə bir möcüzədir- ruhu titrədən, insanı öz içindəki kainatla üz-üzə qoyan bir fəlsəfə. Azərbaycan adını dünyanın ən mötəbər salonlarında dalğalandırarkən hər birimizə bir sənətkarın milləti üçün edə biləcəyi ən uca fədakarlığı yaşatdı.

Musiqi elminin çətin lakin müqəddəs yollarında addımlayan bir gənc kimi özümü Firəngiz Əlizadə məktəbinin tələbəsi hesab edirəm. Çünki onun mənə bəxş etdiyi bu hiss təkcə bir sədrin ali diqqəti və qayğısı deyil; bu, ruhu isidən, yaradıcı insanı addım-addım ucaldan şəfqət dolu istilikdir.

**Əziz və dəyərli Firəngiz xanım! Sizin varlığınız sənətin zamansızlığına olan inamımızdır. Sizi ömrünüzün bu gözəl, müdrik çağında - 79 yaşınız münasibətilə ürəkdən təbrik edirik. Sizə cansağlığı, tükənməz yaradıcılıq enerjisi arzulayırıq. Varlığınız, sənətiniz Azərbaycan musiqi mədəniyyətinin vizit kartıdır.**

# "Dolu" filmi və rejissor Elxan Cəfərov

**"Dolu" filminin rejissoru Elxan Cəfərov çəkiliş zamanı baş verən hadisələrdən danışır:**

"Filmdə tamaşaçıların gördüyü hərbi hissəni özümüz qurmuşduq. Yəni real hərbi hissə yox idi. Onu İsmayıllı rayonunda məktəbin həyətində təşkil etdik. Erməni kazarması isə rayondakı mal-qara saxlanılan yerdə lentə alınmışdı. Həmin hissədə özümüz kazarma düzəltmişdik. Çobanın qoyun otarması və qəfil ermənilərin hücumu baş verən epizod İsmayıllının Sumağalı kəndində lentə alınıb. Həmin səhnə kənd camaatının köməkliyilə çəkildi. Onlar evlərini, həyətlərini bizə açdılar. Bombaya düşən də elə Sumağalı kənd sakinləri idi. Həmin epizodda 1-2 personajı çıxmaq şərtilə demək olar ki, bütün kənd camaatı çəkilmişdi. Yaralıların yerləşdirildiyi hərbi hospital da İsmayıllıda könüllülərin bazasında lentə alındı. Həmçinin yanmış ev, erməni qızının çəkildiyi epizod da həmin kənd idi.

Filmdə "Pələng"in "Darkon"un qollarında ölüm səhnəsi çəkilərkən bütün çəkiliş heyəti göz yaşlarına qərq olur. Rza Rzayev rolu o qədər gözəl oynayır ki, onun hayqırtısı reallıqdan heç də seçilmir. Olduqca təsirli bir səhnə alınır. Epizod 2-3 dubla çəkilir. O da hər dəfə eyni məkana yox, bir dəfə Elvinin üstünə, bir dəfə Rzaya, sonda isə ümumi plana işləyir. Ümumiyyətlə, belə səhnələri bir neçə dubla çəkmək olmur.

Katib rolunu canlandıran Fuad Poladov böyük sənətkardır. Onun siması, şəxsiyyəti hər şeydir. Mənə ondan artıq heç nə lazım deyildi. Məhz bu filmdə Fuad Poladov özünü oynayırdı. Elə şeylər var ki, insanlar kənardan düşünür ki, aktyordur, min həyat yaşayır. Amma unutmaq lazım deyil ki, o obrazların hər birinin içində aktyorun özü var. Fuad Poladovun bəyənilən katib obrazı onun qabiliyyətindən irəli gələn bir şey idi. Katibin otağı isə "Azərbaycanfilm" kinostudiyasının direktorunun otağı idi.

Filmin mesajı odur ki, müharibə baş verən zaman insanları qınamayın. Çünki müharibə elə bir ekstremal hadisədir ki, sən onu insandan tələb edə bilməzsən. İnsan ya qəhrəman olur, ya da olmur. Bu gün dinc yaşayan insanın başına bomba yağır, o həmin yeri tərk edirsə, onu qınamaq olmaz. Qadın və uşaqları kənarda saxlamaq yaxşı haldır. Bunu qınamaq düzgün deyil. Bilirsən ki, bura hücum olacaq, bilə-bilə insanını niyə qırdırasan ki? Bu ən azı ağılsızlıq olar. Vətən ailə, vətən tarix, vətən qan yaddaşı deməkdir. Bütün bunlara arxanı söykəyib müharibə etməlisən.

Hər bir film qarşıda olan gözəllik kimi qəbul edilməlidir. Əlbəttə, filmin yaralı yeri, sona çatdırılmamış məqamları var. Bir rejissor kimi səhvlərimi görməyi bacarıram. "Dolu"nun gözəlliyi odur ki, burda insanların əl işi var. Hamımızın ürəyi var bu filmdə.




Hər kəs vətənpərvər hisslərə köklənmişdi və buna görə də nəticə ürəkaçan oldu. Hazırda tamaşaçıların filmə olan münasibəti də məni olduqca qane edir. Həmin vətənpərvərlik ekrandadır. Ekran insanların beyninə bilavasitə güclü təsir göstərdiyindən, böyük qüvvə hesab olunur. Bu gün Azərbaycan gəncinin beynində Azərbaycan qəhrəmanı dedikdə, "Dolu" filmindəki qəhrəmanlardan biri yada düşürsə, mən buna sevinir, bunu uğur sayıram. Qəhrəman da insandır. Onu qəhrəmanlığa gətirən yol nədir? Bizim məqsədimiz bunu tamaşaçıya açmaq idi.

Düşünürəm ki, istəyimizə nail olduq. "Dolu" filmində döyüşçülərin qarşısına 9 tank çıxır. Biz göstərmək istədik ki, düşmən tankla gəlirsə belə, ondan qorxmaq lazım deyil, təki, daxili həqiqətin olsun, vətən sevgisi olsun. Sevinirəm ki, bütün mesajları filmdə aşılaya bildik..."

# Yaz revmatizmi nədir?

**Yaz revmatizmi kimi tanınan revmatik qızdırma, adətən boğazda yaranan streptokok infeksiyasından sonra inkişaf edən iltihabi xəstəlikdir.**

Adalet.az xəbər verir ki, xəstəlik daha çox uşaqlarda və yeniyetmələrdə müşahidə olunsa da, böyüklərdə də rast gəlinə bilər. Müalicə edilməmiş və ya düzgün müalicə olunmamış boğaz infeksiyasından bir neçə həftə sonra meydana çıxır.

**Əlamətləri**

- Oynaqlarda ağrı və şişkinlik (xüsusilə diz, topuq, dirsək və biləklərdə)
- Qızdırma
- Yorğunluq və halsızlıq
- Ürəkdöyünmə və ya sinə ağrısı
- Dəridə səpgilər
- İstər-istəməz hərəkətlər (nadir hallarda)

**Diaqnozu**

Revmatik qızdırmanın diaqnozu həkim müayinəsi, qan analizləri, boğaz yaxması və ürəyin müayinəsi ilə qoyulur.

Müalicədə antibiotiklər, iltihabəleyhinə preparatlar və bəzi hallarda uzunmüddətli profilaktik müalicə tətbiq edilir.

Ev şəraitində görülən tədbirlər əsas müalicəni əvəz etmir, lakin simptomların yüngülləşməsinə kömək edə bilər:

1. Kifayət qədər istirahət etmək.
2. Bol maye qəbul etmək.
3. Oynaqlarda ağrı olduqda isti kompres tətbiq etmək.
4. Həkimin təyin etdiyi dərmanları vaxtında qəbul etmək.
5. Balanslı qidalanmaq, meyvə və tərəvəzləri artırmaq.
6. Ağır fiziki fəaliyyətlərdən müvəqqəti uzaq durmaq.

Həkimə müraciət edilməlidir

1. Yüksək qızdırma davam edirsə
- Nəfəs darlığı yaranırsa
- Sinə ağrısı və ya ürəkdöyünmə hiss edilirsə
- Oynaq ağrıları şiddətlidirsə
- Uşaqda son zamanlar boğaz infeksiyasından sonra yuxarıdakı əlamətlər meydana çıxıbsa

Revmatik qızdırma ürək qapaqlarına zərər verə bilən ciddi xəstəlikdir. Buna görə də yalnız ev üsullarına güvənmək olmaz; diaqnoz və müalicə üçün mütləq həkimə müraciət edilməlidir.

# Bel ağrılarından necə qurtulaq?

**İspaniyalı travmatoloq, İnes Sançes bildirib ki, bel ağrılarının qarşısını almağın əsas yolu müntəzəm fiziki aktivlikdir. Onun sözlərinə görə, düzgün oturuş və erqonomik mebellər təkbaşına onurğa problemlərindən qorunmağa zəmanət vermir.**

Adalet.az xəbər verir ki, o, bu barədə "Daily Mail" nəşrinə açıqlamasında danışıb.

Mütəxəssis qeyd edib ki, bir çox insan bel sağlamlığını qorumaq üçün düz oturmağın, ani hərəkətlərdən qaçmağın və ortopedik kreslolardan istifadə etməyin kifayət etdiyini düşünür. Lakin praktikada bu tədbirlər xroniki ağrıların qarşısını hər zaman ala bilmir. Həkimin sözlərinə görə, pasiyentləri arasında oturuş qaydalarına ciddi əməl edən, amma buna baxmayaraq davamlı bel narahatlığından əziyyət çəkən insanlar az deyil. O bildirib ki, əsas səbəb uzun müddət hərəkətsiz qalmaq və fiziki aktivliyin az olmasıdır.

**Travmatoloq izah edib ki, onurğa, fəqərəarası disklər, əzələlər və bağlar normal fəaliyyətini qorumaq üçün müntəzəm yüklənməyə ehtiyac duyur. Uzun müddət hərəkətsiz qalanda qan dövranı zəifləyir, oynaqların hərəkətliliyi azalır və onurğanı dəstəkləyən əzələ sistemi tədricən zəifləyir.**

# Bəşəri ideyalar yazıçısı



*Vəfa Xanoğlan*
*Sənətşünaslıq elmləri doktoru*

(əvəli ötən sayımızda)

**Milli kino sənətinin inkişafında yazıçının nəsr əsərlərinin və ssenarilərinin ekranlaşdırılmasının böyük əhəmiyyəti vardır. Onun ssenarilərində dolğun bədii süjet, gözəl təsvir vasitələri, maraqlı dialoqlar, təsvir edilən mühitin görümlülüyü ekran əsərinin təcəssümünə xüsusi bir çalar verir. Dövrün qlobal və mənəvi- əxlaqi problemlərini fəlsəfi dərinlik və mürəkkəbliyi ilə ekranda canlandırmaq Elçin ssenarilərinin əsas özülüdür. Onun povestləri sürətli süjet inkişafına, ideya sənətkarlıq məziyyətinə, estetik siqlətinə, fərdi üslub və poetikasına görədir ki, ekranlaşdırmaya daha tez uyğunlaşır. Bu filmləri Fikrət Əliyev ("Baladadaşın ilk məhəbbəti"), Arif Babayev ( "Arxadan vurulan zərbə"), Kamil Rüstəmbəyov ("Gözlə məni"), Oqtay Mirqasımov ("Gümüşü firqon"), Tofiq Tağızadə ("Bağ mövsümü"), Şahmar Ələkbərov ("Sahilsiz gecə"), Vaqif Mustafayev ("Milli bomba"), Ramiz Fətəliyev və Dilşat Fəthulin ("Hökmdarın taleyi") kimi görkəmli rejissorlar çəkiblər. Azərbaycan və Türkiyə kinematoqraflarının birgə layihəsi olan "Mahmud və Məryəm" filminin dünya ekranlarına çıxması milli kino mədəniyyətimizin ən böyük qələbəsidir.**

Xalq yazıçısı onlarla monoqrafiyanın, yüzlərlə elminəzəri və publisistik məqalənin müəllifidir. Elçin müəllim görkəmli ədəbiyyatşünasalim, professional tənqidçidir. Yazıçının on cildlik "Seçilmiş əsərləri"nin dörd cildi elmi əsərlərini əhatə edir. Onun elmi monoqrafiyaları sırasında "Tənqid və nəsr", "Tənqid və ədəbiyyatımızın problemləri", "Klassiklər və müasirlər", "Klassik aşıq poeziyasında, "Dünya" obrazı", "Ədəbiyyatımızda Vaysman xəstəliyi", "Sosializm realizmi bizə nə verdi?", "Ədəbi düşüncələr", "Aqoniya", yoxsa təkamül?" və s. bir sıra monoqrafik araşdırmaları xüsusi əhəmiyyət kəsb edir. Xalq şairi Bəxtiyar Vahabzadə qeyd edir ki, "Elçin nə dərəcədə oxucuların dərin rəğbətini qazanmış professional bir yazıçıdırsa, o dərəcədə də yüksək səriştəli professional tənqidçi və ədəbiyyatşünasdır."

Elçinin yaradıcılığında onun tərcüməçilik fəaliyyəti də xüsusi yer tutur. O, bir sıra dünya şöhrətli yazıçıların, o cümlədən C.B.Molyer, L.Pirandello, A.Kristi, F.S. Fitscerald, A.Morua, H.Laksnes, A.Əzimov və digər sənətkarların əsərlərini, eləcə də klassik yapon poeziyasından nümunələri Azərbaycan dilinə tərcümə etmişdir. L.Pirandellonun, Albert Maltsın, Kşiştof Xoinskinin pyesləri də Elçinin tərcüməsində tamaşaya qoyulub. Molyerin komediyalarını tərcümə edərək kitab şəklində nəşr etdtrib.

Elçinn müəllimin ictimai fəaliyyətində"Vətən" Cəmiyyətində göstərdiyi fədakarlıq daha önəmli yer tutur. "Vətən" Cəmiyyəti mühacir həyatı yaşayan yurddaşlarımızla Azərbaycan arasında ənənəvi körpü yaratdı. Fikrimcə, yazıçının bu sahədəki fəaliyyəti əhatəli və sistemli tədqiq edilməlidir.

Elçin müəllim nüfuzlu ictimai xadim kimi Amerikada, Rusiyada, Fransada, Türkiyədə, Almaniyada, Hollandiyada, Çində, Belçikada, İspaniyada, Yunanıstanda, Lüksemburqda, İsveçdə, İsveçrədə, Danimarkada, Ukraynada, Polşada, Özbəkistanda, Bolqarıstanda, İraqda, Avstriyada, İranda, Qazaxıstanda, Qanada, Səudiyyə Ərəbistanında, Ruminiyada, Macarıstanda, Gürcüstanda, Tunisdə, Pakistanda və digər ölkələrdə müxtəlif elmi- ədəbi, siyasi konfranslarda, simpoziumlarda, qurultaylarda, rəsmi dövlət danışıqlarında və görüşlərdə ölkəmizi layiqincə təmsil edib. Və bu tədbirlərdə xalqımızın taleyüklü məsələlərini, o cümlədən torpaqlarımızın erməni faşistləri tərəfindən işğal edilməsini dünya ictimaiyyətinə çatdırıb.

Yazıçının yaradıcılığında Qarabağa və Şuşaya həsr etdiyi əsərləri də xüsusi yer tutur. 44 günlük Vətən müharibəsində qazandığımız şanlı qələbə onun da qəlbini riqqətə gətirir. Yazıçı bu münasibətlə yazır: "Bunu da etiraf etmək istəyirəm ki, mən Şuşanın azad olunacağını görəcəyimə inanmırdım, bu mənim içimdə bir yara idi, çünki bu otuz illik erməni işğalının təcrübəsi göstərdi ki, dünyanın ikili siyasi standartlar idarə edir və İlham Əliyev həm Prezident, həm də Ali Baş Komandan kimi məhz bu ikili standartlar dünyasında ortaya son dərəcə ciddi və son dərəcə də cəsarətli iradə qoydu."

Elçin müəllim bir yazıçı və zəngin təcrübəli dövlət xadimi kimi Azərbaycanın müstəqilliyinin qazanılması yolunda həm qələmi, həm də ictimai fəaliyyəti ilə yorulmadan mübarizə aparıb. O, fenomenal şəxsiyyəti, milli ziyalılıq ənənələrini özündə təcəssüm etdirən dünya şöhrətli böyük sənətkardır. Ədəbiyyata yüksək meyarlarla yanaşan sənətkarın fikrincə "bəşərilik bədiiliyin əsas meyarlarından biridir, amma milli olmadan bəşəri olmaq mümkün deyil." Elçin müəllim bütöv şəxsiyyəti, çoxşaxəli yaradıcılığı və mənəvi- əxlaqi keyfiyyəti ilə gənclərə canlı örnəkdir. Bəşəri meyarlarla düşünən sənətkarın özü də bəşəri yazıçıdır. Elçin müəllim bu gün də gənclik şövqü ilə ilhamla yazıb yaradır. Onun belə bir fikri var: "Yazıçı məlum məsələdir ki, özünü ifadə edir. Əgər söhbət istedadlı yazıçıdan gedirsə, o, özü ilə bərabər, xalqını ifadə edir. Böyük yazıçılar bəşəri ifadə edir." Bu mənada hörmətli Elçin müəllimin özü də bəşəri yazıçıdır. Bəşəri ideyalar yazıçısının Azərbaycan və dünya ədəbiyyatını zənginləşdirən bədii irsi bütün dünya ölkələrində özünə əbədiyaşarlıq qazandırıb.



Ötən ilin avqust ayının 3-də Azərbaycan ədəbiyyatına, Əfəndiyevlər ailəsinə, dostlarına və Elçin sevərlərə ağır itki üz verdi. Onun vəfatı xəbəri tək bir ailənin, şəcərənin deyil, həm də xalqın kədəri oldu. Avqustun 4-də qardaşım Şəfa ilə Dövlət Gənlər Teatrında onunla vida mərasiminə getdik. Minlərlə insan görkəmli sənətkarımızı Birinci Fəxri Xiyabanda son mənzilə yola saldılar. O kədərli gündə Elçin müəllimi ilk dəfə gördüyüm günü xatırladım:

1965 -ci ilin may ayında atam böyük qardaşım Şəfaya yaddaqalan gözəl bir toy etdi. Həmin toyda atamın yaxın qohumu, görkəmli xalq yazıçımız İlyas Əfəndiyev və ailə üzvləri də yaxından iştirak edirdi.Bu barədə unudulmaz sənətkarımız İlyas Əfəndiyev "Orfey quyudan çıxandan sonra nə gördü..." xatirə məqaləsində yazır: "... Neçə il bundan qabaq bizi Füzulinin Kürdmahmudlu obasına - yaxın qohumumuz Şəfanın toyuna dəvət etmişdilər (Şəfa Əliyev indi Bakının tanınmış cərrahlarındandır). Biz də yığışıb getmişdik. Oğlanın atası - mənim anamın əmisi oğlu Xanoğlan müəllimin bağçasında böyük mağar qurulmuşdu. Oba adətinə görə, toyun musiqi dəstəsi hörmətli qonaqların qabağına çıxıb, onları musiqi ilə qarşılayır. Bizi də elə qarşıladılar." O zaman 12 yaşım var idi. "Açıq pəncərə", "Sos", "Gümüşü, narıncı" kitablarını hələ kənddə ikən oxumuşdum.

Ən çox tamaşalarını isə elmi işlərimi yazan zamanlarda olub. Dəyərli məsləhətlərini verib. Əsərlərinin müzakirəsində, tamaşalarının premyerasında iştirak etmişəm. Sonuncu - "Baş" romanı əsasında hazırlanmış tamaşanın premyerasında iştirak etmək ona nəsib olmadı. Hər dəfə görüşlərimizdə uşaqları və qardaşım Şəfanı soruşardı.Altı-yeddi yaşlarımızda uşaqları və qardaşım Şəfanı görüşdürdü. Telefon danışığımız zamanı mənə dedi ki, "Nə vaxta qədər yazılarını Əliyev soyadı ilə yazacaqsan. Yazılarını rəhmətlik atanın adı ilə çap etdir". Yubileylərimdə təbrik teleqramları göndərirdi. Səhhəti ilə bağlı bir neçə dəfə zəng edib vəziyyətini soruşmuşdum. Atam mənə və məndən kiçik qardaşlarıma deyərdi ki, ataya hörmət və ehtiramı Elçin müəllimdən, Timuçin müəllimdən öyrənim. Nümunəvi, fəxr edilsi övladlardır.

Elçinin bədii əsərləri təkcə Azərbaycanda deyil, həm də dünya ölkələrində sevilə-sevilə oxunur, əllərdə gəzərək neçə-neçə oxucu, nəsil arasında mənəvi körpü yaradır. Elçinin yaradıcılığına həm ölkəmizdə, həm də xaricdə yüzlərlə məqalələr, rəylər və onlarla iri həcmli tədqiqat əsərləri həsr olunub, çoxşaxəli yaradıcılığına ədəbi-ictimai maraq bir an belə səngiməyib. Əsərləri Azərbaycanın sərhədlərini aşaraq dünyanın söz sərraflarını danışırdırıb və beləliklə, nasir, dramaturq, ssenarist, tənqidçi, ədəbiyyatşünas, tərcüməçi, publisist Elçin sayca o qədər də çox olmayan sənətkarlarla bir sırada xarici ölkələrdə Azərbaycan ədəbiyyatını ləyaqətlə təmsil edən şöhrətli sənətkar zirvəsinə yüksəlib. 16 yaşından ədəbi fəaliyyətə başlayan, əsərləri ilə dünyanı dolaşan böyük sənətkarın əsərləri ingilis, rus, fransız, alman, ispan, türk, macar, bolqar, ərəb, rumın, fars, çex, polyak, xorvat, gürcü, moldav, türkmən, özbək, qazax, tacik, serb, ukrayna, çin, slovak, litva v.s. dillərə tərcümə edilərək onu dünya meridianlarında tanıdır.

Azərbaycan teatrının ölkəmizin hüdudlarından kənarda - xarici ölkə teatrlarında tanınmasında Elçinin dramaturgiyasının xüsusi yeri vardır.

Elçinin yaradıcılığının xalq sevgisi qazanmasının əsas səbəbi bu əsərlərdəki təbiilik və səmimiyyətdir. Onun bədii əsərlərinin qəhrəmanları da olduqca təbiidir, mənəvi-əxlaqi keyfiyyətləri, hiss və duyğuları, fikir və arzuları, istək və niyyətləri, ehtiras və emosiyaları ilə...

Ömrünün altmış beş ilini ədəbiyyatımızın, mədəniyyətimizin və elmimizin inkişafına həsr etmiş dünya şöhrətli yazıçının milli azadlığımız və müstəqilliyimiz uğrunda miqyaslı fəaliyyəti, obyektivliyi, təəssübkeşliyi, ictimai xadimliyi və müdrikliyi ona böyük nüfuz və xalq məhəbbəti qazandırıb. Onun əsərləri milli sərvətimizdir.

O, bütün ömrü boyu tükənməz enerji ilə, ilhamla yazıb yaratdı. Özündən sonra gələn nəsillərə əbədi bədii irs qoyub getdi. Özü demiş: "Taleyin mənə ayırdığı vaxt müddətində bu dünyanın adi qonağıyam. Əsl sənətkarın ömrü əbədiyaşar ömürdür."

Elçin Azərbaycan xalqının qəlbində əbədi heykəli ucaltdı.

**Ruhu şad olsun.**

## *Antalya 2026-cı ildə beynəlxalq tədbirlərin mərkəzinə çevriləcək*

**Möhtəşəm təbiəti, günəşli sahilləri, Mavi Bayraq sertifikatlı çimərlikləri, qədim tarixi abidələri və zəngin mədəni irsi ilə Antalya tarix, təbiət və müasir komfortu bir araya gətirən nadir şəhərlərdən biridir. Aralıq dənizi mətbəxinin seçilən nümunələri və yüksək səviyyəli xidmət təqdim edən dəbdəbəli kurortları ilə şəhər Türkiyə Rivyerasının ən cəlbedici istiqamətlərindən biri, eyni zamanda Türkiyənin turizm sektorunun aparıcı simalarından hesab olunur.**

Lakin Antalya yalnız istirahət turizmi ilə seçilmir. Şəhər 300-dən çox beşulduzlu hotel və 175 mindən artıq oturacaq tutumuna malik tədbir məkanlarını əhatə edən güclü konqres infrastrukturu ilə işgüzar turizm sahəsində də ön sıralarda yer alır. Daha əvvəl G20 Zirvə Toplantısı kimi nüfuzlu beynəlxalq tədbirlərə uğurla ev sahibliyi edən Antalya etibarlı qlobal görüş və tədbir mərkəzi kimi mövqeyini möhkəmləndirib.

Bu potensialın nəticəsi olaraq Antalya 2026-cı ildə də beynəlxalq tədbirlər təqvimində xüsusi yer tutacaq. Şəhərdə il ərzində qlobal konfranslar, mədəniyyət və incəsənət festivalları, eləcə də iri idman yarışları təşkil olunacaq.

2026-cı ilin ən mühüm tədbirləri sırasında 31 may-3 iyun tarixlərində keçiriləcək və Türkiyənin ilk beynəlxalq idman turizmi sərgisi olan Sports & Events Türkiye, 5-9 oktyabr tarixlərində baş tutacaq 77-ci Beynəlxalq Astronavtika Konqresi (IAC) və 9-20 noyabr tarixlərində təşkil ediləcək BMT-nin İqlim Dəyişikliyi Konfransı (COP31) yer alır.

Bununla yanaşı, Antalya dünyanın ən nüfuzlu mədəniyyət tədbirlərindən biri hesab olunan Aspendos Opera və Balet Festivalına, eləcə də Runtalya Marafonu və Turkish Airlines Open qolf turniri kimi beynəlxalq idman yarışlarına da ev sahibliyi edəcək.



Beləliklə, Antalya 2026-cı ildə həm turizm, həm biznes, həm də mədəniyyət və idman sahələrində qlobal diqqəti üzərinə çəkən aparıcı beynəlxalq tədbir məkanlarından biri olacaq.

Antalyanın zəngin tədbirlər təqvimi çərçivəsində şəhər uzun illərdir fəaliyyət göstərən beynəlxalq platformalara da ev sahibliyi etməyə davam edir. Onlardan biri olan Antalya Moda Həftəsi (Antalya Fashion Week - AFW) 2026-cı ildə doqquzuncu dəfə təşkil olunacaq. İyunun 2-4-də keçiriləcək tədbir Antalyanın mədəni irsini, multikultural ruhunu və unikal coğrafiyasını beynəlxalq moda səhnəsinə daşımağı hədəfləyir.

Antalyanın mədəni kimliyini ön plana çıxaran IX Antalya Moda Həftəsi moda anlayışına mövsümlərdən kənar yeni baxış təqdim edən innovativ proqramlarla diqqət çəkəcək. Tarixi məkanlarda keçiriləcək xüsusi podium nümayişləri, yaradıcı əməkdaşlıqlar və müxtəlif seminarlar vasitəsilə şəhərin özünəməxsus ruhu müasir moda dili ilə yenidən şərh olunacaq.

Tədbirdə Türkiyənin tanınmış modelyerləri ilə yanaşı, başda Rusiya, Birləşmiş Ərəb Əmirlikləri və Qazaxıstan olmaqla müxtəlif ölkələrdən dizaynerlər iştirak edəcəklər. Bu isə Antalya Moda Həftəsinin beynəlxalq miqyasda artan nüfuzunu və qlobal moda sənayesində güclənən mövqeyini bir daha nümayiş etdirəcək. Doqquzuncu dəfə keçiriləcək Antalya Moda Həftəsi şəhərin təkcə turizm və tədbirlər mərkəzi deyil, həm də regionun yüksələn moda platformalarından biri olduğunu təsdiqləyəcək.

İldə təxminən 300 gün günəşli hava, büllur təmiz Aralıq dənizi sahilləri və zəngin turizm imkanları ilə Antalya uzun illərdir Türkiyənin ən populyar yay istirahəti istiqamətlərindən biri kimi tanınır. Əlavəi istirahət üçün əlverişli hotellər, Mavi Bayraq sertifikatlı çimərliklər və geniş əyləncə imkanları şəhərin cəlbediciliyini daha da artırır. Lakin Antalya yalnız yay turizmi ilə məhdudlaşmır. Mülayim iqlimi, zəngin tarixi irsi, təbiət gözəllikləri və qastronomiya imkanları sayəsində şəhər ilin bütün dövrlərində müxtəlif maraqlara sahib turistlər üçün ideal səyahət məkanı hesab olunur. Üç qədim sivilizasiya bölgəsinin qovşağında yerləşən Antalya tarix və mədəniyyət həvəskarları üçün də əsl kəşf məkanıdır. Şəhərin tarixi mərkəzi olan Kaleiçinin dar küçələri və qədim memarlıq nümunələri turistləri keçmişə səyahətə aparır. Bundan əlavə, Aspendos, Patara, Side və Faselis kimi dünya şöhrətli arxeoloji abidələr bölgənin minilliklərə söykənən tarixini yaxından tanımaq imkanı yaradır.

Aktiv istirahət sevənlər üçün də Antalya geniş seçimlər təqdim edir. Əfsanəvi Likya Yolunda yürüş etmək, Tavr dağlarının mənzərəli marşrutları boyunca velosiped sürmək və ya bölgənin gizli koylarını kəşf etmək üçün mavi səyahət turlarına qatılmaq mümkündür.

Yay mövsümünün əksər hallarda oktyabr ayına qədər davam etdiyi Antalya qolf, dalğıclıq və macəra turizmi sahəsində də seçilir. Turistlər Belekin məşhur qolf meydançalarında vaxt keçirə, Kaşda dalğıclıq edə, Karain və Damlataş mağaralarını ziyarət edə və ya Köprülü Kanyonunda rafting həyəcanı yaşaya bilərlər. Səyahətin ayrılmaz hissəsi olan yerli mətbəx isə Antalyadakı təcrübəni daha da zənginləşdirir. Təzə dəniz məhsulları, zeytun yağı ilə hazırlanan Aralıq dənizi təamları və bölgəyə məxsus şərablar qonaqlara şəhərin dadlarını kəşf etmək imkanı yaradır. Tarixi, təbiəti, dənizi, macəra imkanları və zəngin mətbəxi ilə Antalya ilin istənilən dövründə ziyarətçilərinə unudulmaz təcrübələr vəd edən nadir turizm istiqamətlərindən biri olaraq diqqət çəkir.

Nicat KOLAN



# “Sözə sədaqətli bir ömür”

**Ədəbiyyat insan ruhunun aynasıdır. Zaman dəyişsə də, sözün gücü dəyişmir. Şeir bəzən bir ömrün danışa bilmədiyini deyir, roman isə bütöv bir dövrün yaddaşına çevrilir. Ədəbiyyat yalnız yazı deyil - o, hisslərin, düşüncələrin və insan talelərinin səssiz tarixidir.**

**Böyük ədiblər zamanın içindən keçib getsələr də, onların sözləri yaşayır. Çünki həqiqi ədəbiyyat ölmür. O, hər oxucunun qəlbində yenidən doğulur, yeni mənalar qazanır. İnsanlıq var olduqca sözə ehtiyac olacaq, söz yaşadıqca isə ədəbiyyat yaşayacaq.**

**İnsan ömrü bəzən bir kitab kimidir - illər keçdikcə səhifələri saralsa da, dəyəri daha da artır. Elə insanlar var ki, onların adı təkcə gördüyü işlərlə deyil, yaratdığı ab-hava, bölüşdüyü söz, yaşatdığı dostluqla yadda qalır. Professor Qurban Bayramov da məhz belə ziyalılardandır.**

**Sözdən anlayan insanlar həyatı da dolu yaşayırlar. Qurban müəllim də söhbəti, dostluğu, məclisi və insanları qiymətləndirməyi bacaran kişilərdən biridir. O, təkcə elm adamı deyil, həm də həyatın dadını bilən, yeyib-içən, zarafatcıl və səmimi insandır.**



**Qurban Fərman oğlu Bayramov 1946-cı il mayın 30-da Qarabağda - Ağdam rayonunun Əlimədədli kəndində anadan olur. Orta təhsilini elə doğulduğu kənddə aldıqdan sonra indki Nəsrəddin Tusi adına ADPU-nun filologiya fakültəsinə daxil olur və fərqlənmə ilə oranı bitirir. Pedaqoji fəaliyyətinə orta məktəbdə müəllim kimi başlayır, daha sonra tədris işləri üzrə direktor müavini vəzifələrində çalışır. 1972-ci ildən Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisidir. Eyni zamanda Azərbaycan Yazıçılar Birliyinin üzvü, Respublika Qarabağ Ağsaqqallar Şurasının üzvü , Azərbaycan Ziyalılar Hərəkatı Ali Şurasının üzvü, filologiya üzrə fəlsəfə doktoru , professordur.**

**Onun keçdiyi ömür yolu təkcə elmi fəaliyyətlə ölçülmür. Bu yolun içində tələbələrə verilən işıq, televiziyadan insanlara çatdırılan ədəbiyyat sevgisi, dost məclislərində bölüşülən səmimi söhbətlər, zarafatla qarışıq hikmətli fikirlər yaşayır. Uzun illər boyu Səməd Vurğun irsinin araşdırıcısı kimi gördüyü işlər Azərbaycan ədəbiyyatşünaslığında xüsusi yer tutur. Vaxtilə Azərbaycan Televiziyasında (AzTV)**

**”Ədəbiyyat və zaman” verilişində onun səsi və düşüncələri bir çox insanların yaddaşına çevrilmişdir. Çünki o, ədəbiyyatdan danışanda sadəcə alim kimi yox, sözü sevən bir insan kimi danışırdı. Qurban müəllim böyük bir nəslin nümayəndəsidir. Onun ədəbiyyata bağlılığı təsadüfdən yaranmayıb. Bu sevginin kökü ailədən, ocaqdan gəlir. Qurban müəllimin atası - Fərman müəllim də ədəbiyyat müəllimi olmuş, sözə və kitaba böyük dəyər vermiş insanlardan biri idi. Görünür illər öncə bir müəllim ocağında yanan o işıq sonradan oğul ömründə daha da böyüyərək davam edib.**

**Professor Qurban Bayramov mənim üçün təkcə alim və ədəbiyyatşünas deyil, həm də yol göstərən insanlardan biridir. Mənimdə ədəbiyyata marağım var. Hərdən özümçün cızmaqara yazılar yazardım. Bir dəfə mənə dediyi bir fikir yaddaşıma həmişəlik həkk olunub: ”Sənin yaxşı qələmin var, hərdən yaz”. O sözlər mənə sadə bir məsləhət kimi yox, ədəbiyyata baxış kimi təsir etdi. Bəlkə də Qurban müəllim sözdə fikir ağırlığını, düşüncə dərinliyini daha çox görürdü. Çünki o, ömrünü ədəbiyyata vermiş, sözün məsuliyyətini yaşamış insanlardandır. Onun bu fikri mənim üçün bir istiqamətə çevrildi. Qurban müəllimlə aramızda həmişə səmimi münasibət olub. Onunla söhbət edəndə insan özünü sıxılmış hiss etmir, əksinə, elə bil illərin tanışı ilə danışır. Sadəliyi, təvazökarlığı və səmimiyyəti insanı ona daha da yaxınlaşdırır. Böyük alim olsa da, heç vaxt qarşısındakı insanla arasında məsafə yaratmır.**

**O, Azərbaycan ədəbiyyatında təkcə tədqiqatçı deyil, həm də obyektiv və prinsipial tənqidçi kimi tanınır. Onun ədəbi tənqidləri emosiyadan çox faktlara, elmi yanaşmaya və dərin təhlilə əsaslanır. Qurban Bayramovun tənqidçi mövqeyi ədəbiyyata yanaşmada ədaləti və balansı qoruması ilə seçilir. O, ədəbi əsərlərə yalnız təriflə deyil, həm də inkişaf etdirən, yön verən elmi baxışla qiymət verir. Onun əsas məqsədi qüsur axtarmaq deyil, ədəbiyyatın inkişafına xidmət etməkdir.**

**Bu gün elmə, təhsilə və insanlığa dəyərli töhfələr vermiş hörmətli professor Qurban Bayramovun 80 yaşı tamam olur. Uzun illər ərzində ədəbiyyatımıza göstərdiyi zəhmət, elm üçün gördüyü işlər və qazandığı nüfuz onun adını hörmətlə anılan ziyalılardan birinə çevirib. O, yalnız peşəkar alim deyil, həm də yüksək mənəviyyatı, sadəliyi və insanlara münasibəti ilə seçilən dəyərli şəxsiyyətdir. 80 illik ömür yolu böyük təcrübə, zəhmət və uğurlarla dolu bir həyatın göstəricisidir. Qurban müəllimə möhkəm can sağlığı, uzun ömür və yeni uğurlar arzulayıram. Qoy onun həyat yolu gələcək nəsillər üçün daim nümunə olsun.**

**”80 illik yubileyin mübarək” - böyük Ədib!**

Əlövsət Qaraca ƏLİYEV

# QARABAĞDA İNSTİTUTUN YARADILMASI ELMİMİZDƏ YENİ MƏRHƏLƏDİR



**Azərbaycan Respublikasında postmünaqişə dövrünün əsas strateji iqtisadi prioritetlərindən biri Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının kompleks şəkildə bərpası, dayanıqlı inkişafının təmin olunması, innovativ iqtisadi inkişaf modelinin formalaşdırılması və yüksək texnologiyalar əsasında yeni inkişaf platformasının qurulmasıdır. Bu baxımdan ”Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyindəki elmi müəssisələrin fəaliyyətinin optimallaşdırılması və səmərəliliyinin artırılması ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 4 aprel tarixli 545 nömrəli Sərəncamına uyğun olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14 may 2026-cı il tarixli 143 nö mrəli qərarı ilə Qarabağ Regional Elmi Tədqiqatlar və İnnovasiyalar İnstitutunun yaradılması mühüm tarixi, elmi və strateji hadisə kimi qiymətləndirilməlidir. Bu institutun yaradılması yalnız yeni bir müasir elmi müəssisənin təşkili deyil, həm də Azərbaycanın milli innovasiya sisteminin regional əsasda yenidən qurulmasının, elmi potensialın ərazi inkişafı ilə inteqrasiyasının, eləcə də Qarabağın ”ağıllı”, rəqəmsal və texnoloji inkişaf modelinə keçidinin mühüm tərkib hissəsidir.**

### *Yeni geoiqtisadi reallıqlar və elmi inkişaf çağırışları*

Müasir dünyada dövlətlərin iqtisadi qüdrəti artıq yalnız təbii sərvətlərlə deyil, daha çox elmi biliklər, innovasiya potensialı, rəqəmsal texnologiyalar, süni intellekt sistemləri, yüksək ixtisaslı insan kapitalı və texnoloji suverenlik imkanları ilə müəyyən edilir. Xüsusilə IV Sənaye inqilabı, rəqəmsal transformasiya, yaşıl enerjiyə keçid və yeni nəsil texnologiyalar dövründə regional elmi mərkəzlərin formalaşdırılması strateji zərurətə çevrilmişdir. Qarabağ bölgəsi isə artıq təkcə bərpa olunan ərazi deyil, həm də yeni texnoloji-iqtisadi modelin tətbiq olunduğu eksperimental inkişaf məkanı kimi çıxış edir. Burada ”ağıllı şəhər”, ”ağıllı kənd”, yaşıl enerji zonası, rəqəmsal idarəetmə, pilotsuz texnologiyalar, innovativ kənd təsərrüfatı, rəqəmsal logistika və yüksək texnoloji infrastruktur layihələri həyata keçirilməkdədir.

Belə şəraitdə regionun elmi əsaslarla öyrənilməsi, innovasiya yönümlü tədqiqatların aparılması və praktiki texnoloji həllərin hazırlanması üçün xüsusi institutun yaradılması tamamilə qanunauyğun və strateji əhəmiyyətli qərardır.

### *İnstitutun yaradılmasının əsas mümkün məqsədləri*

Qarabağ Regional Elmi Tədqiqatlar və İnnovasiyalar İnstitutunun yaradılmasının əsas məqsədlərindən biri də  Qarabağ və ətraf regionların sosial-iqtisadi, elmi-texnoloji, ekoloji və innovativ inkişaf problemlərinin sistemli şəkildə tədqiqi nəticəsində, orada müasir elmi yanaşmaların tətbiqi və innovativ həllərin hazırlanması ola bilər. Bu institutun əsas fəaliyyət istiqamətlərinə aşağıdakıları da aid etmək olar:

- Qarabağın innovativ inkişaf modelinin hazırlanması;
- regionun iqtisadi potensialının elmi əsaslarla qiymətləndirilməsi;
- yaşıl iqtisadiyyat və yaşıl enerji texnologiyalarının tədqiqi;
- rəqəmsal transformasiya və süni intellekt həllərinin tətbiqi;
- aqrar innovasiya sistemlərinin yaradılması;
- ekoloji monitorinq və biomüxtəlifliyin qorunması;
- su resurslarının ağıllı idarə olunması;
- texnopark, startap və innovasiya ekosisteminin inkişafı;
- regional sənaye və logistika sistemlərinin optimallaşdırılması;
- rəqəmsal təhlükəsizlik və texnoloji suverenlik problemlərinin araşdırılması;
- yüksək texnologiyalar əsasında yeni istehsal modellərinin formalaşdırılması.

Bu istiqamətlərin olması göstərə bilər ki, institut klassik elmi müəssisədən daha çox multidissiplinar innovasiya və texnologiya mərkəzi funksiyasını da yerinə yetirə bilər.

### *İnstitutun mümkün strukturu və fəaliyyət mexanizmləri*

Müasir beynəlxalq təcrübə göstərir ki, yeni nəsil elmi institutlar yalnız nəzəri tədqiqatlarla məhdudlaşmır, həm də innovasiya istehsalı, texnologiya transferi, eksperimental layihələr və startap ekosistemləri ilə sıx inteqrasiya olunur. Bu baxımdan Qarabağ Regional Elmi Tədqiqatlar və İnnovasiyalar İnstitutunun strukturunda müvafiq mərkəzlərin və laboratoriyaların yaradılması məqsədəuyğun ola bilər:

1. Rəqəmsal iqtisadiyyat və süni intellekt mərkəzi. Burada: böyük verilənlər (Big Data), süni intellekt, maşın öyrənməsi, rəqəmsal idarəetmə, ağıllı şəhər sistemləri, kibertəhlükəsizlik texnologiyaları araşdırıla bilər.

2. Yaşıl enerji və ekoloji innovasiyalar mərkəzi. Bu bölmə: günəş və külək enerjisi, enerji səmərəliliyi, karbon emissiyalarının azaldılması, yaşıl texnologiyalar üzrə fəaliyyət göstərə bilər.

3. Aqrar texnologiyalar və biomühəndislik laboratoriyası. Burada: ağıllı kənd təsərrüfatı, dron texnologiyaları, sensor sistemləri, suvarmanın avtomatlaşdırılması, rəqəmsal aqrar platformaların hazırlanması mümkündür.

4. Regional inkişaf və geoiqtisadi tədqiqatlar şöbəsi. Bu şöbə: regional iqtisadi modelləşdirmə, investisiya strategiyaları, innovasiya iqtisadiyyatı, logistika və nəqliyyat sistemləri üzrə tədqiqatlar apara bilər.

5. Texnologiya transferi və startap mərkəzi. Bu mərkəz: innovativ ideyaların kommersiyalaşdırılması, startapların dəstəklənməsi, texnoparklarla əməkdaşlıq, vençur investisiya mexanizmlərinin inkişafı istiqamətində fəaliyyət göstərə bilər.

### *Qarabağın ”elm və innovasiya regionu”na çevrilməsi üzrə mümkün perspektivlər*

Qarabağ Regional Elmi Tədqiqatlar və İnnovasiyalar İnstitutu gələcəkdə Qarabağın yalnız iqtisadi deyil, həm də elmi-texnoloji inkişaf mərkəzinə çevrilməsində mühüm rol oynaya bilər. Bu institut:

- regionda yüksək ixtisaslı elmi kadrların formalaşmasına;
- gənclərin elmə və innovasiyaya cəlb edilməsinə;
- universitet-sənaye əməkdaşlığının inkişafına;
- beynəlxalq elmi layihələrin həyata keçirilməsinə;
- xarici investisiyaların cəlbinə;
- innovativ sahibkarlığın inkişafına;
- elmi nəticələrin real iqtisadi sektora tətbiqinə şərait yarada bilər.

Perspektivdə isə Qarabağ bölgəsində: texnoparkların, innovasiya vadilərinin, rəqəmsal texnologiya zonalarının, süni intellekt mərkəzlərinin, yaşıl enerji klasterlərinin  yaradılması mümkündür. Bunlar isə regionun yalnız Azərbaycanın deyil, bütövlükdə Cənubi Qafqazın innovasiya platformasına çevrilməsinə gətirib çıxara bilər.

### *Milli təhlükəsizlik və texnoloji suverenlik baxımından əhəmiyyəti*

Müasir dövrdə elm və texnologiya milli təhlükəsizlik amilinə çevrilmişdir. Texnoloji asılılıq dövlətlərin iqtisadi və siyasi dayanıqlığını zəiflədən əsas faktorlar sırasındadır. Bu baxımdan Qarabağ Regional Elmi Tədqiqatlar və İnnovasiyalar İnstitutunun fəaliyyəti Azərbaycanın texnoloji suverenliyinin gücləndirilməsinə də xidmət edə bilər. Xüsusilə:

- yerli texnologiyaların hazırlanması,
- milli proqram təminatlarının yaradılması,
- rəqəmsal təhlükəsizlik sistemlərinin inkişafı,
- yüksək texnoloji məhsulların istehsalı,
- innovasiya əsaslı sənaye sahələrinin formalaşdırılması  və s.

ölkənin strateji maraqları baxımından mühüm əhəmiyyət daşıya bilər.

### *Beynəlxalq əməkdaşlıq imkanları*

İnstitutun fəaliyyətində beynəlxalq elmi əməkdaşlıq xüsusi yer tuta bilər. Dünyanın qabaqcıl universitetləri, elmi mərkəzləri və innovasiya platformaları ilə əməkdaşlıq: 1) qabaqcıl texnologiyaların transferinə, 2) birgə tədqiqat layihələrinin həyata keçirilməsinə, 3) beynəlxalq qrantların cəlb edilməsinə, 4) alim və tədqiqatçıların mübadiləsinə və elmi əlaqələrin inkişafına şərait yarada bilər. Bu istiqamətdə xüsusilə: Türk Dövlətləri Təşkilatı ölkələri, Avropa İttifaqının elmi proqramları, BMT strukturları, İslam Əməkdaşlıq Təşkilatı,

Beynəlxalq innovasiya fondları və s. ilə əməkdaşlıq çox perspektivli ola bilər.

Ümumiyyətcə Qarabağ Regional Elmi Tədqiqatlar və İnnovasiyalar İnstitutunun yaradılması Azərbaycanın elmi, texnoloji və innovativ inkişaf strategiyasında yeni regional inkişaf mərhələsinin davamı kimi də qiymətləndirilə bilər. Bu institut Qarabağın gələcək elmi inkişaf modelinin formalaşdırılmasında strateji intellektual elmi platforma ola bilər. Ümidvarıq ki, yeni institut elmlə iqtisadiyyatın inteqrasiyasını gücləndirəcək, regionda innovativ inkişafı sürətləndirəcək, rəqabət qabiliyyətini artıracaq və yüksək texnologiyalar əsasında dayanıqlı inkişaf modelinin formalaşmasına xidmət edəcəkdir. Bütün bunlar bir daha göstərir ki, Ölkə Prezidenti, Cənab İlham Əliyevin daimi qayğısı və iradəsiylə dogma QARABAĞIMIZ yaxın gələcəkdə yalnız bərpa olunan region deyil, həm də elm, innovasiya, rəqəmsal texnologiyalar və yüksək intellektual inkişaf mərkəzi kimi yeni tarixi missiya qazanacaqdır.

**UĞURLU OLSUN!**



**Vaqif YUSİFLİ**
**Filologiya elmləri doktoru**

# "Talış dağlarının şəhid balası"

**Camal Ağayev (Lələzoə) Masallı rayonunun Qızılavar kəndində yaşayır. ADU-nun filologiya fakultəsini bitirəndən sonra 40 il öz kəndində orta məktəbdə dil-ədəbiyyat müəllimi işləyib. Rayonun ədəbi-mədəni həyatında fəal iştirakı ilə seçilir. Şairdir, 14 kitabın müəllifidir. Camal həm də tədqiqatçı-ədəbiyyatşünasdı "Talış ədəbiyyatı tarixi" (üç cilddə) kitabı Cənub bölgəsində yaşayan talışların bir əsrlik ədəbi həyatını əks etdirir.**

Mən Camalı sizə bir şair kimi tanıtmaq istəyirəm. (Onun mərkəzi mətbuatda çox nadir hallarda şeirləri dərc edilib). Rayonda yaşayan, qayğıları başından aşan bir şair təbii ki, çox mətləblərdən söz aça bilər. Amma şair şairdir, o, rayonda yaşasa belə müasir poeziyamıza öz səsini qata bilər. (Musa Yaqubu, Şəkər Aslanı, Ramiz Qusarçaylını, Sahib İbrahimlini, Arif Fərzəlini xatırlayın). Öncə söhbətə onun "Talış dağlarının şəhid balası" poemasından başlamaq istəyirəm. Lirik səpkili bu poema Masallı rayonunun Qızılavar kəndinin Qarabağ şəhidi Elşən Heybətova həsr edilib.

***O, dağlar qoynunda gəldi dünyaya,***
***Dərs aldı dağların daş vüqarından.***
***Oldu ilk kitabı çöllər, düzənlər,***
***Sevdiyi müəllim təpələr oldu.***
***Quşlar, dağ-dərədə şövqlə süzənlər,***
***Fikrində hamıdan bəxtəvər oldu.***

Elşən orta məktəbdə həmişə birinci olub, ədəbiyyata və musiqi dərslərinə xüsusi həvəsi vardı.

***Doldu dahilərin eşqiylə Elşən,***
***Məktəbdə o,Vətən dərsini aldı.***

Camal şəhid qəhrəmanın vətənpərvərlik ruhunu, elə-obaya bağlılığını xüsusilə nəzərə çarpdırır. Çünki qəhrəmanlıq ilk növbədə Vətəni sevməkdən başlayır. O, cəbhəyə-döyüşə yollananda Vətən sevgisi onun bütün varlığına hopmuşdu. Nə düşünürdü o?

***Vətən əldən gedir, el əldən gedir,***
***Düşmən dağ çəkibdir ürəyimizə.***
***Namus tapdalanıb, adımız itir,***
***Bir xəncər saplanıb kürəyimizə.***

Gəncləri düşmənə qarşı hansı məram, hansı qüvvə səsləyirdi? Camalın qəhrəmanı böyük Vətən haqqında nə düşünür? Əlbəttə, gənc bir əsgərin varlığına hopmuş Vətən sevgisinin məna və mahiyyətin Azərbaycançılıq ideyası özündə əks etdirir.

***"Azərbaycançılıq atəşə dönüb" -***
***Mənim qibləgahım - yurdum,Vətənim,***
***Mənim səcdəgahım - bu dağlar, daşlar.***

Camal Elşının döyüş meydanında hünər və rəşadətini də qələmə alır. Çünki hər döyüşçü vuruş meydanında özünü tanıtmalıdır - təbii ki, nəsr əsərlərindən fərqli olaraq poemada döyüşçünün keçdiyi yolu, onun göstərdiyi hünəri olduğu kimi nəql etmək çətindir. Amma Camal poemada şeir dililə buna nail ola bilir:

***Töküldü meydanda yağınm qanı,***
***Tarixə bir zəfər yazdı Elşəngil.***
***Gözündə Qələbə gününün danı,***
***Haylara bir məzar qazdı Elşəngil...***

Camal təqdim etdiyi şəhid qəhrəmanın ata və anasından da söz açır. Elşənin atası Ələbbas kişi bir gün oğlunun döyüşdüyü hissəyə gəlir. Təsəvvür edin: ata və oğlu məhəbbəti döyüş bölgəsində necə həyacan doğurur. Bu səhnə poemanın ən təsirli səhnəsidir. Oğlu nə deyir?



***Ata, ölsəm əgər bu torpaq üstdə,***
***Qəhr etmə yerində duran oğlun var.***
***Elşən şəhid olsa bir bayraq üstdə,***
***Elşadın, Elmanın şamın yandırar.***

Camal Ata və Oğlun ürəklərinə - psixoloji aləmlərinə üz tutur.

***Necə ayrılsınlar? Qurudu ayaq,***
***Qucaqda daşlaşıb dondular onlar.***
***Ata-oğul ətri saçdı dil-dodaq,***
***Ötüşdü bir əsrə bərabər anlar...***

Dahi Məhəmməd Füzuli "Hədiqətüssüəda" əsərində şəhidliyi qəhrəmanlıqla bir tutmuşdu:

***Zillət ilə ləzzəti olmaz həyatın, dustlar,***
***Nəqdi-can sərf eyləyib dünyada kam almaq gərək.***
***Əcz ilə dönmək ədudən səhldir, himmət dutub,***
***Ya şəhid olmaq gərək, ya intiqam almaq gərək.***

Azərbaycan xalqı da öz tarixi boyu neçə şəhidliklə üz-üzə gəlib. Xalq şairimiz Bəxtiyar Vahabzadənin "Şəhidlər" poemasını xatırlayın. O poemada şəhidlik qəhrəmanlıqla vəhdətdə təsvir olunur. Camalın poemasında da bu vəhdət öz əksini tapır. Onun qəhrəmanı Elşən şəhid olur. Son anda Elşənin öz anası Süreyyanı xatırlaması necə də təsirlidir:

***Ana, ölümümə yas tut, ancaq bil,***
***Öldüm ki, analar yasa batmasın.***
***Ölüm gəncliyimi qocaldan deyil,***
***Yatıram, dirilər məntək yatmasın.***

Camal poemanın "Burda yatan oğul şəhiddir, şəhid" bölməsində Elşənin doğulduğu kəndə qayıdır, bu kəndin özünün də vətənpərvər oğullar yetirən bir kənd kimi təqdim edir. Və yeri gəlmişkən qeyd edim ki, Camal Ağayev - bu poemanın müəllifi Elşənin ədəbiyyat müəllimi olub. Təbii ki, o, ədəbiyyat dərslərində Vətənpərvərlik ruhunu Elşənə də aşılayıb. Camalın "Talış dağlarının şəhid balası" kitabında onun son illərdə müxtəlif mövzuda yazdığı şeirləri də təqdim edilib. "Satirik qələmlə", "Narahat düşüncələr", "İthaflar", "Sevgi-məhəbbət" bölmələrində onun bir şair kimi duyğu və düşüncələri əks olunur. Məni ən çox "Narahat düşüncələr"dəki şeirlər özünə çəkdi. Artıq yaşı yetmişi ötmüş bir şairin - o bölgədə tanınmış bir ziyalının şeirlə ifadə olunan təəssüratları daha çox maraqlı göründü. O, həyatda, zəmanədən, dünyanın gedişlərindən narazıdır, amma eyni zamanda, yaşadığı həyatdan zövq almağı bacarır, gözəlliklərə biganə deyil, təbiəti sevir. Mən Camalın "Karona" şeirinin üzərində ayrıca dayanmaq istəyirəm. Bu şeirdə doğrudan da onun narahat düşüncələri öz poetik əksini tapıb. Karona doğrudan da, insanları sınağa çəkən, kimin kim olduğunu əyan edən bir bəlaya çevrildi:

***Cərimələr evin yıxdı kasıbın,***
***Duz-çörəyi əldən çıxdı kasıbın,***
***SMS-lər canin sıxdı kasıbın,***
***Maskalara maska saldı karona,***
***Saf havaya həsrət qaldıq, karona.***

Amma bu bölmədə "Qalib gələcəkmi cahanda kamal?" şeirini daha uğurlu hesab edirəm. Camalın şeirlər kitabında əlliyə yaxın ithaf şeirləri var. Əlbəttə, bunların içərisində şeir adını özündə əks etdirən nümunələr də var, sadəcə dostluq və tanışlıq şərəfinə yazılanlar da. Anaya və analara həsr olunmuş ithaflar uğurludur. Təkcə ithaf xarakteri daşımır.

***Nə qədər mən şadam, bir Allah bilir!***
***Varmış əbədiyyət, mən indi bildim.***
***Üstümə adından şəfəq tökülür,***
***Ana, hər qübarı qəlbimdən sildim...***

Camalın sevgi şeirləri barədə ilkin bunu deyə bilərəm ki, onun içindən keçən təbii hisslərdir bu şeirlər. Yaşanılan duyğulardır ki, 74 yaşında közərir, yox, təkcə közərmir, həm də şölələndirir.

O şeirlərin bir çoxu qəzəl forması ilə təqdim edilor və Camalın əruzu bildiyi də diqqəti çəkir.

***Bir ömürlük ayrılıq dağ basdı bu sinəmə,***
***Ancaq keçməyib, inan, bir ilim, günüm sənsiz!***

***Torpaq alar qoynuna bəslər buğda dənəsin,***
***Torpaq üstə qar, yağış döyən bir dənəm sənsiz!***

***Fəsillər dəyişəndə göyərər, solar bağlar,***
***İllər boyu xəzanda qalmış çəmənəm sənsiz!***

Camal Ağayevin "Talış dağlarının şəhid balası" şeirlər kitabı haqqında qısaca da olsa, ürək sözlərimi söylədim. Ona yalnız uğurlar diləyirəm. Bir bölgədə belə istedadlı şairlərin varlığı məni sevindirir...

Mən özüm də o bölgədə ikl ədəbiyyat sevinclərini yaşamışam...

# 40 ildən sonra dünya əhalisi yarıbayarı azala bilər

**Yer kürəsinin əhalisi ciddi ekoloji böhran baş verəcəyi təqdirdə 2064-cü ilə qədər iki dəfə azala bilər.**

Adalet.az xəbər verir ki, bu barədə müvafiq tədqiqatın müəlliflərindən biri Alessio Cakkone (Alessio Zaccone) Phys.org portalında dərc olunan məqaləsində bildirib.

Alim vurğulayıb ki, bu ssenari qəti proqnoz deyil, sadəcə mümkün variantları göstərən riyazi modeldir. Tədqiqatçılar hesablamalar aparmaq üçün son 12 min ildə bəşəriyyətin artım dinamikasını əks etdirən xüsusi tənlikdən istifadə ediblər.

Onların sözlərinə görə, hazırkı təbii tendensiya öz-özlüyündə "dünyanın sonu"na gətirib çıxarmır.

Lakin qlobal iqlim fəlakəti, irimiqyaslı pandemiyalar, dağıdıcı müharibələr və ya resurs çatışmazlığı qeydə alınarsa, vəziyyət kökündən dəyişə bilər.

Hazırlanan modelə əsasən, belə bir neqativ ssenaridə planetimiz yalnız təxminən iki milyard insanı qidalandırmaq və yaşatmaq gücündə olacaq.

**Mütəxəssis xatırladıb ki, alimlər daha əvvəl də Yer əhalisinin mövcud istehlak səviyyəsinin davamlılıq həddini çoxdan aşdığı barədə xəbərdarlıq ediblər. Ekoloqların fikrincə, təbii ehtiyatların tamamilə tükənməməsi üçün planetdə ideal olaraq təxminən 2.5 milyard insan yaşamalıdır. Hazırda isə dünya əhalisinin ümumi sayı artıq 8 milyard nəfəri ötüb.**

## *Bakcell "YAŞAT" Fondunun "Hədiyyə Karvanı" layihəsinə dəstək olub*




**Bakcell 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə şəhid övladlarını sevindirib. "YAŞAT" Fondunun təşəbbüsü ilə reallaşdırılan ölkəmiqyaslı "Hədiyyə Karvanı" layihəsi çərçivəsində şirkət Azərbaycanın ərazi bütövlüyü uğrunda həyatını fəda etmiş qəhrəmanların övladlarına müxtəlif hədiyyələr təqdim edib.**

Ölkənin bütün bölgələrini əhatə edən layihə çərçivəsində 14 yaşadək 1600-dən çox uşağa bayram sevinci yaşadılıb. Təşəbbüs Bakcell-in dayanıqlılıq və korporativ sosial məsuliyyət istiqamətində həyata keçirdiyi fəaliyyətlərin mühüm hissəsidir.

NEQSOL Holding-in tərkibinə daxil olan Bakcell, "YAŞAT" Fondu ilə birgə şəhidlərin ailə üzvlərinə və müharibə əlillərinə sosial dəstək layihələrini davamlı olaraq həyata keçirir. Bu əməkdaşlıq NEQSOL Holding və "YAŞAT" Fondu arasında əməkdaşlıq çərçivəsində həyata keçirilir.

Bakcell cəmiyyətin rifahına və gələcək nəsillərin inkişafına töhfə verən sosial layihələrə dəstəyini davam etdirir.

**Bakcell haqqında**

Bakcell Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir. Hazırda şirkət üç milyondan çox müştərini yüksəkkeyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir. Ölkə iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biri olan Bakcell süni intellekt əsaslı innovativ həllərlə Azərbaycanın dayanıqlı inkişafına töhfə verir.

Bakcell müxtəlif ölkələrdə telekommunikasiya, enerji, yüksək texnologiyalar, tikinti və mədənçıxarma sahələrində fəaliyyət göstərən NEQSOL Holding beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.

## *Tütün hər il 7 milyondan çox can alır*



**Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) təşəbbüsü ilə 1988-ci ildən etibarən hər il mayın 31-i Ümumdünya Tütünsüz Günü kimi qeyd edilir.**

Bu günün qeyd olunması diqqəti tütündən istifadənin sağlamlıq üçün yaratdığı təhlükələrə yönəldir və dövlətləri tütün istehlakının miqyasının azaldılması üzrə effektiv siyasət aparmağa çağırır.

Adalet.az xəbər verir ki, ÜST bu il Ümumdünya Tütünsüz Gününü gənclərin bu zərərli vərdişdən qorunmasına həsr edib.

ÜST xəbərdarlıq edir ki, tütün və nikotin şirkətləri öz məhsullarını xüsusilə yeniyetmələr və gənclər üçün daha cəlbedici, istifadəsi daha asan və tərgitməsi daha çətin olacaq şəkildə qəsdən layihələndirirlər.

Bildirilib ki, tütün istifadəsi hər il 7 milyondan çox insanın ölümünə səbəb olur. Bu, dünyada qarşısı alına bilən ölüm səbəblərindən biri olub ürək-damar xəstəlikləri, tənəffüs xəstəlikləri və 20-dən çox xərçəng növü ilə əlaqəlidir.

ÜST dünyanın 1 milyarddan çox tütün, elektron siqaret və nikotin qəlyanaltısı istifadəçisini ilk addımı atmağa və 31 mayda asılılıqdan azad olmağa çağırır.

Dünya üzrə 13-15 yaş arasında azı 40 milyon uşaq tütün məmulatından istifadə edir və gənclər arasında elektron siqaret və nikotin qəlyanaltılarının (nikotin pouçları) istifadəsi artmaqda davam edir.

Tütün epidemiyası ilə mübarizə sahəsində dünya ölkələrində olduğu kimi Azərbaycanda da səylər göstərilir. 2005 ci ildə Azərbaycan Respublikasının ÜST nin "Tütünə qarşı mübarizə haqqında" Çərçivə Konvensiyasına qoşulması, tütünlə mübarizə üzrə qanunvericilik bazasının daim gücləndirilməsi və təkmilləşdirilməsi istiqamətində aparılan zəruri addımlar ölkədə tütünə qarşı mübarizə sahəsində və insanların tütün tüstüsünün törətdiyi təhlükələrə qarşı cavab tədbirləri bariz nümunələridir.

Qeyd edək ki, 2017-ci il dekabrın 1-də Azərbaycanda "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Qanun qəbul edilib. Bu sənədin icrası üzrə həyata keçirilən ardıcıl tədbirlər əhalinin sağlamlığının qorunması sahəsində çox mühüm addımdır.




# BAYAT

№ 85 (945)




# Tanrıdan gələn səsdi: Qıymayın uşaqlara!




İBRAHİM YUSİFOĞLU


## QIYMAQIN UŞAQLARA

Ay-Günəş istəyirlər,
Nur ələnsin cahana.
Şeh, yağış diləyirlər,
Təbiət gəlsin cana.
İstəyirlər gül, çiçək
Ətri çöksün hər yana.
Raketləri, topları
Tuşlamayın onlara.
Tanrıdan gələn səsdi:
- Qıymayın uşaqlara!

Uşaqları gül üstə
Kəpənəklər gözləyir.
Səkilərdə gəzişən
Göyərçinlər səsləyir.
Bülbüllər, qaranquşlar
Şux nəğmələr bəsləyir.
Bu rəngarəng dünyanı,
Boyamayın siz qara.
Ey faşist-terrorçular,
- Qıymayın uşaqlara!

Arzuları tumurcuq,
İstəkləri qönçədi.
Yaşamaq həvəsləri
Hər istəkdən öncədi.
Baxışları ovsunlu,
Gülüşləri incədi.

Dünyanın sinəsinə
Vurmayın ağır yara.
Ey faşist-terrorçular,
- Qıymayın uşaqlara!

Əl boyda uşaqların
Ömrünü söndürdünüz.
Gecə şirin yuxuda,
Yataqda öldürdünüz.
Neçə məsum körpəni
Ölümə güldürdünüz.
Bu vəhşi əməllərdən
Dünya gəlibdi zara.
Daha yetər, son qoyun,
Son qoyun terrorlara.

Bu, Tanrının səsidi:
- Qıymayın uşaqlara!

## CIR TUT

Budağa yapışıbdı,
Nə suyu var, nə dadı.
Xoşlamırlar uşaqlar,
Cır tutdur onun adı.

## AĞ TUT

Yaxına gəl, çəkinmə,
Ağ tutdan ye birini.
Çox xoşuna gələcək,
Bal kimi şipşirindi.

## XAR TUT

Köməyə çat, babacan,
Barmaqlarım oldu qan.
Dəcəllik etməmişəm,
Dərib yedim xar tutdan!

## BULUD

Buluda bax, buluda,
Baxır tağır sayağı.
Göydən asılı qalıb
Yoxdur heç bir dayağı.

Hönkür, hönkür hönkürüb,
Şimşək təkin çaxacaq,
Gur yağışa dönəcək.
Yer üzünə yağacaq.

## NAR

Babanın narı vardı,
Ortadan narı yardı.
Uşaqlar daddı nardan
Çoxlu giləsi vardı.

## AKVARİYUMDA BALIQLAR

Akvariyumda
Balıqlar üzür.
Asəf onları
Heyrətlə süzür.

Rəngarəngdilər
Burda balıqlar.
Qara, qırmızı
Göy, narıncı var.

Fere balıqlar
Şux dəcəldillər.
Dəniz meləykə,
Kəpənəyilər
Çox gözəldilər.

Hələ bir baxın
Qara neona.
Üzüb çatammır
Astronaot ona.

Asəf deyinir:
- Balıqlar suda
Nədən boğulmur?
Suda onlara
Bəs, soyuq olmur?

Yeməyi necə?
Suda yeyirlər
Hələ şənlənib
Nəğmə deyirlər.

Baxmaqla doymur
O özəlliyə
Asəf vurulur
Bu gözəlliyə.

## BAKI ŞƏHƏRİ

Xəzərin sahilindən,
Baxır Bakı şəhəri.
"Gilavar"la, "Xəzri"lə
Açılır hər səhəri.

Yaşı qədm, uludu,
"Qız qalası" qeyrəti.
Görənlərdə oyadır,
Əfsanəni, heyrəti

Tarıxləri yaşadır,
"Şirvanşahlar sarayı".
Burda görüb, düyürsan,
Yaşanan dərd, harayı.

İçərişəhər kimi
Memarlıq incisi var.
Novruz günləi burda
Tonqal çatıb, qalanar.

Qobustan qayaları
Yaşadır çox sirləri.
Müqəddəsdi, uludu,
Məbədləri, pirləri.

Qoynunu şeyr edəndə,
Mavi gözlü Xəzəri.
Qağayılar cəlb edir,
İlk baxışdan nəzəri.

Yağışı, küləyi bol,
Qırovu, qarı azdı.
Göyərçinə, qumruya
Qış günü burda yazdı.
Məşəl yanan zirvənin
Şəfəqlənir hər yanı.
Nur selində uyuyur,
"Şəhidlər xiyabanı".

Bakının qucağında
Xiyabanlar yer alır.
Sevilən dahilərə,
Abidələr ucalır.

Gözəllikləр cəlb edir,
Qoynuna gələnləri.
Həm qədimi binalar,
Həm də göydələnləri.

"Gilavar"la, "Xəzri"ylə,
Açılır hər səhəri.
Günü gündən gəncləşir
Qədim Bakı şəhəri.

## DOVŞAN BƏRƏSİ

Şabranda örüşü,
Çəpərə alıbdılar.
Dovşalara çox geniş
Bir bərə salıbdılar.

Dovşanların rəngləri
Ağ, qaradı, boz, sarı.
Hər cürə yaşadılar,
Bərənin dovşanları.

Qaldıqları yuvalar
Dayaz deyil, dərindir.
Qış çağları istidir,
Yay günlər sərindir.

Bərədə cərgə-cərgə
Ot tayası qurublar.
Yorğun düşmüş dovşanlar,
Burda mürgü vurublar.

Bəziləri dəcəldi.
Yerli-yersiz dalaşır.
Dinclik nədir bilməzlər
Bərə boyu dolaşır.

Çox incə olsalar da,
Dovşanların dişləri,
Kələm, kök, ağac şiri,
Çeynəməkdir işləri.

Yolunuz düşsə əgər,
Ay uşaqlar, gələrsiz
Bu dovşan bələsini
Heyranlıqla süzərsiz.

## ƏL ÇALIB ALQIŞLAYAR

Hamı yaxşı tanıyır,
Bu bir yaşlı Məmini.
Yamancana tapıbdı,
Dəcəlliyin çəmini.

Yuxudan oyananda
Boş göréndə otağı,
Biri-birinə qatır,
Çarpayıda yataşı.

Yastğı didişdirir,
Gücü çatmır, direşir.
Balıncı döyəcləyir,
Qucaqlayıb güləşir.

## BULAQ

Dağların ətəyində
İnci sulu bulaq var.
Bulağın gözündə də
Bitib yabanı otlar.

Bir-bir yoldum otları,
Sandım, bulaq ağlayır.
Baxdım, fərəh-sevincdən
Bulaq coşub-çağlayır.

Bulağın buz suyundan
İçəmmədim, dayandım.
Ancaq ayna suyunda
Sığallandım, darandım.

## PÖHRƏLƏR

Yamancana sozalmışdı,
Xan çinarın pöhrələri.
Su içəntək açıldılar,
Pöhrələrin çöhrələri.

## YAĞIR YAĞIŞ

Narın-narın
Yağır yağır.
Gölməçəyə
Salır naxış.

## AYANDI

Rəqs eyləyən bir qıza,
Dovşan, dedim, dayandı.
Maskasını soyundu,
Dedi, adım Ayandı.

## ƏRİMİR

Qar yağanda bağçadan
Hamı evə tələsir
Saçımıza yağan qar,
İsti duycaq əriyir

Deyirəm ki, görəsən,
Bu nə sirdir, bu nə sirr,
Babamın saçlarına
Yağan qarlar ərimir.

## AYTƏNƏM

Boynubükük bitən gül,
Nə olubdu, qəmlisən?
Ağlamısan elə bil,
Ləçəkləri nəmlisən.

Səndən şeir bilirəm,
Mənə öyrədib nənəm.
Tanımadın sən məni?
Səni sevən Aytənəm!

## ƏSGƏR NƏĞMƏSİ

Eldə, obada
Xoş titrəyiş var.
Bağçada, bağda,
Oxuyur quşlar.

Çöllər bürünüb
Al laləsinə.
Şəbnəmlər qonub
Piyaləsinə.

Kövrək sədalar
Qaval, tarındı.
Uçan nəğmələr
Uşaqdarındı.

Göy üzü mavi
Üfüqlər duru.
Ələnib yerə
Günəşin nuru.

Çaylar səs salar,
Coşar dərədə.
Ceyran-cüyürlər,
Mələr bərədə.

Bir səs də var ki,
Ləldi kəlməsi.
Qəlb ovsunlayan
Əsgər nəğməsi.

# Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

№ 20 (2492) 5 iyun 2026-cı il

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi




# LERİK - DAĞLAR DİYARI

**Azərbaycanın bir-birindən gözəl, yaraşıqlı və füsunkar rayonları, məkanları çoxdur. Və bunların da hər birinin heç birinə bənzəməyən gözəllikləri mövcuddur. Allah sanki bu yerlərə, bu torpaqlara öz əli ilə qeyri-adi möcüzəli bir görüntü verib. Heç şübhəsiz, bu dağlara, bu yamaclara, bu meşələrə, bu çaylara, bu göllərə baxanda sevinirsən ki, nə yaxşı ki sənin Vətənində ilahi tərəfindən belə gözəllik bəxş edilmiş rayonlar, kəndlər, qəsəbələr, məkanlar var. Bəlkə də dünyanın ən gözəl yeri Azərbaycandır. Ən azından ona görə ki, on iki iqlimdən doqquzu bizim ölkədə var. Ona görə də biz Yaradana şükür etməliyik. Çünki İlahiyə şükür edəndə o, həmişə insanlara daha səxavətli, daha mərhəmətli olur.**

Ölkəmizin belə gözəl yerlərindən, məkanlarından, rayonlarından biri də Lerikdir. Dağlar qoynunda, meşələr içində, güllər-çiçəklər arasından boylanan Lerik. Bilmirəm, siz Lerikdə olmusunuz, yoxsa yox?! Amma mən bir neçə dəfə olmuşam, oranın gözəlliyinə və insanların səmimiyyətinə heyran qalmışam. Düzdür, sovet dövründə də Lerik elə varlı rayon olmayıb. Ancaq insanları çox halal, çox zəhmətkeş və çox dürüst adamlar olublar. Onların çörəyi əsasən heyvandarlıqdan çıxıb və buna görə də bu zəhmətkeş insanlar həmişə çalışıblar, vuruşublar və istəklərinə qovuşublar.

Son on ildə Lerik rayonu sözün həqiqi mənasında çox möhtəşəm qurulub və gözəl bir məkana çevrilib. Bu da heç də təsadüfi deyil. Çünki Ümummilli Lider Heydər Əliyevin vaxtında və prezident İlham Əliyevin hakimiyyəti dövründə bütün rayonlar kimi Lerikə də çox böyük diqqət və qayğı göstərilib. Onu heç kim bilməsə də leriklilər çox yaxşı bilirlər və bu münasibəti heç vaxt yaddan çıxarmırlar.

Bu yaxınlarda yenidən yolum bu gözəl, yaraşıqlı və insanı heyran edən Lerikə düşmüşdü. Sözün düzü, rayonun mərkəzinə çatmamış dağların qoynunda olan gözəl bir çayxanada səhər saatlarında pürrəngi çay içdik, bir tikə çörək kəsdik. Lerikin balının, pendirinin dadını hiss etdik. Hiss etdik ki, buranın havası, suyu, hətta ağacları belə başqa cürdür. Heç şübhəsiz belə bir gözəlliyin içində adam özünü daha rahat və daha xoşbəxt hiss edir. O təmiz havanı udduq, gözəl meşəliyə, ağaclığa baxdıq, hər tərəfdə sanki cənnəti gördük. Təbii ki, biz yolumuza davam etdik. Rayon mərkəzinə çatanda burdakı möhtəşəm quruculuq, abadlıq işlərini görüb daha da sevindik. Çünki Lerikin mərkəzində bir-birindən gözəl parklar, xiyabanlar və küçələr salınıb. Və həmin parklar və xiyabanlar ən müasir üslubda inşa edilib. Demək olar ki, son on ildə Lerikdə gedən tikinti işləri nəticəsində bura tanınmaz dərəcədə dəyişib və gözəlləşib. Səliqəli küçələr, yolun kənarındakı ağac, bəzək kolları adamın diqqətini özünə çəkir. Hələ bunlar heç də hamısı deyil, bu abadlıq və quruculuq işləri Lerikin kəndlərinə qədər davam edir. Əvvəllər Lerikin bir çox kəndlərinə, xüsusilə də dağ kəndlərinə getmək mümkün deyildi. Amma son illər həmin yaşayış yerlərinə də yeni yollar çəkilib, infrastruktur qurulub, insanların rifahı və yaxşı yaşaması üçün hər cür şərait yaradılıb.



Lerikin mərkəzindəki Heydər Əliyev parkı öz gözəlliyi ilə diqqəti cəlb edir. Xüsusən də yaz və yay aylarında burda çox sayda insanlar istirahət edir, orda yaradılmış şəraitdən bəhrələnirlər. Əlbəttə, hər şey gözəl olanda daha yaxşıdır. Bu gözəlliyi rayonun Mənzil Kommunal Təsərrüfatının əməkdaşları çox gözəl saxlayırlar.

Daha doğrusu, onlar yeni əkilmiş ağacları, yaşıllıqları, gülləri-çiçəkləri isti yay günlərində davamlı olaraq suvarırlar. Heç şübhəsiz, isti yay günlərində həmin yaşıllıqlara qulluq edilməsə o ağaclar quruya bilər. Bütün bunları kommunal təsərrüfatın əməkdaşları çox gözəl bilirlər və öz vəzifələrinin öhdəsindən bacarıqla gəlirlər.

Son illər Lerikdə neçə-neçə xəstəxana, məktəblər, uşaq bağçası, sosial obyektlər tikilərək əhalinin istifadəsinə verilib.

Bütün bunlar onu deməyə əsas verir ki, Lerik camaalı rayonda gedən abadlıq və quruculuq işlərindən çox razıdırlar. Ən azından ona görə ki, yeni binalarda insanlara hər cür şərait yaradılıb, mövcud olan imkanlardan istifadə olunur. Həm xəstəxanalarda, həm də məktəblərdə birmənalı demək olar ki, müasir texnika və texnologiyalar quraşdırılıb.

İstedadlı şair-publisist Ağacəfər Həsənli deyir ki, Lerik bizim and yerimizdir. Çünki bu yurdda dünyaya gəlmiş və burda da böyümüşük. Baxmayaraq ki, Bakıda yaşayıb-işləyirəm, amma tez-tez öz doğma elimə-obama gəlirəm. Burda son vaxtlar çox möhtəşəm abadlıq və quruculuq işləri görülüb, mədəniyyət sahəsində də bir çox addımlar atılıb.

Yəni ziyalıya, yazıçıya, şairə, yaradıcı adama çox böyük hörmət var. Bu mühiti də rayonun icra başçısı yaradıb. Gənc olmasına baxmayaraq, çox istedadlı, zəhmətkeş və vətənpərvər bir insandır.

Cənab başçı Əkbər Abbasov tez-tez rayonda Lerikdən kənarda yaşayan tanınmış ziyalıların, yazıçıların, şairlərin görüşünü təşkil edir və özü də bu görüşdə iştirak edir.

Mən də dəfələrlə o görüşlərdə olmuşam, rayonumuzda belə bir xoş mühit yaratdığına görə Cənab başçıya öz təşəkkürümü bildirmişəm. Sözün həqiqi mənasında bu icra başçısı xalqına, vətəninə çox namusla və şərəflə xidmət edir.

**Kulturologiya elmləri doktoru, Dövlət Mədəniyyət və İncəsənət Universitetinin professoru İlqar Hüseynov da tez-tez doğma vətəninə baş çəkir. İlqar müəllim deyir ki, Lerik mənim üçün dünyanın ən gözəl yeridir. Üstəlik də burda ziyalıya, alimə, şairə, yazıçıya çox böyük hörmət var. Mən dəfələrlə kitabım çap ediləndə rayona gəlmişəm, insanlarla görüşmüşəm və o kitablarımı həmyerlilərimə bağışlamışam. Görüşlərdə icra başçısının xüsusi zəhmətini qeyd etməliyəm. Çünki cənab başçı həmişə lerikli ziyalılara çox böyük sevgi və hörmətlə yanaşıb, rayonda onların yüksək səviyyədə görüşünü təşkil edib. Təbii ki, prezident İlham Əliyevin gənc kadrlara etimad göstərməsi bizi çox sevindirir. Onların timsalında Lerikin icra başçısının fəaliyyəti bizim camaatın ürəyincədir. Ona görə də bütün leriklilər qollarını çırmayıb rayonda gedən abadlıq və quruculuq işlərində iştirak edirlər. Çünki Lerikin gələcəyi bu gündən də gözəl olacaq!**

**Emin FAİQOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ
MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# Mən şair deyiləm, ağ kağızlara Özümdən xəbərsiz sətirləşirəm

Bu günlər doğma yerləri -Qazax və Ağstafa rayonlarına ziyarətdən qayıdan dostum, görkəmli rəssam, Beynəlxalq Aktivist Sənətçilər Birliyinin Azərbaycan təmsilçisi, Birliyin Rəsm Komitəsinin sədri, şair qəlbli Nəvai Metin maraqlı söhbətlərini dinlədim.



Söhbət əsnasında Nəvai müəllim danışırdı ki, ölkəmizin qərb bölgəsində hansı məclisdə, hansı görüşdə olduqsa söz şahlıq edir, saz meydan sulayırdı. Kimi dindirirdinsə şeir söyləyir, dastan danışırdı. Hamısı da təptəmiz, dupduru, saf, səmimi. İstər-istəməz unudulmaz şairimiz Əli Kərimin məşhur misraları yada düşür:

*Yollar kənarında pinəçilər var,*
*Alim təfəkkürlü, şair xəyallı...*

Onun görüşdüyü sadə peşə adamlardan biri də daşyonan-hörükçü peşəsində çalışan Fərman Eloğlu olub.

Fərman Eloğlu 1957-ci ildə Ağstafa rayonunun Saloğlu qəsəbəsində anadan olub. Orta məktəbi qəsəbədə bitirib. Sonralar hörükçü peşəsinə yiyələnib. İçi dolu şeirdi, nəğmədi, oxşamadı, bayatıdı Fərman kişinin. Şeir həm də Fərman kişi üçün ruhi qidadır. Fərman Eloğlunun Nəvai müəllimə təqdim etdiyi bir ümumi dəftər dolu şeirlərindən bir neçəsini oxucuların diqqətinə təqdim etmək istədim.

**Ramiz Göyüş**
**AYB-nin üzvü**

## *Yoxdur*

**Aylar ötür, il dolanır,**
**Yaşımdan xəbərim yoxdur.**
**Saqqalım-bığım ağarıb,**
**Başımdan xəbərim yoxdur.**

**Dünyanın işi dolaşıq,**
**Dərdə-kədərə yoldaşıq.**
**Gözüm könlümə yaraşıq,**
**Qaşımdan xəbərim yoxdur.**

**Qocalıram, yaşlaşıram,**
**Öz-özümlə savaşıram.**
**Bilərəkdən daş atıram,**
**Huşumdan xəbərim yoxdur.**

**Fərman sevməz yamanlığı,**
**Uca tutub insanlığı.**
**Fələyin qəfil atdığı**
**Daşından xəbərim yoxdur.**

## *Dağların*

***Məmməd İlqara***

**Dağlardan çox yazdın, ay Məmməd İlqar,**
**Məni də ağlatdı dərdi dağların.**
**Oxudum şeirini mən indi bildim,**
**Hər qarış torpağı dərddi dağların.**

**Boylanır yollara bəlkə el gələr,**
**"Dübeyti" üstündə dağlar dil deyər.**
**Zirvədə, yamacda açılan güllər**
**Xalıdan süfrəsin sərdi dağların.**

**İncədən siz gəlin, Saloğludan biz,**
**Yaradaq dalğalı bir coşqun dəniz.**
**Ağlayır, sızlayır cığır-izimiz,**
**Hanı "Tərəkəmə" kəndi dağların.**

**Dağların vəsfini zirvədən yazaq,**
**Murovu oxşayaq, Kəpəzdən yazaq.**
**Eloğlu, biraz da İncədən yazaq,**
**Var belə istəyi, şərti dağların.**

## *Dünya*

**Baş aça bilmədim heç kələyindən,**
**Sola-sağa baxdım, tələsən, dünya.**
**Utanan deyilsən bəd əməlindən,**
**Çiynimizdə yüksən, şələsən, dünya.**

**Baxıram, yaltaqlıq can alıb gedir,**
**Üstəlik paxıllıq yan alıb gedir.**
**Canda qaysaqları qanadıb gedir,**
**Qansoran, qaniçən zəlisən, dünya.**

**Ötən xatirələr qaranlıq qaldı,**
**Sevinci, gülüşü bir anlıq qaldı.**
**Nə qədər arzular yarımçıq qaldı,**
**Küllü-kainata bəllisən, dünya.**

**Ay Fərman, gileyin heç yeri yoxdur,**
**Həyat bulanıqdır, dürr yeri yoxdur.**
**Min il yaşasan da, xeyiri yoxdur,**
**Sən insan gözündə zəlilsən, dünya.**

## *Gələcəm, anam, gələcəm*

**Tənhalıqdan yoruldunmu?**
**Gələcəm, anam, gələcəm.**
**Həsrətimdən qovruldunmu?-**
**Gələcəm, anam, gələcəm.**

**Qüssə-kədər, qəm eləmə,**
**Qara gözü nəm eləmə.**
**Sevincini kəm eləmə,**
**Gələcəm, anam, gələcəm.**

**Ömrü-günü vermə yelə,**
**Qayğı göstər, diqqət elə.**
**Görüşünə gülə-gülə**
**Gələcəm, anam, gələcəm.**

**El-obamla öyünməyə,**
**Dost-qohumla şənlənməyə.**
**Sevincinə sevinməyə**
**Gələcəm, anam, gələcəm.**

**Soy-kökümdə düz olmağa,**
**Ocağında köz olmağa.**
**Yurd-yuvama göz olmağa**
**Gələcəm, anam, gələcəm.**

**Günəş hələ boylanmamış,**
**Qoyun-quzu haylanmamış,**
**Sən yuxudan oyanmamış**
**Gələcəm, anam, gələcəm.**

## *İncələşirəm*

**Mən şair deyiləm, ağ kağızlara**
**Özümdən xəbərsiz sətirləşirəm.**
**Duyuram ömrümün ağrı-acısın,**
**Özüm öz dərdimə hənirləşirəm.**

**Yaxşıdan yamanı ayırmaq çətin,**
**Min cürə rəngi var hər bir sifətin.**
**Allaha inamın, doğru məsləkin**
**Önündə gedirəm, mətinləşirəm.**

**Can deyərəm qohumlara, dostlara,**
**Bir-birindən əhval tuta, hal sora.**
**İbrahim İlyaslı, Məmməd İlqara**
**Şeirin qüdrətindən mehirləşirəm.**

**Fərman bağlı olub haqqın pirinə,**
**Arxayındır öz ağlına, sərinə.**
**Düşüb sazın-sözün sirli sehrinə,**
**Dəyərli oluram, İncələşirəm.**

## *Var*

**Həyata ötəri baxma, eloğlu,**
**Həyatın dəyişən zamanları var.**
**Qara-ağ günü var yaşanan ömrün,**
**Taleyə güvənmə, bəd anları var.**

**Çalış hər addımda ehtiyatlı ol,**
**Xeyirxah işlərə yelqanadlı ol.**
**Vətənə bağlı ol, elə bağlı ol,**
**Desinlər nə gözəl amalları var.**

**El arxadır, köməyidir insanın,**
**Gərəyi ol sənə candan yananın.**
**Yaltaqlanıb dili topuq çalanın**
**Bilin ki, haqdan çox yalanları var.**

**Qol-qanaddır saf halallıq Fərmana,**
**Əbədidir bu ucalıq Fərmana.**
**Haqdan gəlib bu qocalıq Fərmana,**
**Çün onun səliqə-səhmanları var.**

# Aktyor: "Onları inandırmaq çətin olsa da..."

**Bildiyimiz kimi, "Bir iyun uşaqların beynəlxalq müdafiəsi günü"dür. Əlbəttə, fidanlar bizim gələcəyimizdir. Ancaq biz o gələcəyimizlə necə davranmalıyıq. Onlara necə xidmət etməliyik. Bu məsələ artıq fərdiləşmiş mövzudur. Yəni hər kəs öz övladını necə görmək istəyirsə, elə yetişdirməyə çalışır. Bütün bu məsələlərin fövqündə isə bir məqam dayanır- uşaqları inandırmaq. Texnologiyanın bu qədər inkişaf etdiyi bir vaxtda onları inandırmaq nə dərəcədə asandır. Doğrudanmı uşaqlar əvvəlki qədər nağıllara inanır?**

Ömrünü uşaqları inandırmağa və güldürməyə həsr edən Azərbaycan Dövlət Kukla Teatrının aktyoru Rəhim Rəhimov müasir dövrdə uşaqları inandırmaq çox çətin olduğunu söyləyib: "Ümumiyyətlə, uşaqları indiki zamanda nağıllara inandırmaq çox çətindir. Biz çalışırıq ki, tamaşaları müasirləşdirək ki, teatr uşaqlara maraqlı gəlsin. İndi uşaqlar daha çox "youtube" üzərindən yayımlanan cizgi filmlərinə və həmin presonajlara daha çox maraq göstərirlər. Biz də tamaşalarda o presonajlardan istifadə edirik ki, uşaqlar teatra gəlib, tamaşaya baxanda onlar üçün tamaşa maraqlı olsun. Bütün çabalarımız onların zövqünü oxşamaq üçündür. Çalışırıq ki, uşaqların tamaşaya diqqətini müasir mövzularla çəkək. Uşaqlar daha çox öz dövrlərinin personajlarını sevirlər. Onu da qeyd edim ki, yeni personajları teatra gətirməklə qətiyyən uşaqların zövqünü korlamırıq. Əksinə, o presonajlar vasitəsiylə uşaqları xeyirxahlığa , mərhəmətli olmağa səsləyirik. Bütün tamaşalarımızın əsas "mesaj"ı odur ki, dünyada yaxşılıq qalib gəlir. Onları inandırmaq nə qədər çətin olsa da müxtəlif yollarla buna cəhd edirik. Onları özümüzə inandırmağa çalışırıq ki, uşaqlar tamaşalara gəlsinlər. Uşaqlar bizim gələcəyimizdir. Biz tamaşalarımızla ancaq onlara yaxşı mesajlar ötürürük".



**Əntiqə Kərimzadə**

## *Təbrik edirik!*



**Borçalı elinin böyük ziyalısı, mayası şeirdən, qoşmadan, təcnisdən, dodaqdəyməzdən, dildönməzdən, bayatıdan yoğrulmuş, şair təbiətli insan, Lənkəran Dövlət Universitetinin kafedra müdiri, pedaqoji elmlər doktoru, dostumuz və qardaşımız Vidadi Orucovun 70 yaşı tamam olur.**

**Şərəfli və namuslu ömür yaşamış Vidadi müəllimə cansağlığı arzulayır, ona elmdə daha uca zirvələr fəth etməyi nəvəli-nəticəli günlər diləyirik! Vidadi qardaşımızla düz 35 ildir ki, dostluq edirik, duz-çörək kəsirik. Və həmişə duz-çörəyə, dostluğa sədaqətli olduğunu gördük! Ən yüksək vəzifədə belə dəyişmədi, əvvəlki kimi sadə və səmimi oldu. Ona görə də biz onu çox istəyirik. Qoy yadımızdan çıxmamış deyək: Vidadi qardaşımız həm də bizim iş yoldaşımız və yaxın dostumuz, filologiya elmləri doktoru Məhəmmədəli Mustafanın yaxın qohumudur! Vidadi müəllim, bu gözəl gündə sizi bağrımıza basıb öpür və sizə həmişə uca zirvədə durmağı arzulayırıq!**

**Hörmətlə: Faiq Qismətoğlu, Asif Talıboğlu və Daşdəmir Əjdəroğlu**

# *Xalq artisti: "Aktyor olduğum üçün atam məni danışdırmadı"*



**Xalq artisti Tariyel Qasımov illər əvvəl atası ilə münasibətindən danışıb.**

Adalet.az xəbər verir ki, o, aktyor olduğu üçün atası onunla bütün əlaqələrini kəsdiyini bildirib:

"Mən aktyor olduğum üçün atam mənimlə əlaqələrini kəsdi. Anam Bakıya gəlib mənə dedi ki, atan deyir ki, Bədən Tərbiyəsi insitutuna qayıtsın. Əgər qayıtmasa, mənim o adlı oğlum yoxdur. Sözsüz ki, bu hadisə əhvalıma pis təsir etmişdi. Şahmar Ələkbərov mənim pis olduğumu anlamışdı. Nə baş verdiyini soruşdu. Hər şeyi ona danışdım. Məni evinə apardı. Tam 10 il onun evində yaşadım. Hətta Şahmar müəllimin həyat yoldaşı mənim üçün elçi getmişdi. Onun bu yaxşılığını necə unudum?

Təsəvvür edin ki, atam yenə də mənimlə danışmırdı. Ancaq xalq artisti olandan sonra atam məni bağışladı. Mənimlə barışdı".

**Əntiqə**

# *UEFA klubların yeni reytinqini açıqladı*



**Münhenin "Bavariya" klubu UEFA-nın yenilənmiş klub reytinqində birinci pilləyə yüksəlib.**

QOL.az xəbər verir ki, siyahıda ikinci yerdə Madrid "Real", üçüncü pillədə isə PSJ qərarlaşıb. Məlumata görə, bu reytinq klubların 2021/2022-ci illər mövsümündən etibarən Avropa turnirlərində göstərdiyi nəticələrə əsaslanır.

Son beş mövsümün hər birində Çempionlar Liqasının 1/4 finalına, eləcə də iki dəfə yarımfinal mərhələsinə yüksələn "Bavariya" məhz bu sabit və uğurlu seriya sayəsində siyahıya başçılıq etməyi bacarıb.

**Geridə qalan 2025/2026-cı illər mövsümündə ən çox xal toplayan Londonun "Arsenal" klubu siyahıda 7-ci pillədə qərarlaşıb. Reytinqdə ən diqqətçəkən sıçrayışı isə İngiltərənin digər təmsilçisi "Aston Villa" edib. Birminqem klubu birdən-birə 29 pillə irəliləyərək 17-ci yerdə mövqe tutub.**


Təsisçi və baş məsləhətçi: Aqil ABBAS
Baş redaktor: İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı şəhəri, Neftçilər 67, mənzil 21 A
Telefon: (012) 491-23-53
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 280
Çapa imzalanmışdır: 04.06.2026